Çayın şırıltısı, ulduzların parıltısı, cırcıramaların nəğməsi, yaşıl çəmənlik, ətrafdakı sıra dağlar, yaşıl yamaclar-hər şey, hər şey həyata vurğun könülləri dilə gətirir. Sən nə sevimlisən, a mənim yurdum! Mən sənin hər qarış torpağında gördüyüm, duyduğum gözəlliyi bir yerə toplamağa qadir olsaydım, dünyaya göstərib deyərdim: baxın, görün və Zəngəzuru gözəllik, təbii sərvətlər diyarı adlandırın!

*Əyyub Abasovun "Zəngəzur" romanından*



Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

Zəngəzur Cəmiyyətləri İctimai Birliyi

Hacı Nərimanoğlu

# ZƏNGƏZUR: 100 SUAL, 100 CAVAB



Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının
maliyyə yardımı ilə nəşr edilmişdir.

**HACI NƏRİMANOĞLU**

# Zəngəzur: 100 sual, 100 cavab

**Bakı – 2019**

Azərbaycan Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur.

Elmi redaktor: Qabil Əliyev

Azərbaycan Universitetinin İctimai elmlər kafedrasının müdiri,
tarix üzrə elmləri doktoru, professor

**Müəllifdən:**

Kitabda Zəngəzur bölgəsinin tarixinə dair 100 sual cavablandırılıb. Məqsəd bu torpaqların ən qədim dövrlərdən Azərbaycanın müsəlman-türklərinə mənsub olduğunu faktlarla ictimaiyyətə çatdırmaq, vətəndaşlarımızın elmi-tarixi, humanitar biliklərini artırmaq, maariflənməsinə yardımçı olmaq, itirilmiş torpaqlarımıza sahiblik hisslərini diri saxlamaq, xalqımızın dədə-baba yurdlarımıza qayıdış ruhunu yüksəltməkdir.

İşğal altında qalan Zəngəzurun, Qarabağ və digər bölgələrimizin əsarətdən azad olunması dövlətimizin birinci dərəcəli vəzifəsidir, borcudur, milli şərəf, qeyrət məsələsidir. Torpaqlarımızın azad edilməsinə aparan yol həm də gerçək tariximizi, milli kimliyimizi, keçmişimizi öyrənib dərk etməkdən keçir. Həyatı ermənilərlə döyüş, mübarizə örnəyi olan tanınmış Zəngəzurluların ömür yolunun təbliği, bu günkü və gələcək nəsillərə çatdırılması da əsas hədəflərdən biridir.

Elmi-populyar nəşrdə arxiv materiallarından, müəllifin indiyədək Zəngəzurun tarixinə dair kitablarında, dissertasiya işində, elmi-publisistik məqalələrində istinad etdiyi mənbələrdən, araşdırmalarından istifadə olunmuşdur.

Kitab tədqiqatçılar, tarixçilər, müəllim və tələbələr, geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

ISBN
© Zəngəzur Cəmiyyətləri İctimai Birliyi, 2019

## 1. Zəngəzurun ərazisi hansı bölgələri əhatə edib?

Azərbaycanın tarixi Zəngəzur mahalının ərazisi, əsasən, indiki Ermənistan Respublikasının Gorus, Sisian, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarının torpaqlarını əhatə edib.




## 2. Zəngəzurun sahəsi nə qədər olub?


Azərbaycan Respublikasının Zəngəzur mahalının ümumi ərazisi 7824 km²

Zəngəzur mahalının bölgələri

Zəngəzur qəzası ayrıca inzibati-ərazi vahidi kimi 1861-ci ildə yaradılıb. 1867-ci ilin dekabrında Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda Zəngəzur qəzası (mərkəzi, Gorus) onun tərkibinə daxil edilmişdi. Cavanşir, Şuşa Naxçıvan qəzaları, cənubdan Araz çayı boyunca İranla əhatə olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) Qarabağ general-qubernatorluğunun 4 qəzasından biri olmuş Zəngəzurun sahəsi 7.824 kv. km idi.

## 3. “Zəngəzur” toponiminin etimologiyası necədir?

Addakı «**zəngi**» etnonimdir, türk tayfa adıdır. Bir çox yer adlarında bu səlcuqların, oğuzların izləri yaşayır. Məsələn, *Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngənə*, *Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan – Zəncan, Zəngilli* və b. Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Abbasqulu ağa Bakıxanov və b.-nın əsərlərində oğuz tayfalarından birinin «zəngi» tayfası olduğu yazılıb.



Zəngəzurdakı ikinci leksem ərəbcə «sur» dağ, daş, divar, qayalıq yer, hasar, qala, bürc deməkdir, dilin ahənginə, asan tələffüzə görə s-z-yə çevrilib. Bu ad ərazinin relyefini düzgün səciyyələndirir – yəni zəngilərin yaşadığı dağlıq yer. Zəngəzur ərazisindəki adların bir çoxunda sur-zur-zor daşlaşıb qalıb.

Bu toponimi erməniləşdirə bilməyənlərin yozumları, vikipediya, internet səhifələrində də yaydığı «Этимология названия «Зангезур» неясна» kimi fikirlərinin heç bir əsası yoxdur. https://ru.wikipedia.org/wiki/Зангезур



## 4. Zəngəzur ərazisi hansı dövlətlərin tərkibində olub?



Ərazi müəyyən fasilələrlə e.ə. IV əsrdən b.e. VIII əsrinə qədər Alban dövləti və Sasani imperatorluğunun, VII-IX əsrlərdə Ərəb xilafətinin, IX-XI əsrlərdə Sacilər, Salarilər və Rəvvadilər dövlətlərinin, XII-XIII əsrin əvvəllərində Azərbaycan Atabəyləri dövlətinin, XIII-XIV əsrlərdə Hülakülər dövlətinin, XIV əsrin sonu XV əsrin əvvəllərində Cəlairilər dövlətinin və Teymur imperiyasının, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrin başlanğıcında Səfəvi dövlətinin tərkibində olmuşdur. XVI əsrdə baş vermiş




Səfəvi-Osmanlı savaşları və XVII-XVIII əsrlərin qovşağında (1590-1612 və 1724-1735-ci illər) Osmanlı idarəçiliyində olub. Zəngəzur ərazisi xanlıqlar zamanında Qarabağ xanlığının hakimiyyəti altında olmuşdur. XIX əsrin əvvəllərində Rusiya işğalına məruz qalan Zəngəzur rus müstəmləkəçilik idarə sistemində Yelizavetpol quberniyasının, 1918-1920-ci illərdə isə Azərbaycan Demokratik Respublikasının Qarabağ general-qubernatorluğunun tərkibindəki qəzalardan biri olmuşdur.

**5. Nə üçün Zəngəzur bölgəsinin tarixi ilə daha çox rus, erməni alimləri məşğul olub?**

Erməni alimləri Zəngəzuru tarixi erməni torpaqları kimi tanıtmağa çalışır, bununla həm də işğalçılıq, ilhaq siyasətinə haqq qazandırmağa çalışırlar. Bu məsələdə ilk növbədə bu işğala 200 ildən bəri hər cür hərbi-siyasi, mənəvi yardımçı olmuş rus imperiyası da maraqlıdır. Ona görə də Vətən torpaqlarımızın şimalında çar Rusiyasının və sovet-kommunist rejiminin 200 illik əsarəti dövründə Azərbaycan xalqının tarixinə dair həqiqətlər çarizmin və sovet «DTK» üsuli-idarəsinin imperiya siyasətinə uy-




ğun olaraq qəsdən ciddi saxtalaşdırmalara və açıq-aşkar təhriflərə məruz qalmışdır. Azərbaycan alimləri, tədqiqatçıları çox zaman bilərəkdən bu problemlərin araşdırılmasından aralı saxlanılmış, arxivlərə buraxılmamışdır. Azərbaycan tarixinin bir çox tale yüklü problem və məsələlərinin «araşdırılması» ilə daha çox rus, erməni, gürcü tarixçiləri məşğul olmuşdur. Sovet tarixşünaslığında, ensiklopediya və dərsliklərdə həqiqətdən uzaq elmi konsepsiyalar xalqımızı, vətənimizi tarixən mənsub olduğu ümumtürk nəhrindən, milli soy-kökündən ayırmağa yönəlmişdir.



**6. Ümummilli lider Heydər Əliyev Zəngəzur tarixinin obyektiv tədqiqinə necə stimul verdi?**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri və institut rəhbərləri ilə keçirdiyi görüşdə milli tarix elmi qarşısında Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yenidən obyektiv, vicdanlı yazılması vəzifəsini qoydu. Məsələnin bu müstəvidə qoyulmasının əsas məqsədi son iki əsr ərzində Azərbaycan xalqının yaşadığı məşəqqətli tarixin bütün qaranlıq səhifələrinin açılaraq ilk növbədə Azərbaycan xalqına, həm də dünya ictimaiyyətinə çatdırılması idi. 1997-ci il dekabrın 18-də imzaladığı *"1948-1953-cü il illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"* və *1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında"* fərmanlar itirilmiş torpaqlarımızın, o cümlədən Zəngəzurun həqiqi elmi tarixinin tədqiqi üçün hüquqi əsaslar yaratdı.

**7. Azərbaycan Prezidenti İlham Əliyev Zəngəzurla bağlı dövlətimizin siyasi mövqeyini necə ifadə edib?**

2014-cü il aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqində son iki əsrdə Zəngəzurla bağlı tarixi ədalətsizliyin aradan qaldırılacağına dair demişdir: *"Xalqımıza qarşı ədalətsizlik edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru*

*Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə, bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda, bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda, böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq."*



**8. Zəngəzur tarixinin öyrənilməsinin hansı elmi-tarixi, siyasi-mənəvi əhəmiyyəti vardır?**

Müasir Azərbaycan tarixşünaslığında itirilmiş tarixi torpaqlarının tədqiqi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşğal altında olan Qarabağ, Zəngəzur üzərində dövlətimizin suveren hüququnun bərpa olunması həm də həmin torpaqların tarixən xalqımıza məxsus olmasını elmi cəhətdən sübuta yetirməkdən, dünya ictimaiyyətinə çatdırmaqdan keçir.



Tarixi gerçəklikləri mənbələrə istinadla, elmi əsaslarla əks etdirən tədqiqat əsərlərinin yazılması, nəşri, yayılması bu mənada milli məsələ, dövlət əhəmiyyətli vəzifədir.

**9. Hansı xarici alimlərin əsərlərində Zəngəzurla bağlı araşdırma məlumatları var?**



Diakonoff I.M, Eidem J, Grayson A.K, Kapançanyan Qr.A, Melikişvili Г.A, Meşşaninov И.И, V.M.Sısoyev, Пerixanyan A.Г, Turayev C.A, İ.Şeblıkin və digər alimlərin tədqiqatlarında Zəngəzurun qədim tarix, mədəniyyətinə, məişətinə dair çox sayda tutarlı məlumatlar vardır. Bu mənbələrdə Zəngəzur bölgəsinin Azərbaycan mədəniyyətinin qədim beşiklərindən biri olması fikri təsdiq edilir.

**10.Azərbaycan tarixşünaslığında Zəngəzurun tədqiqi ilə məşğul olanlar kimlərdir?**

XIX-XX əsr Azərbaycan tarixşünaslığının məşhur nümayəndələri Mirzə Camal Cavanşir, Mirzə Adıgözəl bəy, Rzaqulu bəy Cavanşir, Əhməd bəy Cavanşir, Mir Mehdi Xəzani və b.-nın Qarabağ tarixinə həsr edilmiş əsərlərində, N.N.Şavrov, A-do,S.Zavaryan, M.S.Ordubadi, M.M.Nəvvab, M.R.Fənanın əsərlərində Zəngəzurun tarixinə dair qiymətli məlumatlar var.




Müstəqillik dövründə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda Zəngəzur tarixinə dair bir çox tədqiqat əsərləri çap edilmişdir və hazırda Tarix İnstitutunda ayrıca monoqrafiya nəşrə hazırlanır. Tədqiqatçı və alimlərimizdən Akif Muradverdiyev, Musa Urud, Vəli Əliyev, İsmayıl Musayev, Kamran İsmayılov, Nazim Mustafa və başqaları Zəngəzur tarixinin obyektiv araşdırılıb öyrənilməsi istiqamətində dəyərli işlər görmüşlər.

**11.Zəngəzurun mənbələrdə adı keçən ən qədim bölgəsi haradır?**

Mənbələrdə xatırlanan ilk yer adı Mehridir. Assur hökmdarları I Tukulti-Ninurta, I Tiqrat-palasar və II Adadnerari e.ə. XIII-IX əsrlərdə Sanqibuti və Armarili vilayətlərinin sərhədində, Urmiya gölündən şimalda yerləşən Mehri adlı ölkəni viran qoyduqlarını, sərvətlərini, var-yoxlarını daşıyıb apardıqlarını yazır. E.ə. XIII əsrin hett mətnlərində bildirilir ki, huri icmalarından birinin başçısı Urhi-Teşub Mehrinin çarı ilə müqavilə bağlamışdır. O dövrün Aşşur kitabələrində Mehri sakinlərinin kuti hərbi tayfa ittifaqının əsas hərbi qüvvələrindən biri olduğu qeyd edilir. İ.M.Dyakonovun assur-babil mənbələrində Urartu və qədim tarix icmalarına dair yazdığı şərhlərdə tarixçi S.M.Qaşqay bu yerin doğru olaraq Zəngəzurun cənub torpağı olan Mehri bölgəsi ilə eyni olduğunu göstərir.

Qubadlı yer adının bəzi mənbələrdə V-VI əsrdə yaşamış Sasani hökmdarı I Qubadın adı ilə bağlı olduğu yazılsa da, professor Məmmədhüseyn Təhmasib toponimin türksoylu tayfa adı ilə bağlılığını göstərib.

**12. Zəngəzurun Urartu, Skiflər, Atropatena və Albaniya dövrü barədə hansı bilgilər vardır?**

Urartu çarı Menuanın [e.ə. 810-786-cı illər] zamanında urartulular Cənubi Azərbaycanın Qaradağ mahalında yerləşən əraziləri tuturlar, 21 qalasını, 45 yaşayış məskənini öz hakimiyyəti altına aldılar. E.ə.VII əsrin 70-ci illərində Azərbaycanın Araz çayından şimaldakı ərazilərində, Manna və Urartu arasında Skif şahlığı meydana gəldi. Bu dövlətin hüdudları Şəki və Gəncədən Urmiya gölünə qədər uzanırdı. Zəngəzur bölgəsi skiflərin Urartuya yürüşlərinin əsas dayaq məntəqəsi idi. Eramızdan əvvəl VII əsrdə Skif şahlığı Mada-Midiya ordusu tərəfindən Zəngəzur bölgəsi də daxil olmaqla tam işğal edilir. İ.M.Dyakonovun




fikrincə e.ə. 321-ci ildə Azərbaycan torpaqlarında Atropatena şahlığı yaranarkən Zəngəzur da çox geniş bir ərazini əhatə edən bu dövlətin tərkibində olmuşdur.

Urartuluların böyük hərbi, strateji əhəmiyyətə malik Zəngəzur ərazisini tutmaq üçün I Rusanın hakimiyyəti illərində apardıqları əməliyyatlar barədə Göyçə gölünün Zəngəzur torpaqlarına bitişik cənub sahillərində aşkar edilmiş Sovinar kitabəsində məlumat verilir. Urartu mətnlərində xatırlanan toponimlərin lokalizə problemi ilə məşğul olan tədqiqatçılar birmənalı şəkildə Sovinar kitabəsində adı çəkilən 19 ölkənin Göyçə gölündən şərqdə və cənubdakı əraziləri, həm də Zəngəzuru əhatə etdiyini bildirirlər.

Antik dövrlərdə Zəngəzur bölgəsi Atropatena və Albaniya ərazilərinə daxil olmuşdur. Albaniya hökmdarı Aran Sisakan nəslinə mənsub idi. Albaniyanın əsas etnosu albanlar olduğuna görə ölkənin adında da daşlaşıb yaşayır. “Kitabi-Dədə-Qorqud”un baş qəhrəmanı Qazan xan albanlar başçısıdır. Qərb tarixçiləri Raulinson və Lenormana görə, ermənilər Urartu adına haqsız yiyələnmişlər və keçmiş «Böyük Ermənistan»ı əsassız olaraq özlərinin əzəli vətəni sayırlar. Onlar bu torpaqların qədim sakinləri deyildir.




**13. Zəngəzurun hansı toponimləri qədim tayfa adlarını yaşadır?**

Skif tayfalarından olan hel və lehlər albanlar arasında yaşayırdılar. Zəngəzurun Mehri rayonundakı Leh, Lehvaz kəndləri leh

tayfa adını, Qubadlı rayonunun Hal kəndi hel tayfa adını yaşadır. Sakovuz, Maqovuz, Mavdan yer adlarında mağ, muğ, maq, sak qədim tayfalarının adları qalıb. Qafanın Keypəşin kəndinin də qədim tarixi var. Firdövsinin «Şahnamə» poemasında da qeyd olunur ki, Keyqubad şahın 3-cü oğlunun adı Keypəşindir.

Urartu mənbələrindəki İrdua, yaxud İridu şəhəri Sisianın qədim abidələrlə zəngin Urud kəndinin adında yaşayır.

Zəngəzurun şimal-şərq hissəsini təşkil edən Laçın rayonundakı Zerti kəndinin adını dilçilərimiz kutilər və lullubilərin ölkəsi olan Mannanın paytaxtı Zirtu, İzirtu şəhərinin adı ilə müqayisə edirlər.

### 14. Zəngəzurda tarixin hansı ən qədim izləri vardır?






Zəngəzur tarixinin qədimliyi həm də arxeoloji qazıntılar, aşkar edilən maddi sübutlarla da öz təsdiqini tapır. Azərbaycan ərazisini "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil etdirən Azıx mağarasına yaxın ərazidə yerləşməsi, şimaldan Xocalı-Gədəbəy, şərqdən Quruçay və Köndələnçay, qərbdən Naxçıvan, cənubdan Arazın sağsahil ərazilərindəki zəngin mədəniyyət ocaqları ilə əhatələnməsi Zəngəzurun qədim tarixi keçmişə malik olduğunu söyləməyə əsas verir. Ərazidə xeyli sayda təbii və süni mağaralarda (yerli sakinlər onları «kaha», bəzən isə «daran» adlandırır) paleolit dövründən insanlar yaşamışdır. Bu bölgənin Arazdan sonra ən iri su qaynaqları olan Bərgüşad və Həkərinin

axdığı vadilərdə və dağətəyi ərazilərdə bir-birinə yaxın məsafədə yerləşən bu mağaralar qədim insan məskənləri olmuş, həm də atəşpərəstliyin izlərini saxlamış, xalq tərəfindən müqəddəs ziyarətgah sayılmışdılar. Məs; Qubadlıdakı "İçoğuz", "Daşoğuz", "Ağ kaha", "Qara kaha", Xırman yeri», "Maltəpəsi", "Göyqala", "Qalaça", Gavur dərəsindəki mağara, təbii qalalarda aparılmış arxeoloji tədqiqatlarda aşkara çıxarılan tapıntılar eynilə Xocalı-Gədəbəy mədəniyyəti üçün səciyyəvidir.

Laçın rayonu ərazisində Vağazin, Ağoğlan, Piçənis, Sövmə, Şəlvə, Qorçu və d. alban məbədləri, çoxlu küp qəbirlər, daş heykəllər qalmışdı.

1944-cü ilin sentyabrında arxeoloq İ.Cəfərzadə və memar İ.Şeblıkin Qubadlının Əliquluuşağı kəndinin ətrafında siklopik tipli üç qala aşkara çıxarmışdılar. 1992-ci ildə Zəngilan rayonunun Qurudərə Həştab kəndi yaxınlığında əsgərlər səngər qazarkən içində tunc əşyalar olan qəbir yeri aşkar etmişdilər. Arxeoloq T. R.Əlizadə bu ərazidə tədqiqatlar apararaq e.ə VI-IV əsrə aid quş, ilan başlı bilərzik, muncuq, əqiq, cam və sair tapmışdır.

**15. Urud abidələrinin özəlliyi nədir?**



Zəngəzur mahalının Qarakilsə (01.03.1940–cı ildən Sisian) rayonunun Urud kəndi ərazisində yerləşən Azərbaycan - türk memarlıq abidələri kompleksi, Urud qalası, Urud qəbirsanlığındakı nadir məzar daşı nümunələri və daş stelaları (qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daşı) tariximizin nadir abidələri idi.

Hündür sıldırım qayanın üstündə yerləşən qala üç tərəfdən Bazarçay çayının dərin dərəsi, bir tərəfdən isə divarla



əhatələnmişdir. Yerli azərbaycanlı əhali arasında qaladan çaya gizli yolun olması haqqında fikirlər vardı. Qala-qayanın aşağısında təxminən yarım kilometr uzanan böyük bir yaşayış məntəqəsinin qalıqları görünürdü.

Urud qalasının adı mənbələrdə 450- ci il hadisələrindən bəhs edilərkən çəkilir. Qala 1104-cü ildə Səlcuqlular, 1386- cı ildə Əmir Teymur, 1407-ci ildə Qara Yusif tərəfindən fəth edilmişdir.

Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar.

1961–ci ildə Urud kəndində elmi ezmiyyətdə olan AMEA - nın müxbir üzvü, t.e.d., prof. M. Nemətova XV-XVII əsrlərə aid yüzə qədər belə abidəni tədqiq etmişdir.

Təbii ki, burda erməni izindən söhbət blə gedə bilməzdi.

**16.Sisakan, Sünik, Sisəcan...haqqında hansı yazılı məlumatlar var?**

Azərbaycanın tarixşünaslığının əsas mənbələrindən sayılan alban tarixçisi Musa Kalankatlı «Alban tarixi» əsərində Zəngəzur ərazisini «Sisakan» və «Sünik» adlandırmışdır. Zəngəzurun ən qədim adının Sünik olması bir çox mənbələrlə əsaslandırılır və bu adın mənasının qədim türk tayfası olan sakların həmin ərazidə yaşaması ilə bağlı olduğu göstərilir.

Suriya tarixçisi Zaxari Ritor 555-ci ildə yazırdı: «Arran (Albaniya) diyarının öz dili, dindar və xaç suyuna salınmış xalqı, fars şahının tabeliyində olan hökmdarı vardır. Sisqan (Syuni) həmçinin özünəməxsus dili və dindar xalqı olan diyardır, lakin orada bütpərəstlər də yaşayır».

Mənbələrdə Sünik knyazlığı bəzən müstəqil dövlət kimi, bir çox hallarda isə Arran dövlətinin tərkibində knyazlıq və yaxud yarım müstəqil knyazlıq kimi göstərilir. «Sisqan» adlanan Qafqaz keçidini qoruyan ordunun komandanı da Sisakan nəslinə mənsub




idi. «Sünik», «Sisakan» ərazisinin, yaxud Syuni, Sisqan xalqının özünəməxsus dili (alban dili), xaçpərəst və atəşpərəst əhalisi vardı. Sünik əhalisi, başda hökmdar Vasak olmaqla, V əsrin ortalarında xristianlığın yayılmasına müqavimət göstərirdi.

Sisakan toponimində həm də türk mənşəli arxaik söz daşlaşıb qalıb; «kan» – hündür dağ silsiləsi, dağlıq yer anlamında gen-bol işlənmişdir, yəni "Sisakan" Sisak nəslinin yaşadığı dağlıq yer" mənasındadır. Sisianda Şirikan toponimi vardı.

Müqayisə üçün: Balakən, Beyləqan, Abakan, Balkan, Alban dövlətinin vilayətləri Atropatakan, Vaspurakan, Varaşkan, Paytarakan, Mardpetakan və b. bu kimi toponimlər də bir qayda olaraq hansısa tayfanın, şəxsiyyətin yaşadığı yer mənasını verməkdədir.



«Alban tarixi»ndən yazırdı: «...Qor və Qazan adlı iki qardaş böyük ordu ilə gəlib Sünikdə məskən saldı».

Qor – əski türkcəmizdə həm də igid, cəsur adam deməkdi. Gorus bəzi mənbələrdə Qorus kimi də gedib. Zəngəzur ellərindən Qaf, Qazan köklü 40-dan çox toponim var. Sisianın adı ilkin yazılı mənbələrin əksəriyyətində «Sisakan»dır.

Moisey Xorenatsi yazırdı: «Qoxtan əhalisi Sisak nəslinin varisləridir». Qoxtan əhalisi Naxçıvan və Zəngəzurda məskunlaşmışdı.

Səfəvilər dövründə Sisəcan (Sisian) nahiyəsinin ərazisi təqribi hesablamalarımıza görə, 942 kv.km olmuşdur. 1587-1603-cü illəri əhatə edən I Osmanlı idarəçiliyi dövründə də Sisian nahiyəsi Naxçıvan sancağının inzibati ərazisinə daxil olmuşdur. 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan sancağına aid olan nahiyələr sırasında 14 nahiyənin adı çəkilir ki, bunlardan biri də Sisiandır. Ərazisi 1456 kvadratkilometr olan bu nahiyənin ərazisində 41 kənd, 1 yaylağın adı çəkilir.

Sisakan, Sisqan, Sisacan, Syuni və s. kimi yer adları Sisianın adıdır. Sis – qədim türk dilində "dağ üstü, meşəli kənd, yaşayış yeri" deməkdir. Sak isə məlum türk tayfalarının adıdır. Bu diyarın əzəli sakinləri hər şeydən əvvəl saklar və onların törəmələri, uti, uz, qarqar, ud və başqaları olmuşlar.

Zəngəzuru erməni torpağı elan edən erməni tarixçilərinin iddialarına rəğmən nə Arsax (sak ərlərinin yaşadığı yer), nə Qarabağ (geniş, çoxlu bağları olan torpaq) heç zaman ermənilərə mənsub olmayıb.

**17. «Kitabi-Dədə Qorqud»un hansı boyundakı hadisələr Zəngəzurda baş verib?**

Tariximizin, ədəbiyyatımızın, coğrafiyamızın möhtəşəm qaynaqlarından biri olan «Kitabi-Dədə Qorqud»un "Uşun qoca oğlu Səyrək boyu"ndan (Bakı, Yazıçı-2017, səh.208) məlum olur ki, qara donlu kafirlərin başçısı Qara Təkur Əlincə qalası ətrafında qoruq düzəldib bu yerləri oğuz igidləri üçün tələ etmişdi, qoruğun qapısını qırıb burada ov edən Uşun qoca oğlu Səkrəyin igidlərini altı yüz qara donlu kafir hücum edib qırmış, özünü də Əlincə qalasındakı zindanda əsir etmişdi. Qardaşını azad etmək üçün "*Əkrək dədə-baba, el yolu, yəni Gorus-Əngəlyurd-Dərəşam yolu ilə üç gün-üç gecəyə yortaraq Əlincə qalaya çatmışdır.»* (səh.263).




Ulaş-hulaş tayfa adı Qubadlının Ulaşlı kəndində qalırdı. Kitabi-Dədə Qorqudun baş qəhrəmanı Ulaş oğlu Salur Qazan idi.

Hər üç toponim eyni ilə Zəngəzurdadır. Zəngəzurun mərkəzi olmuş Gorus kəndi us, uş tayfasının qərargahı, yaşayış yeri, igid uslar yurdu olmuşdur.

Albanların bir qismi xalqımızın etnogenezində iştirak etmişdir. "Kitabi-Dədə Qorqud"un baş qəhrəmanı Qazan xanın həm də "albanlar başı" rütbəsini daşıması da bu fikrin məntiqi sübutudur. 3904 metr hündürlüyü olan Qapıcıq zirvəsinin adı "Kitabi-Dədə Qorqud"da keçir.

Təkcə Qubadlıda "Kitabi-Dədə Qorqud"dakı 24 şəxs, yer adı daşlaşıb qalıb. Hacı Nərimanoğlu "Oğuz yurdum Qubadlım". ("Azərbaycan" jurnalı, 1999-№7)



## 18. Babəkin Sünik-Zəngəzurda əsir alınmasını tarixi mənbələr necə təsvir edib?

Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzlərindən biri Zəngəzur olub.

Mənbələrin bildirdiyinə görə, Bəzz qalası ərəb qoşunlarının əlinə keçdikdən sonra Babək "Azərbaycandan Ərmənə gedən" dərədə (Sunikdə) gizlənirdi. Babəklə birlikdə onun iki qardaşı - Müaviyə və Abdullah, anası, İbnət əl-Kələndaniyyə adlı sonuncu arvadı və bir neçə xidmətçi onun yanında idi. İbnət əl-Kələndaniyyə Sünik knyazı Vasakın qızı idi və Babək Vasaka ərəblərə qarşı kömək edəndən sonra onun qızı ilə evlənmişdi, Babək 828-ci ildə ərəbləri darmadağın etdikdən sonra Vasakın qızı ilə evlənmişdi və öz hakimiyyətini bu vilayətə (Sünikə) də şamil etmişdi. Babəkin məhz bu arvadı onu dilə tutmuşdu ki, Bizansa qaçmaq üçün yolu onun vətənindən salsın. Babək və onunla gedənlər heç şübhələnmirdilər ki, onları təqib edib güdürlər; yolda dincəlmək üçün bir yerdə dayandıqları zaman Afşinin göndərdiyi dəstə gözətçilərin işarəsi ilə onlara hücum etdi. Babək, Abdullah və xidmətçilərdən biri qaçıb aradan çıxdılar. Müaviyə, Babəkin arvadı, anası və qalan xidmətçilər isə ələ keçdilər. Babək ilə qardaşı gizlicə çox yol getdilər, nəhayət, aclıq onları vadar etdi ki, açıq yola çıxsınlar. Bir əkinçini görəndə ərzaq əldə etmək üçün xidmətçini onun yanına göndərdilər. Bu yerdən bir az aralı sərhəd qarovulxanası var idi və həmin vilayətin (Şəkinin) hökmdarı knyaz Səhl ibn Sumbatın mühafizə dəstəsi burada keşik çəkirdi. Buraya gələn Səhl vaxtilə ümumi mənafeyi bir olan Babəki tanıdı. Babəkin Bizansa getdiyini öyrənən Səhl onu öz qalasına dəvət edərək dedi: "Bu sənin öz evindir və mən sənin nökərin. Bu qışı burada qal, sonra nə edəcəyini qət edərsən". Ac və yorğun olan



Babək Səhlin sözlərinə inandı və onun təklifi ilə razılaşıb dedi: *"Mənim və qardaşımın bir yerdə qalmağımız yaxşı deyildir, çünki birisi ikimizdən birinin izinə düşərsə, o birisi sağ qalar. Mən sənin yanında qalaram, qardaşım Abdullah ibn İstifanusun yanına gedər, çünki nələr ola biləcəyini bilmirik, bizim isə sülaləmizi davam etdirə biləcək xəlifimiz yoxdur*.” (Ət-Təbəri, III, səh. 1223-1224, səh l) Afşinə xəbər verdi ki, Babək onun yanındadır; bir neçə gündən sonra isə, Səhlin düzəltdiyi ovda Babək tutuldu; Səhl ona görə belə etmişdi ki, Babəkin tutulmasında ondan şübhələnməsinlər. Az sonra Afşinin tələbinə görə ibn İstifanus Babəkin qardaşı Abdullahı da təslim etdi. Səhl ibn Sumbat xəlifə sarayından böyük mükafat aldı, Ərməniyyə, İberiya və Albaniya üzərində ali hakimiyyət ona verildi, o da bütün bu yerlərə padşah kimi hökmranlıq etdi. Afşin Babəkin və onun qardaşının əsir alındığını Mötəsimə xəbər verdi, xəlifə onların paytaxta gətirilməsi üçün əmr verdi. Afşin İraqa qayıtmağa hazırlaşarkən Babəkə dedi: *"Mən səninlə İraqa yola düşmək niyyətindəyəm, buna görə Azərbaycan torpağında istədiyin şeyə axırıncı dəfə baxa bilərsən"*. Babək belə cavab verdi: *"Mən öz şəhərimə baxmaq istərdim"*. 837-ci il 15 setyabrda Babək dağıdılmış və yandırılmış Bəzzə baxdıqdan sonra Bərzəndə Afşinin yanına gətirildi. Babək və onun qardaşı 838-ci il 4 yanvarda Samarraya gətirildilər. Məsudinin dediyinə görə, xəlifə Babəkin əsir alındığını xəbər alan kimi "onu sevinc bürüdü və o öz sevincini açıq bildirdi. Babək üzərində qələbə haqqında ölkənin hər yerinə




xəbər göndərildi. Babək müxtəsər dindiriləndən sonra şaqqalandı, onun başı, əhalini qorxutmaq üçün Xorasana göndərildi, bədəni isə Samarrada asıldı.

Orta əsr mənbələrinin məlumatına görə, bu dövr ərzində xürrəmilər 225500 nəfər əsgər və çoxlu ərəb sərkərdəsini məhv etmişlər.

**19. Sünik çarlığının mövcudluğuna nə zaman son qoyuldu?**

1038-ci ildə Səlcuq-türk dövlətinin şanlı hökmdarı Alp Arslan 1065-ci ildə Zəngəzurun Qafan şəhərini tutaraq Sünik çarlığının mövcudluğuna son qoydu. 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu daha da genişləndirdi, bu yerlərdə çox sayda yeni türksoylular məskunlaşdı. Ermənilərin Xaçın knyazlığını, Sünik çarlığını və s. mənimsəməyə çalışmasının heç bir elmi-tarixi əsası yoxdur. Bu ərazilərdə yalnız kilsənin təsiri altında qriqorianlaşmış alban nəsillərindən bəhs oluna bilər.

**20. Zəngəzur bölgəsində Osmanlı-Səfəvi savaşları və Nadir şah dönəmində hansı hadisələr baş verdi?**

1578-1590-cı illər müharibəsi haqqında «İrəvan vilayətinin müfəssəl dəftəri»ndəki qeyddə göstərilir ki, Səfəvi-qızılbaş təbəəsi olan Sisian, Bazarçayı, Zar və Zabux nahiyələrindən 90 kəndin köçürülməsi barədə Osmanlı sultanı III Murad (1534-1595) 28 aprel 1578-ci ildə fərman vermişdir. Bu qaynaqdan məlum olur ki, bu köçürmədən Qarakilsə – Sisianın cəmi 4 kəndi kənarda qalmışdı ki, onlarda erməni və türk əhalisi qarışıq yaşayırdı.



Fərmanda qızılbaş müsəlman kişilərinin məhv edilməsi, qalan əhalinin köçürülməsi ilə bərabər, erməni əhalisinin can və mallarına zərər vurulmaması da məxsusi olaraq qeyd olunurdu.

XVI əsrin sonlarına aid Osmanlı qaynaqlarından biri – 1593-cü ilə aid «Gəncə-Qarabağ əyalətinin icmal dəftəri»ndən də məlum olur ki, 200-ə qədər kəndin bir neçəsinin adı istisna olmaqla, hamısı türk mənşəli idi və bunlarda müsəlman türk əhalisi yaşayırdı. Vergiləri yığmaq üçün tərtib olunan bu sənədlərdə 50-dən artıq kəndin qarşısında «heç kim yaşamır» qeydi var.

1724-cü ildə Osmanlılar Qarabağı tutaraq mərkəzi Gəncə olan Qarabağ bəylərbəyiliyi yaratmışdılar. Ancaq Nadir şahın taxta çıxması ilə osmanlılar Qarabağdan çəkildilər.

1736-cı ildə Qarabağ bəyləri Muğanda keçirilən tacqoymasına adam göndərmədilər ki, şah ancaq Səfəvi sülaləsindən olmalıdır. Bunun intiqamını almaq üçün Nadir şah Qazax, Borçalı, Şəmsəddin ellərini Qarabağdan alıb özünün adi məmuru olan Kartli çarı Teymurazazın idarəsinə verdi. Qarabağ, eləcə də Zəngəzurdakı cavanşir, otuziki, kəbirli ellərini Xorasana, Əfqanıstana sürgün etdirdi, beş alban məliyini isə birbaşa özünə tabe etdi. Qarabağlıların belə elliklə köçürülməsi Cavanşir mahalının Sarıcalı elindən çıxmış, şah sarayında qulluqda olan Pənahəli bəy və Fəzləli bəy qardaşlarının ciddi narazılığına səbəb olmuşdur. Nadir şah adi bir bəhanə ilə Fəzləli bəyi edam etdirdi, Pənahəli bəy isə bir qədər sonra bir dəstə sadiq silahdaşı ilə birlikdə qaçıb zəngəzurlu Qara Murtuza bəyin yaylağında məskən saldı. Pənahəli bəy tərəfindən müstəqil Qarabağ xanlığının yaradılmasının bünövrəsi də məhz buradan qoyulmağa başladı. Qa-

rabağ xanlığının sərhəddi cənub-şərqdə Bərgüşada qədər olan torpaqları – Tatev, Sisian, Qafan, Mehrini də əhatə edirdi. Hacısamlı, Kolanı, Çalbayır, Zəngəzur bütünlüklə Qarabağ xanlığına daxil olmuşdu. Qacar şahlarının ardıcıl hücumlarının ön cərgəsində də bu ellərin igidləri döyüşə gedirdilər.

**21. Zəngəzurun faciələr tarixi nə zamandan başlanıb?**



Türkmənçay müqaviləsinin imzalanması. 10 fevral 1828-ci il



Abbas Mirzə ilə İvan Paskeviçin görüşü. Dehqarqan.

1828-ci il Türkmənçay müqaviləsi ilə tarixi Azərbaycan torpaqlarının ərazisi Qacarlar İranı və çar Rusiyası arasında bölüşdürüldükdən sonra onun şimal əraziləri, o cümlədən Qarabağ, Zəngəzur bölgəsi Rusiya imperiyasının tərkibinə daxil edildi. 1828-1917-ci illər ərzində çar Rusiyasının işğal etdiyi Şimali Azərbaycan ərazilərinə ermənilərin kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirildi.

Cənubi Qafqaz regionunda daimi möhkəmlənmək məqsədi güdən çar Rusiyasının 1827-ci ildə işğal etdiyi İrəvan və Naxçıvan xanlığının ərazilərində çar I Nikolayın əmri ilə "Erməni vilayəti" adlı yeni inzibatı ərazi vahidi yaradıldı. Belə bir inzibati vahidin yaradılmasında əsas məqsəd işğal olunmuş Şimali Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ xanlıqları ərazilərinə Qacarlar İranı və Osmanlı İmperiyasından köçürülən ermənilərin və digər qeyri-müsəlman əhalinin hesabına bölgənin etnik mənzərəsinin dəyişdirilməsi, Rusiyaya etibarlı xristian bufer zonanın yaradılması, Qafqazda daimi qalmaq planının tərkib hissəsi idi.

Ermənilərin köçürüldüyü ərazilər içərisində Qarabağ xanlığının cənub-qərb hissəsini təşkil edən Zəngəzur mahalı da var idi.



Российская военная карта 1809-1817 годов. А где "армения"?

## 22. Əbülfət xanın Zəngəzurda ruslara qarşı ardıcıl savaşları niyə nəticəsiz oldu?

İbrahimxəlil xanın ölümündən sonra 1806-ci ildə hakimiyyətə gəlmiş Mehdiqulu xan atasının nahaq qanını ruslara çox asanlıqla bağışlasa da, general-mayor rütbəsi alıb rusların hökmranlığını qəbul etsə də, Qarabağ bəylərinin, əhalinin çoxu bu işğala boyun əymədi. Onların başında duranlardan biri brahimxəlil xan Cavanşirin oğlu Əbülfət xan idi (Əbülfət xan Tuti adı ilə tanınmış şair).

Fətəli şah onu qoşun başçısı təyin edib Qarabağı rus işğalından azad etməyə yola salır. Beş min nəfərlik qoşunla Zəngəzurun əsas torpaqlarını - Qapan, Güney, Çulundur və Bərgüşad mahallarını tutur. Atasının mahallara təyin etdiyi naibləri, kənxudaları, kovxaları, darğaları və yüzbaşıları çıxarıb, iş başına öz adamlarını

qoyur. Bərgüşad çayının yaxasında düşərgə qurub əyləşir. Dizaq, Xırdapara-Dizaq və Cavanşir-Dizaq mahallarının naiblərinə, el-oba başçılarına məktub yazıb yanına çağırır. Çox keçmir ki, el böyükləri başlarının dəstələriylə Əbülfət xanın yanına gəlirlər. Əbülfət xan qardaşı Məhəmmədhəsən ağanı əsir almaq üçün Tuğ kəndinə yürüş edir. Kəşfiyyatı bilgi gətirmişdi ki, Məhəmmədhəsən ağa az bir qoşunla Tuğda təkdir. Qəfil hücum olsa yardımına qardaşları yetməyəcəklər. Qış günü, duman-çənlə bir təhər Tuğa yetişən Əbülfət xan aldandığını duyur. Mehdiqulu ağa və Xanlar ağa böyük qoşunla səngər tutub onu gözləyirdi. Qayıtmağı qüruruna sığışdırmayan Əbülfət xan savaş əmrini verir. Elə birinci döyüşdə yenilir. İkinci həmlədə xeyli adam itirir. Qacar ordusunun adlı-sanlı başbuğları əsir düşür. Beş min qoşundan qalan beş yüz nəfərlə Arazı adlayıb Qaradağa çəkilir. 1805-ci ildə Əbülfət xan yenidən Qarabağa gəlir. Bu dəfə o, Abbas Mirzənin başçılığı altında gəlmişdi. Çox keçmir ki, Fətəli şah da böyük bir ordunun başında Qarabağa yürüş edir. Lakin rus ordusunun güclü təzyiqi nəticəsində geri çəkilirlər. 1806-cı ildə Əbülfət xan Abbas Mirzə ilə yenə Qarabağa yürüş edir. Əbülfət xan Qarabağ ellərini köçürüb Qafan mahalına gətirir. 1811-ci ildə Əbülfət xan yenə Qarabağa gəlir. Bu dəfə bir neçə obanı aparmağa müvəffəq olur. 1813-cü ildə İranla Rusiya arasında Gülüstan sülh müqaviləsi imzalanır. Müqavilə nəticəsində Qarabağın Çulundur mahalının bir hissəsi, Güney və Mehri mahalları İran tərəfdə qalır. Əbülfət xan bu ərazinin hakimi təyin edilir. 1826-cı ildə Abbas Mirzə Əbülfət xanı da götürüb Qarabağa gəlir. Bu yürüş də uğursuzluqla sonuclanır. 1828-ci ildə İranla Rusiya arasında "Türkmənçay" müqaviləsi bağlanır. Bu dəfə sərhəd Araz çayı olur, Əbülfət xanın torpaqları əldən çıxır. 1833-cü ildə Abbas Mirzənin vəfatından sonra Əbülfət xan ordudan tərxis olunub, istefaya çıxıb, 1839-cu ildə vəfat edib.Əbülfət xanın Sarıcalı-Cavanşirin qızı Bədirxan bəyimlə evliliyindən Məhəmmədəli, Abbasqulu, Məhəmmədqulu, Məhəmmədtağı, Əbdülhüseyn, Məhəmmədibrahim adlı oğulları, Gövhərnisə bəyim adlı qızı vardı. Əbülfət xan şair idi. Tuti

təxəllüsü ilə şeirlər yazırdı. Yazdıqlarının çoxu türk, bir qismi isə fars dilindədir. Bir çox təzkirə, külliyatlarda Əbülfət xan Tutidən istedadlı şair kimi danışılır və şeirlərindən nümunələr verilib.




**23. Ermənilərin Qarabağa köçürülməsini rus məmurları necə qələmə alıb?**

Romanovlar imperiyasının müstəmləkəçilik, xristianlaşdırma siyasətinə uyğun olaraq həyata keçirdiyi köçürmələrdən sonra Qarabağın dağlıq hissəsinin etnik tərkibi də ilbəil dəyişilməyə başlamışdı. N.Şavrov yazırdı ki, 1804-1813 və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin gedişində və ondan sonra ermənilərin Cənubi Qafqaza, o cümlədən Qarabağa kütləvi surətdə köçürülməsi başlanır. 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox İran, 84 min Osmanlı ermənisi köçürüldü. Onlar erməni əhalisinin az olduğu Yelizavetpol və İrəvan quberniyalarındakı ən yaxşı dövlət torpaqlarında yerləşdirildi. Bu məqsədlə 200 min desyatin dövlət torpağı ayrıldı, müsəlmanlardan 2 milyon manatlıqdan çox torpaq satın alındı. Bu ermənilər Yelizavetpol



quberniyasının dağlıq hissəsində və Göyçə gölünün sahillərində yerləşdirildi. Köçənlərin sayının rəsmi məlumata görə 124 min nəfər olmasına baxmayaraq, əslində onların sayı 200 mini keçmişdi. Lakin bu yeganə və son kütləvi köçürmələr deyildi. Ermənilərin Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi sonrakı illərdə də davam etdirildi və böyük vüsət almışdı.1896-cı ildə general-adyutant Şeremetyev Cənubi Qafqazda yaşayan ermənilərin sayının 900 minə yaxın olduğunu, 1908-ci ildə isə 1 milyon 300 minə çatdığını qeyd edir. N.Şavrov göstərirdi ki, bu müddətdə ermənilərin sayı 400 min nəfər artmışdı. S.N.Qlinkanın məlumatları da tarixi həqiqəti düzgün əks etdirən mənbələrdir Ermənilər xəzinə kəndlərində məskunlaşır, ya da yeni kəndlər yaratmışdılar. Qaradağ əyalətindən gələnlər əsas etibarilə Qafan sahəsinin boş yerlərində və boşalmış kəndlərində qərar tutmuşdular. N.İ.Şavrov rəsmi məlumatlara əsasən bildirir ki, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 1825-1826-cı illər arasında on səkkiz min, 1828-dən sonra əlli min, Osmanlı imperiyasından isə səksən dörd min erməni köçürüldü. 1832-ci il siyahıyaalmasına görə, Qarabağ əyalətində otuz iki min dörd yüz (64,8 faiz) azərbaycanlı və on yeddi min dörd yüz (34,8 faiz) erməni qeydə alınmışdır. Beləliklə erməni əhalisi 1823-cü ildəki



8.4 faizə nisbətən qısa vaxtda dörd dəfədən çox artmışdı. Sonrakı siyahıyaalmaya görə Şuşa qəzasında 80-ci illərin sonlarında azərbaycanlıların sayı 41,5 faizə enmiş, ermənilərin sayı 58,2 faizə qalxmışdı. 1897-ci il Ümumrusiya siyahıyaalmasına görə isə həmin göstəricilər uyğun surətdə 53 və 45 faiz olmuşdur.

**24. Zəngəzurun XIX əsrin 70-ci illərindəki inzibati-ərazi bölgüsü necə idi?**

Zəngəzur qəzası 1861-ci ildə yaradıldı, 1867-ci ilin dekabrında yeni yaradılan Yelizavetpol quberniyasının tərkibinə Zəngəzur da qatıldı. Bu qəza quberniyanın ən böyük ərazi-inzibati vahidi olub dörd dairəyə bölünmüşdü: Hacısamlı, Əlyanlı, Bərgüşad və Həkəri dairələri. Bu qəzanın mərkəzi Gorus idi. Gorusda 2201 nəfər-1193 kişi, 1008 qadın cinsli əhali yaşayırdı. Püsyan mahalı da Zəngəzura qatıldı. 1823-cü ilə aid rus mənbəyində yazılırdı ki, Püsyan mahalı Qafan çayının sahilində yerləşir və Məhəmmədhüseyn sultan tərəfindən idarə olunur. Bu qaynaqda Püsyanın 35 obasının adı, hər obada yaşayan vergi ödəyicilərinin sayı göstərilir. Sənədlərdə vergi ödəyənlər içərisində «ödəməyən kasıblar» qeydi ilə yanaşı, vergidən azad olunmuş kəntxuda, molla və b. imtiyazlı silk nümayəndələrinin sayı da ayrılıqda göstərilib, «qeyri-müsəlman tüstü»lərin sayı da verilib. Püsyan mahalı 1840-cı ildə ləğv edilərək Zəngəzur sahəsinə qatılmışdır. Qaraçorlu mahalı da Zəngəzur qəzasına qatılmışdı.

**Ç**arizm yerli müsəlman kadrlara bir o qədər də etibar etmədiyindən, xristianlardan rəhbərlər təyin edilirdi. Zəngəzur qəzasının ilk başçısı N.Pivaroviç olmuşdur. Qəza rəisinin baş köməkçisi Hüseyn bəy Behbudbəyoğlu Mahmudbəyov, tərcüməçi Şamxal bəy Məlikhüseynov, Hüseyn bəy Məlikabasov, Paşa bəy Səyadbəyov, polis sistemində Həbib xan Şəkinski, Bəylər bəy Həsənbəyov çalışmışlar.Onların hamısı təhsilli, savadlı idilər.



**25. Zəngəzurun alban, müsəlman və erməni-qriqoryan dini ibadətgahları haqqında nə bilirik?**





Qafqaz Albaniyası zamanından Alban Həvvari Kilsəsi, Alban Kilsəsi və ya sadəcə Alban Katolikosluğu İmperator I Nikolayın 11 mart 1836 - cı il Fərmanına əsaslanan Rusiya Senatının 10 aprel 1836-cı il tarixli Əsasnaməsinə görə erməni-qriqoryan kilsəsinin idarəçiliyinə daxil edilmiş, fəaliyyətini tam dayandırmışdır. Hazırda alban-türk əsilli bir çox ermənilərin təsisçiliyi, təşkilatçılığı ilə "Alban Avtokefal Kilsəsinin və xristian türklərin irsinin bərpası uğrunda hərəkat" başlanıb. XIX əsrin 80-ci illərinin qəzada 46 kilsə və daha 25 erməni-qriqorian ibadətgahı olduğu halda, cəmisi 26 məscid fəaliyyət göstərirdi. Qəza əhalisinin yarısından çoxunu müsəlmanlar təşkil etdiyi halda, xristian ibadətgahlarının sayı məscidlərin sayından az qala 2,5 dəfə çox idi.Qəza müsəlmanlarının çox böyük hissəsi şiə təriqətinə mənsub idi; sünnilər az idi. XIX əsrin axırlarının rusdilli müəllifləri belə yerli Zəngəzur ermənilərinin, əslində Qarabağın keçmiş alban əhalisinin qalıqlarının danışdıqları «erməni dilinin» qəribəliklərini təəccüblə qeyd edirdilər: XIX əsrin 80-ci illərinin ortalarında Cənubi Qafqazın xəzinə kəndlilərinin iqtisadi məişətini öyrənən müəlliflərdən biri yazırdı: *«Zəngəzur qəzasının erməni ləhcələrindən Mehri kəndi sakinlərinin dili diqqəti özünə cəlb edir. Digər yerlərin erməniləri onları, çətin ki başa düşsünlər. Sırf Qarabağ ləhcəsində danışan Harara və Qaladərəsi kəndlərinin sakinlərinin də dilini başa düşmək çətindir».*

**26. Qəzada neçə xəzinə kəndi var idi?**

1874-cü ilin xəzinə siyahıya alınmalarına görə, Zəngəzur qəzasında 168 xəzinə kəndi var idi. Onlardan 120-i müsəlman, 42-si erməni, 1-i rus və 5-i müsəlman və xristianların birgə yaşadığı kənd idi. Zəngəzur qəzasının sahələrində yaşayış məskənlərinin sayı belə bölünürdü: Mehri sahəsində 25 kənd 4 binə, Qafan



sahəsində 38 kənd 17 binə, Zəngəzur sahəsində 62 kənd 44 binə, Sisian sahəsində 23 kənd və 1 binə yerləşirdi.

Bütövlükdə, qəzanın xəzinə torpaqlarındakı bütün yaşayış məskənlərinin (148 kənd, 66 binə və 79 qışlaq) ümumi sayı 293-ə çatırdı ki, onların da 13,31%-i Mehri, 33,90%-i Qafan, 42,44%-i Zəngəzur və 10,35%-i Sisian sahələrində cəmləşmişdi.

## 27. Qəzada torpaq sahələri necə bölünmüşdü?

Qəzanın xəzinə kəndlərinin istifadəsində 154032,67 desyatin torpaq sahəsi var idi. Torpaqların istifadə istiqamətinə görə bölgü qeyri-bərabər idi: bu torpağın - 1135,27 desyatini həyətyanı sahələrin, – 1057,02 desyatini bağların, – 2448,17 desyatini suvarılan – 65998,92 desyatini isə dəmyə əkinlərin payına düşürdü. Xəzinə kəndlilərinin istifadəsində 2917,12 des. biçənəklər və 71730,46 des. otlaq və yararsız sahələr var idi.

XIX əsrin sonlarında digər Azərbaycan qəzaları kimi, Zəngəzur qəzasının da xəzinə kəndlərinin xəzinə meşələrindən pulsuz istifadə normaları müəyyənləşdirilmişdir. Məsələn, 1882-1885-ci illərdə Qubadlı kəndinin sakinləri hər il Kəpəz meşə sahələrindən 740 çəpər dirəyi, 74 tər, 74 atma və 74 kub sajen odun qıra bilərdi.

Qəzanın yaşayış məskənləri bu dövrdə, əsasən, kənd, binə və qışlaqlardan ibarət idi. Kəndlilər istifadə etdikləri torpağın mülkiyyət mənsubiyyətinə görə xəzinə və xüsusi sahibkar – bəy kəndlilərinə, qarışıq kəndlərə bölünürdülər. Qarışıq kəndlərdə 594 xəzinə və 816 bəy kəndlisi ailəsi yaşayırdı. Bunlarda müvafiq olaraq 2867 və 5135 nəfər kəndli var idi.

Müsəlman kəndlərində 261 bəy ailəsi (1524 nəfər) yaşayırdı.




Erməni kəndlərində isə cəmi 70 mülkədar ailəsi qeydə alınmışdı. Bu da sübut edir ki, ermənilər bu torpaqlara son vaxtlarda gəldiklərinə görə, çar məmurlarının hərtərəfli yardımlarına baxmayaraq, hələ də az, kiçik torpaq sahələrinə sahib idilər və öz

mülklərini yerli müsəlman bəylərin torpaqları hesabına genişləndirmək üçün hər cür bəd əməllərə əl atırdılar. Bundan əlavə, alban mənşəli məliklərin də özlərinin torpaq sahələri, mülkləri var idi. Molla və keşişlər də ayrıca torpaq sahələrinə malik idilər.

### 28. Zəngəzur bölgəsində hansı təbii sərvətlər var idi?

Zəngəzur torpaqları zəngin təbii sərvətlərə malik idi. Sayaddaş dağının qərb və şərq ətəklərində, Havart, Qacaran və Qafan,




Atqız, Pirdavudan və Nüvədi kəndləri yaxınlığında mis filizi çıxarılırdı, istehsal, emal müəssisələri var idi. Cənnətdərəsi, Şahverdiuşağı, Barabatına, I Xalac, Şəhərcik və Bartaz bölgələrində də mis yataqlarının olduğu qeydə alınmışdır. Zəngin Sayaddan yataqlarından əsasən mis kolçedanı, sink və qalay qatışıqları, mis filizi ilə yanaşı, əhəng, gips gil, kvars, tabaşir, qaragil və s. çıxarılırdı.

Zəngəzur bölgəsində yüzlərlə bulaq, kiçik göl, çay, zəngin mineral su ehtiyatları var idi. Kürdalı yatağı, Daşkənd kəndi, habelə Gorusçay və Bərgüşadın hövzələrində yerləşən bulaqlar, Tatev monastırı yaxınlığındakı Şeytan körpüsü yanındakı İstisu bulağı, Piçənis, Daşkənd və Şıxların turşsu bulaqları, Şahverdiuşağının kükürdlü bulaqları, Laçının Turşsuyu ətrafda məşhur idi. Bərgüşad, Həkəri, Çavundurçay, Oxçu, Basıqçay və Mehri qəzanın ən böyük su qaynaqları idi.

## 29. Zəngəzur əhalisinin əsas məşğuliyyəti nə idi?



Əlverişli coğrafi-iqlim şəraiti əkinçiliyi Zəngəzur əhalisinin başlıca qazanc mənbəyi etmişdi. Əkinçilikdə başlıca yeri buğda və arpa tutsa da, mərcimək, kətan, darı və vələmir də əkilirdi. Qəzada taxıl əkinlərinin ümumi sahəsi 21153 des.-ə bərabər olmuşdur ki, bu da quberniya üzrə olan taxıl əkinlərinin (327670 des.) cəmi 6,5 %-ni təşkil edirdi.

Maldarlıq qəza kənd əhalisinin ikinci başlıca məşğuliyyətini təşkil edirdi. O qədər də sərt olmayan qış, habelə yaylaqların bolluğu bu sahənin geniş inkişafı üçün əlverişli şərait yaradırdı. Yelizavetpol quberniyası üzrə saxlanılan, 3 milyon baş mal-qaranın yarım milyondan çoxu – 559649 baş, Zəngəzur qəzasının payına düşürdü. Bu qəzanın kəndli təsərrüfatlarında 22157 baş at, 88146 baş iribuynuzlu, 415 980 baş qoyun, 21980 baş keçi, 8711 baş ulaq-qatır, 1675 baş donuz saxlanılırdı. Bağçılıq da müəyyən rol oynayırdı. Meyvə bağları ilə yanaşı, tut bağları (araqçəkmə və baramaçılıq üçün) geniş yayılmışdı. Bostançılıq çayların sahillərində yaşayan əhali arasında xüsusən geniş yayılmışdı. Çox yüksək keyfiyyətli balı ilə məşhur olan yerli arıçılıq zəif inkişaf edərək köməkçi təsərrüfat rolunu oynayırdı.



Zəngəzur qəzası Azərbaycanın məşhur sənətkarlıq bölgələrindən biri idi. Burada xüsusən də ev sənətkarlığı geniş intişar tapmışdı. Kustar sənaye sahələrindən ən çox inkişaf edəni xalçaçılıq idi. Tarla işləri başa çatdıqdan sonra, xüsusən də qışda, qadınların, demək olar ki, hamısı bu işlə məşğul olurdu. Yerli qoyunçuluq sahəsi yuna olan tələbatı tam ödəmədiyindən buraya Cavanşir qəzalarından da yun gətirilirdi. Bu bölgənin «yaməni», «zili» və b. xalça-palaz məhsulları bütün diyarda məşhur idi. Yerli ustalar mahuddan çuxa, palto, heybə, xurcun tikir, keçəçiliklə, xalçaçılıqla da məşğul olurdular. Xanlıq xalçaları daha məşhur idi.



## 30. Qəzada sənaye, yollar nə vəziyyətdə idi?

Bölgənin zəngin təbii sərvətləri, çoxçeşidli xammal qaynaqlarının mövcudluğu bu bölgədə sənətkarlıq, ticarət kimi, sənayenin də geniş intişar tapmasına şərait yaradırdı. Zəngəzur qəzası kifayət qədər güclü sənayeyə malik idi. 1908-ci ilin məlumatlarına görə, qəzada 40 sənaye müəssisəsi fəaliyyət göstərirdi ki, onların da ümumi illik istehsalının həcmi 74160 rubla bərabər olmuşdur. Bu 40 müəssisədə 1339 fəhlə çalışırdı. Sənaye müəssisələrində 23-ü şərab-araq, 10-u yağ, 2-si dulus və 4-ü misəritmə idi. Ən çox fəhlə də sonuncuda işləyirdi - 1200 nəfər. Quberniya misəritmə sənayesi sahəsində çalışan fəhlələrin (cəmi 2950 nəfər) təxminən 40,7 %-i Zəngəzur qəzasının payına düşürdü. Zəngəzur bölgəsinin bütün sənaye sahələri imperiyanın müstəmləkəçi maraqlarının xidmətinə tabe edilmişdi.

Zəngəzur qəzasında yollar bərbad gündə idi. 1861-ci ildə Şuşa və Ordubad şəhərlərini birləşdirmək üçün Arazın sahili ilə uzanaraq Bərgüşadçayın dərəsi və Gorusdan keçməklə Şuşaya çatmalı olan yolun çəkilməsi layihə olaraq kağız üzərindəcə qaldı. 1885-ciilədək Naxçıvan-Biçənək-Zəngəzur qəzasının sərhəddinədək 48 verstlik şosse yolu, 88,25 verstlik Şuşa-Gorus araba yolu çəkilmişdir. Gorusu Naxçıvan qəzasının sərhədi ilə birləşdirəcək 62 verstlik yol isə çəkilməmiş qalmışdı. Bunlardan başqa, Zəngəzur qəzası ərazisində Araz boyunca uzanan və daha çox patrul yolu adlanan, habelə Şuşa-Cəbrayıl qəzası – Məzməzək-Xınzirək-Gorus xətti ilə uzanan yolda ancaq tək yük heyvanı gedə bilərdi.



## 31. Zəngəzurun əhalisinin milli-etnik tərkibi necə idi?

1727-ci ilə aid sənədlərdə də 400 evlik bölgə əhalisinin tam əksəriyyəti müsəlman türklərdən, bir qismi daim vergilərdən yayınan, üstlərinə əsgər göndəriləndə isə dağlardakı sığnaqlara çəkilən, müqavimət göstərən kürdlərdən ibarət idi. Zəngəzurun 18 kəndində ermənilər yaşayırdı.



1874-cü ildə aparılmış kameral təsvirin və quberniya xəzinə palatasının məlumatına görə, 168 dövlət kəndi vard idi; 120-də müsəlman, 42-də erməni, 1-də rus, 5-də erməni-müsəlmanlar qarışıq yaşayırdı.

1874-1884-cü illərdə qəzanın əhalisi 48004 nəfərdən 70015 nəfərə qalxmış, yəni 22011 nəfər və ya az qala 50% artmışdır. Müsəlmanların sayı 25961 nəfərdən 38722 nəfərə çatmış, yəni təxminən 52%, gəlmə erməni əhalisi 9176 nəfər (təxminən 43%) artmışdı. Qəzanın Bazarçay kəndinə 1877-ci ildə Rusiyadan köçürülmüş 100-dək malakan-duxaborlar ailəsi də məskunlaşmışdı. Sisian mahalının, Qarabağın alban əhalisinin qalıqları və Mehridə az qisim tatlar da yaşayırdı.

1893-cü ildə böyüklü-kiçikli 400-ə yaxın kənd və binə olmuşdur. 72 erməni kəndinin 27-si Mehri və Qafanda, 20-si Sisianda, 25-i Görusda olmuşdur.

1897-ci il siyahıya alınmasına görə, Zəngəzurda 142 min nəfər; 71 206 (52,9 % azərbaycanlı), 63622-si (44, 8 % erməni) və qeyri millətlər idi. Artım ermənilərin müasir İran və Türkiyədən daim davam edən köçləri hesabına idi.

Qəzanın əsas köklü türk tayfaları sofulular 19, dərzililər 11, sarallılar 13, puşanlılar 7, gığılılar 4, xocamsaxlılar 3, baharlılar 3, bərgüşadlılar 14 kənddə yaşayırdı. Haçısamlı, şahsuvarlı, bayandurlu, ardaşavalı, əliyanlı və qaraçorluların da hərəsi bir neçə kənddə məskunlaşmışdı.

### 32. Zəngəzurda dini, dünyəvi təhsil necə qurulmuşdu?

Zəngəzur qəzasının, demək olar ki, bütün böyük kəndlərində mollaxanalar var idi. 1880-ci illərdə Zəngəzurda 491 mədrəsə, 21 ibtidai, 6 ruhani məktəbi fəaliyyət göstərirdi. Ayrı-ayrı imkanlı şəxslər bu məktəblərə maddi, mənəvi yardım göstərirdi.

9 illik təhsil verən Urud mədrəsəsi haqqında bu torpağın yetirməsi olan Xalq yazıçısı Əli Vəliyev yazırdı: *"Nəcəfdə (İraq) ali təhsil alıb mollalıq etmək hüququ qazanmış Fətullah, Gorusda 2 dərəcəli rus məktəbi qurtarmış Sadıq, məşhur şair Ləlini bağlamış şair Mirzə Hüseyn Urudda yaşayırdılar. Urudda oxumuşlar, savadlılar, söz qoşanlar, təbi gələnlər o biri kəndlərdən qat-qat çox idi. Urud kəndində 1918-ci ilə qədər molla Bağırlılar ailəsi, Molla Səmih bəy, Molla Fətullah mədrəsədə dərs demişlər. Burada dini dərslərlə yanaşı, dünyəvi fənlər də tədris edilirdi. Burda dərs deyən Mirzə Sadıq Axundzadə Təbrizdəki ali dini mədrəsənin məzunu idi."* Urud mədrəsəsində oxuyanların xərclərini xeyriyyəçilər ödəyirdilər.

Sisianın Şəki kəndində Qazı Məmməd əfəndnin, Qafanın Kurud kəndində axund Əbdürrəhman Hacı oğlunun (o, Tehranda dini təhsil almışdı) 9-10 il təhsil verən mədrəsələri xüsusilə məşhur idi. Bu mədrəsələri uğurla bitirənlər mollalıq etmək hüququ da alırdı.Qafanın Baharlı kəndində molla İsmayıl İmaməli oğlunun, Gığı kəndində molla Fərzalı Piriyev, Şəhərcik kəndində molla Tağı, Sisianın Şıxlar kəndində molla Ələsgər, molla Səməd, Dəstəyurd kəndində molla Nuşirəvan, Vağədi kəndində molla İbrahim Xəlil ibtidai təhsil verən mollaxanalar açmış, cəmi 1 manat təhsil haqqı ilə uşaqlara yazıb oxumaq öyrətmişdi. Bu dini məktəblər təkcə dini, şəriəti, tədris etmirdi, ədəbiyyat, tarix, digər fənnlər də öyrədilirdi. Zəngəzurun Osmanlı və Qacarlar dövlətləri ilə sərhəd yaxınlığı səbəbindən Tehran, İstanbul, Məşhəd, Təbriz, Nəcəf, Kərbəlada ruhani təhsili alıb islamı, şəriəti, ərəb-fars dillərini kamil öyrənib qəzaya qayıdan xeyli din xadimi var idi. Xatırlatmaq kifayətdir ki, nəinki Azərbaycanın, həm də türk-islam

aləminin bir çox ünlü simaları, ictimai fikrin xeyli sayılıb-seçilən şəxsiyyətləri məhz bu dini məktəblərdə təhsil almışdılar. Bir çox məşhurlar məhz Zəngəzurdakı bu dini məktəblərdə ilk təhsillərini almışdılar; təkkə-təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi, nəqşibəndi şeyxi Mirhəmzə Seyid Nigari Qarabaği, şair, tarixçi, «Kitabi-tarixi-Qarabağ»ın müəllifi Mirmehdi Mirhəşim bəy oğlu Musəvi - Mirmehdi Xəzani, ilahiyyatçı, tərcüməçi, folklorşünas, ədəbiyyatşünas alim, daşnak-bolşevik qaragühuna qarşı mübarizənin ideya rəhbəri, Zəngəzur qazısı Bəhlul Əfəndi Behcət, 1895-ci ilin dekabrında Zəngəzur qəzasının Sisian bölgəsində Urud kəndində nüfuzlu bir nəslə mənsub ailədə doğulmuş,





Azərbaycan Parlamentinin üzvü, maarifçi, yazıçı, jurnalist, naşir, mühacir siyasi-ədəbi irsimizin görkəmli nümayəndəsi Mirzə Məmmədsadıq Axundzadə**,** üləma Hacı Fətəli Əfəndi, seyid Fərzalı baba, Mir Sədi Ağa və başqaları daha çox tanınırdı.

9 illik təhsil verən Urud mədrəsəsi haqqında bu torpağın yetirməsi olan Xalq yazıçısı Əli Vəliyev yazırdı: *"Nəcəfdə (İraq) ali təhsil alıb mollalıq etmək hüququ qazanmış Fətullah, Gorusda 2 dərəcəli rus məktəbi qurtarmış Sadıq, məşhur şair Ləlini bağlamış şair Mirzə Hüseyn Urudda yaşayırdılar. Urudda oxumuşlar, savadlılar, söz qoşanlar, təbi gələnlər o biri kəndlərdən qat-qat çox idi. Urud kəndində 1918-ci ilə qədər molla Bağırlılar ailəsi, Molla Səmih bəy, Molla Fətullah mədrəsədə dərs demişlər. Burada dini dərslərlə yanaşı, dünyəvi fənlər də tədris edilirdi."*



Zəngəzurda Şamxal əfəndi adı ilə məşhur olan üləma Şamxal Rəhim oğlu Kərimov Səmərqənd, Daşkənddə ali ruhani təhsili almışdı.Sovet vaxtında Sisian, Qafan, Qubadlı, Cəbrayıl, Füzulidən dindar cavanlar gizli şəkildə gəlib ondan Quran dərsi öyrənirdilər. O, 1972-ci ildə Qubadlının Yuxarı Xocamsaxlı kəndində 80 yaşında vəfat etmişdi. Ömrünün son illərinə qədər Bakıdan tanınmış şərqşünaslar onun yanına gələr, əlyazmalardakı ərəb, fars dillərində çətin mətnlərin tərcümə, şərhlərində məsləhətlərini alar, evindəki qədim kitablarını aparardılar. Onun savadı, ərəb, fars dillərini, ilahiyyatla bərabər klassik ədəbiyyatı dərindən bilməsini tədqiqatçı Musa Urud, Əli Tudə, Xalq şairi Bəxtiyar Vahabzadə və başqaları yüksək dəyərləndirmişdi.Çar Rusiyasının ucqarlarda apardığı təhsil siyasətinə uyğun olaraq, XIX əsrin 80-ci illərində Zəngəzur qəzasında 4 dünyəvi məktəb açılmışdı. Onlar Gorus, Qubadlı, Arsevanik və I Qarakilsə kəndlərində yerləşirdi. 1885-ci ilin dekabrında bu 4 məktəbdə cəmisi 209 şagird təhsil alırdı, onlardan 3 nəfəri qız idi. Azərbaycanlılar cəmi 40 nəfər - 20% təşkil edirdi. Şagirdlərdən 128-i kəndli, 42-i bəy, 26-ı ruhani, 3-ü qəzada müvəqqəti işləməyə göndərilənlərin övladları idi. 1890-cı ildə Minkənddə məktəb açılmışdı. 1884-1887-ci illərdə bu məktəblərdə orta hesabla hər il 50-65 şagird, 1890-1893-cü illərdə isə 100-110 şagird (8-10 nəfəri qız idi) təhsil alırdı. 1884-1893-cü illərdə bu məktəblərdə 800 şagird (35 qız) təhsil almış, cəmisi 81 nəfər (bunlardan ancaq 4 nəfəri azərbaycanlı idi) bitirmiş, 203 nəfəri isə müxtəlif səbəblər üzündən təhsilini başa vurmamışdı. Tədris ili sentyabrın 1-də başlayır və növbəti təqvim ilinin iyun ayının 5-də başa çatırdı. Tədris proqramına ilahiyyat, rus və yerli dillər, hesab, hüsnxət və rəsmxət daxil idi. Şagirdlər, həmçinin xor, gimnastika və bostançılıqla da məşğul olurdular. İlahiyyat və yerli dillərdən başqa bütün fənlər rus dilində tədris olunurdu. 1901-ci ildə

Yelizavetpol (Gəncə) quberniyasındakı 28 ibtidai təhsil verən rus-tatar məktəbinin 12-i Zəngəzurda fəaliyyət göstərirdi. Təkcə qəza mərkəzi Gorus məktəbində əsrin əvvəllərində 200 azərbaycanlı oxuyurdu. XX əsrin 20-ci illərində qəzada 40 dünyəvi məktəb var idi.Sonralar uzun illər Azərbaycan hökumətinin rəhbərliyində təmsil olunanlar, mühüm postlarda çalışanlar arasında zəngəzurluların sayının çoxluğu, eləcə də bu torpaqlardan xeyli sayda tanınmış dövlət, hərbi, siyasi, ictimai, elm, mədəniyyət xadimləri yetişm yetişməsi məhz bu yeni tipli məktəblərin sayəsində mümkün olmuşdu. Qori seminariyasında, Rusiyanın müxtəlif şəhərlərində xeyli zəngəzurlu gənc ali təhsil almışdı. Cümhuriyyətin Almaniyaya göndərdiyi tələbələrin 4-ü zəngəzurlu idi. Azərbaycan Xalq Cumhuriyyətinin və Dağlılar Respublikasının maarif naziri, Azərbaycanın istiqlal hərəkatı və Cumhuriyyətin dövlət xadimlərindən biri, məşhur maarifçi Qori Müəllimlər Seminariyasını bitirmiş Nurməmməd bəy Adilxan bəy oğlu Şahsuvarovun (1883, Laçın - 11 avqust, 1958, Bakı) 1930-cu ildə Zəngəzurda 30 məktəb fəaliyyət göstərirdi ki, onlardan 28-i birinci dərəcəli (dörd sinifli), 2-si isə ikinci dərəcəli (yeddi sinifli) məktəblər idi. 1941-ci ildə Zəngəzurdakı 42 Azərbaycan məktəbinin 23-ü ibtidai, 15-i yeddi illik, 4-ü isə orta təhsil müəssisəsi idi. Zəngəzurda maarifçi insanların yetişməsində 1882-ci ilin sentyabrın 1-də Həsən bəy Xancanbəyovun açdığı Qubadlı kənd məktəbinin böyük rolu olmuşdur. Azərbaycanda ilk qız məktəblərindən biri də Qubadlıdakı bu məktəbdə 1914-cü il fevralın 25-də 17 qızla açılmışdı. 1918-ci ilə kimi Qubadlı məktəbini bitirən 10-dan çox gənc Qori seminariyasında, Viladiqafqaz, Peterburq, Kiyev, Moskva, Odessa, Xarkovda və başqa şəhərlərdə ali təhsil almışlar.Qubadlı məktəbinin məzunları arasında Qarabağ müharibəsinin 6 Milli Qəhrəmanı, 100-dən çox qazi, 4 Sosialist Əməyi Qəhrəmanı, 2 dünya çempionu, 100-dək akademik, professor, dosent, görkəmli dövlət və ictimai xadim, tanınmış yazıçı, şair vardır.

### 33. Sarı Aşıq haqqında nə bilirik?

XVII əsrdə yaşamış Sarı Aşıq haqda ilk məlumatı həmyerlisi, XIX əsrdə yaşamış Həsənəli xan Qaradaği vermişdir.

Sarı Aşığın həyatıyla bağlı xalq arasında "Yaxşı və Aşıq" dastanı yayılmışdır.

Sarı Aşığın yaradıcılığının toplanmasında Bəhlul Behcətin xüsusi rolu olmuşdur. Çap etdirdiyi məqalələr bir daha təsdiq edir ki, bu böyük şəxsiyyət Sarı Aşığın yaradıcı irsinin öyrənilməsində də ilk addımları atmışdır. "Sarı Aşıq", "Aşıq" təxəllüslü bayatı şairinin tərcümeyi-halı və yaradıcılığı", "El şairi və el şairləri" adlı məqalələri Bəhlul Behcətin Sarı Aşıq yaradıcılığı ilə bağlı ciddi tədqiqat işi apardığını bir daha təsdiq edir. Bəhlul Behcət kitaba daxil olan "Aşıq" təxəllüslü bayatı şairinin tərcümeyi-halı" adlı məqaləsində Aşığın yaradıcılığının və tərcümeyi-halının ədəbiyyatşünaslar tərəfindən düzgün araşdırılmadığını faktlarla qeyd edir. "Bayatı şairi kimdir?" sualını cavablandırmağa çalışan Behcət əfəndi yazır ki, onun rəngi sarıbəniz olduğundan yoldaşları arasında ona Sarıca deyirlərmiş. Əsl adı Nəbidir. Bəhlul Behcəti Sarı Aşığa bağlayan başqa səbəb o idi ki, Bəhlul Əfəndi də Sarı Aşıq kimi, Qaraman boyundan idi. Orta Asiyadan Əfqanstana, Hindistana, Anadoluya, Qafqaza yayılan Qaraman türkləri həm döyüşkənliyi, həm də elmli, bilikli olmaları ilə həmişə seçiliblər. Bəhlul Əfəndinin tədqiqatından bəlli olur ki, «Qaraman oğulları», yaxud «Qaraman bəylərbəyiliyi» adlanan, mərkəzi Konya şəhəri olan bu dövləti Osmanlı imperiyası məhv etdikdən sonra Qaramanlar – bu üsyankar türklər müxtəlif yerlərə səpələnirlər. Bəhlul Əfəndi yazır: *«Osmanlı dövləti ixtiyarında olan Anadolu əyalətlərində olan vəziyyət ilə əlaqədar olaraq oradakı müəyyən cərəyanlara mənsub olan təriqətçilər öz yurdlarını tərk edib*

*başqa yerlərə hicrət edirlərdi. Belə hicrət edənlərdən bir dəstədə də bizim tərcümeyi-halını yazmaq istədiyimiz bayatı şairi Sarıca Nəbi gəlirdi.*

*Aşiq Qaramanlıdır,*  
*Xalın Qaramanlıdır,*  
*Yarın soyuq üzündən*  
*Yenə qar amanlıdır. "*

Laçın rayonunun Güləbird kəndinin yaxınlığında, Həkəri çayının sağ sahilində XVII-XIX əsrlərdə mövcud olan və hazırda xarabalıqları qalan Qaradağlı kəndində anadan olmuş, yaşamış və Qaradağlı kəndinin yaxınlığında hazırki Güləbird kəndinin ərazisində dəfn olunmuşdur.

Burada Yaxşı adlı bir qıza vurulur və bayatılarının böyük bir hissəsini ona həsr edir.

Arxeoloqlar 1927-ci ildə qəbri açaraq onun həqiqətən XVII əsrdə yaşadığını sübut etmişlər. Məzarı üzərində abidə-muzeyi yaradılmışdı.







**34. Laçınlı nəqşibəndi şeyxi Mir Həmzə Seyid Nigari Qarabağ həsrətini necə ifadə etmişdi?**

XIX əsr Azərbaycan ədəbiyyatında "Seyid Nigari" təxəllüsü ilə tanınan Hacı Mirhəmzə əfəndi təriqət şeirinin görkəmli nümayəndələrindən biridir. O, 1797-ci ildə Qarabağın Cicimli kəndində doğulmuşdur. Gənc yaşlarında Şirvana gəlmiş, dövrünün görkəmli alimlərindən dərs almışdır. Nigari Qarabağda Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı yönəlmiş müridizm azadlıq hərəkatının öncüllərindən olmuş və buna görə hökumət onu sürgün etmək istəmişdir. Şair təqiblərdən qurtarmaq üçün Anadoluya getmiş, ömrünün axırına qədər orada yaşamışdır. Nigari 1848-ci ildə Xarputda vəfat etmiş və özünün vəsiyyətinə əsasən Amasiya şəhərində dəfn olunmuşdur. Məzarı Amasyadakı Şirvan camesindədir.

Bədii yaradıcılığa gənclik illərində başlayan Seyid Nigarinin şeirlər divanı XX əsrin əvvəllərində çap olunsa da, sovet dönəmində onun adı, demək olar, tamam unutdurulmuş, əsərləri geniş oxucu kütləsinə naməlum qalmışdır. Yalnız son vaxtlar şairin əsərlərindən ibarət "Xaki-payin taci-sərim", Nigarnamə” və “Divan”ı nəşr edilmiş, Türkiyə və Azərbaycanda həyat, yaradıcılığına həsr olunmuş elmi konfranslar keçirilmişdir. Şeyxin

Qarabağ həsrətli şeirləri bu gün də yurdsuz həmyerlilərinin mənəvi-psoxoloji ağrı-acılarına güzgü tutur.

Sinəmə çəkilən qara dağımdır,
Qara bağrım qanlı Qarabağımdır.
Qan əkər, odlar tökər Miri-Nigari məgər,
Yad qılıbdır yenə Qarabağ torpağını.

Eşqin kanı Qarabağdır məkanım,
Bülbülü-şeydayam, cənnət yerimdir.
Əvvəl başdan Qaraqaşdır bostanım,
İndi gülüstanım Qarapirimdir.

Bir qönçə gülünün tarımarıyam,
Görüm abad olsun ol Qarabağı.
Bir gözəl ceyranın giriftarıyam,
Şənlik olsun dağı, bağı, ovlağı.

Gözlərimdən hər dəm qan – yaş tökülür,
Sərvtək qamətim yaytək bükülür.
Sinəmə çal-çarpaz dağlar çəkilir,
Yadıma düşəndə Çilgəz yaylağı.

Ey Nigari, ömrün erişdipayə,
Salmadı başıma ol sərvi sayə.
Can qurban eylərəm peyki səbayə,
Xəbər versə bir gün ol Qarabağdan.

## 35. Tarixçi, şair Mir Mehdi Xəzani haqqında nə bilirik?



Mir Mehdi Mir Həşim bəy oğlu (1809-1894) Zəngəzurun Məmər kəndində (Qubadlı rayonu) anadan olmuşdu. Ibtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Öz kəndlərini İbrahimxəlil xan Cavanşir nəsilbənəsil onların uruğuna bağışlamışdı. Molla Rəfi bəy Mirzə Məhəmməd bəy oğlu Şıxımlının dəvəti ilə Dizaq mahalına köçmüşdü. Bir müddət bu kənddə məktəbdarlıq edəndən sonra kürəkəninin dəvəti ilə, 1859-cu ildə Tuğ kəndində yerləşmişdi. O, burda da məktəbdarlıqla məşğul olmuşdu.Öz ana dilini dərindən sevən Mir Mehdi Xəzani müsəlman dini ehkamına dair uşaqlar üçün Azərbaycan dilində mənzum bir əsər yazıb 1884-cü ildə çap etdirmişdi. Mir Mehdi kənddə yaşasa da, Qarabağın ədəbi-mədəni mərkəzi Şuşa ilə daim əlaqə saxlayırdı. Mir Mehdi tarixçi idi. Onun yaradıcılığında ən əsas yeri onun "Kitabi-tarixi-Qarabağ" tutur. Müəllif özünün müqəddimədə qeyd etdiyinə görə əsəri Mirzə Adıgözəl bəyin, Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarix"lərindən əlavə "təvarixi-qədimlər"dən geniş istifadə edərək Mirzə Camalın nəvəsi Məhəmməd bəy Cavanşirin xahişi ilə "xalis türki" (Azərbaycan) dilində yazmışdır. Əsər müqəddimə, 24 fəsil və xatimədən (nəticə) ibarətdir. Mir Mehdi Xəzaninin məzarı Tuğ kəndində idi.

Xəzani təxəllüsü ilə yazdığı qəzəllərinin bir qismi XIX əsr Azərbaycan şeiri antologiyasına (Şərq-Qərb, 2005, səh: 143-146) daxil edilib.

**36. M.Ə.Rəsulzadə Qaçaq Nəbi hərəkatına hansı qiyməti vermişdi?**



Azərbaycan istiqlal məfkurəsinin və dünyəvi, demokratik Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə «Azərbaycan tarixində qaçaq hərəkatı» məqaləsində yazırdı: "*Azərbaycanda qaçaq hərəkatı əsasən rus çar rejiminə və yerli zülmkarlara qarşı mübarizə prosesində meydana gəlmişdir....XIX əsrin ikinci yarısında igidlikləri ilə hörmət qazanan qaçaqlardan zəngəzurlu Qaçaq Nəbini əlimizdə olan məlumatlara və eşitdiklərimizə əsaslanaraq anlatmaq istəyirik. Zəngəzur və Qarabağda qorxmadan partizan müharibəsi aparan Qaçaq Nəbinin… əsas düşmənləri çar rejimi, xanlar və bəylər idi. O, mübarizəsində kasıbları və onların hüquqlarını müdafiə edirdi. Nəbinin qaçaqçılığının ilk illərində mübarizə apardığı əsas ərazi Zəngəzur və Naxçıvan vilayətləri olsa da, bu coğrafiya ilbəil genişlənirdi. İstismarçı rus çar rejiminə qarşı mübarizə aparan qaçaqlara xalq yaxından köməklik göstərir, ərzaqla təmin edir, yeri gəldikdə gizlədirdi. Nəbi uzun müddət rus kazakları ilə vuruşur, sıxışdırıldığı zaman hazırkı İrana və Türkiyəyə sığınırdı. Çar idarəsi bu hərəkatı yatırtmaq üçün bütün vasitələrə əl atırdı...dastanlarda "Nəbi urusları burda qoymadı" misrası olduqca çox işlədilir.*"

**37. Qaçaq Nəbi Bəhlul Bəhcətin "Qaçaq Nəbinin tarixi" (vəsiqə və sənədlər üzrə)" kitabında necə görünür?**



Zəngəzur qəzasının sonuncu qazısı, tarixçi, folklorşünas Bəhlul Bəhcətin hələ sovet ideologiyasının tam və qəti qələbə çalmağı, repressiyaların tüğyan etmədiyi 1920-ci illərdə yazdığı "Qaçaq Nəbinin tarixi" (vəsiqə və sənədlər üzrə)" kitabında ("Çıraq" nəşriyyatı, 2011) gətirdiyi çoxsaylı faktlar – başlıqlar da M.Ə.Rəsulzadənin fikirləri ilə eynən üst-üstə düşür; *"Qaçaq Nəbinin Xinzirəyə hücumu və Bedrus bəylə keşişi öz evində öldürməsi", "Qaçaq Nəbinin dağbəyi Ginkor Qrikoru öldürməsi", "Xuçmanski Lütvəli bəyi öldürməsi", "Nəbinin qardaşı Mehdinin Ordubadın Qarçevan kəndində ermənilər tərəfindən öldürülməsi", "Maltəpə Sarımsaqlıda Naxçıvan naçalniki Slovenki və Zəngəzur naçalniki Səlim bəylə döyüşü", "Əliquluşağında erməni tacirlərin xəyanəti və öldürülməsi"* və sair. Qaçaq Nəbinin rəhbərliyi ilə 20 ildən çox davam edən «rus çar rejiminə qarşı partizan müharibəsi» Qarabağ, Naxçıvan, Güney Azərbaycan, Osmanlının şimal əyalətlərini də əhatə etmiş, Peterburq, Tehran, İstanbul saraylarında bu qorxubilməz dəstənin ləğvi istiqamətində birgə işbirliyinə dair gizli yazışmalar aparılmış, əlbir planlar qurulmuş, xainlərin, mal-mülk, qızıl, vəzifə düşkünlərinin yardımı ilə xəyanətlə icra olunmuşdur.

Hələ uşaq ikən Nəbi kəndlilərə qarşı özbaşınalığın, zülmün bütün dəhşətlərini ailələrində, qonum-qonşuda şəxsən görüb yaşamışdı. Aşağı Mollu kəndinin sakinlərinə mülkədar Məmməd bəyin elədiyi zülmün əvəzin çıxmaq üçün onu ağır yaralayıb, qaçıb bir müddət gizli yaşamışdı. Sisianın Salvartı yaylasında, Gorusda, Naxçıvan qəzasının Əbrəqunus, Ərəfsə və Ordubad qəzasının kəndlərində gizlənib. Üç dəfə tutulub həbs edilsə də, hər

dəfə qorxubilməz cəsarətlə həbsxanadan qaçıb Nəbi dağlarda və meşələrdə yaşamağa məcbur olmuşdu. Dəfələrlə həbsdən qaçması onu məşhurlaşdırdı. Nəbi həbsxanadan qaçdıqdan sonra düşmənlərinə divan tutmaq məqsədilə öz ətrafına qisasçıları yığaraq dəstə yaratdı. Onlar hökumətə qarşı, əsasən, partizan müharibəsi üsulundan yararlanırdılar. Qaçaq Nəbinin Qarabağ cinsindən seçilmiş Bozatı, türk beşatılanı da məşhur idi. Nəbinin dəstəsinə ilk qoşulanlardan biri vəfalı ömür-gün yoldaşı Həcər, qardaşı Mehdi oldu.

**38. Gorus məktəbinin müdiri olmuş P.Vostrikov Həcər xanım haqqında nə yazmışdı?**



Nəbinin həyat yoldaşı Həcər də onunla birlikdə çar hərbi hissələrinə qarşı vuruşmalarda yaxından iştirak etmiş və xalq arasında çox tanınmış, sevilmişdi. Həcər xanım dəstədə gözəl dost və ağıllı məsləhətçi hesab olunurdu. O, həm də mahir nişançı idi. Qori müəllimlər seminariyasının məzunu, uzun müddət Gorus məktəbinin müdiri olmuş P.Vostrikov yazırdı*: «Həcər xanım da Nəbi kimi çox cəld silah işlədirdi. Onun atının sürətli çapacağında belə gülləsi hədəfdən yayınmırdı. Həcər həm də Nəbinin ən birinci köməkçisi idi.”*

Qaçaq Nəbi və Həcərin Əhməd, Xəlil və Zeynəb adı övladları olmuş, Qarsda sədaqətli, etibarlı insanların əhatəsində yaşamışlar. Hazırda Sumqayıtda Qubadlıdan olan, Avstriyada, Türkiyədə bu ulu nəslin törəmələri yaşayır, şərəfli soyun ənənələrini ləyaqətlə davam etdirirlər.

**39. Qaçaq Nəbi ermənilərdən qardaşı Mehdinin intiqamını necə aldı?**



Nəbiyə düşmən olan erməni hampaları tərəfindən qardaşı Mehdi 1894-cü il iyulun 20-də Qarçıvan kəndində xəyanət, işgəncə ilə öldürülür. Nəbi ermənilərdən layiqli intiqam alır. Qarçıvan hadisəsi uzun müddət xalqın yaddaşından yaşamış, dillər əzbəri olmuşdu; Qaçaq Nəbi iyulun 23-də öz dəstəsi ilə kəndin ətrafında gizlənir, silahdaşlarından iki nəfərini çapar qiyafəsində Ordubad həbsxanasından qaçmış Qəmbər adlı birisini qabaqlarına qataraq Qarçıvan kəndinə göndərir. Guya o, həbsdən qaçdığından, pristav tərəfindən tutulub Gorusa göndəriləcəkdi. Çapar kəndə çatan kimi dərhal kənd hampalarına xəbər verirlər, onların arxasınca da qəza rəisi və kazaklar libasında Qaçaq Nəbinin dəstəsi kəndə daxil olurlar. Qaçaq Nəbi ilə gedən «kazaklar» 18 nəfər atlı idi. Kəndin hampaları və keşişləri rəisin pişvaza çıxırlar. Qaçaq Nəbi onu qarşılayan hampaları məsləhət bəhanəsilə kilsəyə çağırır və kilsənin qapısını bağladır, bu varlıların evlərində qiymətli əmlakları nə varsa, topladır bir yerə, əldə etdiyi qənimətin bir qismini qonşu müsəlman kəndlərindəki yoxsullara bölüb verir, qalan hissəsini 17 ata, qatıra yükləyib Arazın o tayına keçirir, orda da kasıb camaata paylayır.

O dövrün qəzetlərinin yaymış olduğu məlumatda hampa və varlı keşişlərdən qarət edilmiş əmlakın dəyəri 29 min rubla dəyirdi.

## 40. Xalq Qaçaq Nəbini niyə və necə müdafiə edirdi?

Zəngəzur, İrəvan, Naxçıvan bölgələrində çox sayda kəndin əhalisi Nəbinin köməyi ilə ağır vergi yükündən xilas ola bilmişdi. Qaçaq Nəbi hökumətdən və varlı kəndlilərdən alınmış qənimətin yalnız zəruri olduğu qədər yüngül bir hissəsini tez-tez yerini dəyişən dəstəsinə götürür, qalan hamısını yoxsul kəndlilərə paylayırdı. Onlar da öz növbəsində Qaçaq Nəbidən heç nəyi əsirgəmirdilər. Kəndlilər lazım gələndə qaçaqları patronla, ərzaqla təmin edir və başqa vasitələrlə kömək edirdilər.

Hakimiyyət orqanları qaçaqlara yardım göstərənlərə qarşı da qəddar tədbirlər görürdülər. Həm ayrı-ayrı şəxslər, həm də bütöv kənd cəzalandırılırdı. Qaçaq Nəbinin dəstəsini təqib və məhv etmək üçün hər ev üç rubl verməli idi. Üç kənd əhalisinə (Tivi, Nasirvaz və Azıxlar) qaçaqlara daha artıq kömək etdiyinə və onları gizlətdiklərinə görə üç rubldan başqa, 300 rubl əlavə vergi qoyulurdu. Xəbərdarlıq edilirdi ki, hərgah kəndlilərdən biri qaçaqlara pul köməkliyi edərsə, alınan məbləğ on dəfə artırılacaqdır. Qaçaqlarla əlaqəsi olan kənddə qoşun dəstəsi, adətən, kazaklardan ibarət olan hərbi dəstə yerləşdirilir, onun xərcinin ödənilməsi isə kəndin sakinləri üzərinə qoyulurdu.

İrəvan qubernatorunun məlumatında göstərildiyi kimi: «*Nəbinin dəstəsinin fəaliyyət göstərdiyi bölgənin, demək olar ki, bütün müsəlman əhalisinin hamısı onu müdafiə edir və qoruyur*». Bununla da Nəbinin qaçaqlıq etdiyi bölgənin əhalisi Qaçaq Nəbinin timsalında imperiyanın müstəmləkə siyasətinə qarşı üsyan edirdi.

B.Bəhcət Nəbinin əxlaq və mənəviyyat sahibi olmasını xalq tərəfindən sevilib müdafiə olunmasının əsas səbəbi sayırdı. Nəbinin mənəviyyatını, əxlaqi keyfiyyətlərini səciyyələndirən xarakterləri bir çox konkret hadisələrdə özünü büruzə verir*: “Nəbi öz hərəkətlərində namus və iffətli olub ondan xalqın əxlaqına və qeyrətinə toxunan bir əməl çıxarmazdı. O, qadına hörmət barəsində çoxdan çox ehtiyatlı idi, düşmənlərinin də qadınına*




*toxunmazdı. Yoldaşlarına qarşı çox diqqətcil və qayğı göstərən idi. Nəbi öz yoldaşlarına gizli oğurluğu qadağan etmişdi, onun bütün qarətləri müəyyən bir məqsədlə olurdu. O, yolları kəsərək hər gələn-gedəni soymaq işindən uzaq idi. Təsadüfi yol kəsmək onların işi deyildi."*

Azərbaycan xalqı Qaçaq Nəbinin adına içdən gələn sevgilərlə mahnılar qoşmuş və dastanlar yaratmışdır. Azərbaycan yazarları xalq qəhrəmanı Qaçaq Nəbinin mübarizə dolu həyatını təsvir edən bir sıra əsərlər yazmışlar. M.Rahimin «Qaçaq Nəbi» poeması, S.Rəhimovun «Aynalı» povesti və «Qafqaz qartalı» romanı, H.Qasımovun «Dağlara çəkildi» povesti, C.Bərgüşadın «Boz atın belində» romanı, Mirzə Məmmədsadıq Axundzadənin (Mehmet sadık Aran) "Qaçaq Nəbi" pyesi (Türkiyədə nəşr olunub), Ə.Vəliyevin «Tunc atlı» əsəri, S.Rüstəmin «Qaçaq Nəbi» pyesi və M.Təhmasibin «Nəbi» ədəbi kinossenarisi, Ə.Qurbanovun ssenarisi əsasında H.Turabov və Ə.Mahmudov tərəfindən ekranlaşdırılmış, 9 nəfərin Dövlət mükafatına layiq görüldüyü, həm də rus və ermənilərin təzyiqi ilə adı dəyişdirilib kadrları ciddi senzuraya məruz qalmış, filmin "Qaçaq Nəbi" adı "Atarı yəhərləyin", "Qanlı zəmi" dəyişdirilmişdi. Bu filmdəki rus, ermənilərə qarşı savaşa dair detallar çıxarıldıqdan sonra da



senzura filmi təsdiq etməmişdir. Məsələ o qədər uzanır ki, hətta Moskvada Mərkəzi Komitə səviyyəsinə qədər gedib çıxır. Süleyman Rüstəm, Süleyman Rəhimov, Imran Qasımov, Rəsul Rza kimi tanınmışlar SSRİ rəhbəri Mixail Qorbaçova teleqram vurublar ki, heç bir dəlil-sübut olmadan xalq qəhrəmanımızı düşmən çıxarırlar, onu müdafiə edə bilmirik, hansı ki, o, Çar Rusiyasına, zalımlara qarşı vuruşub, qan töküb, şəhid olub. Əgər onun haqqında olan bir filmi saxlaya bilmiriksə, biz hamımız sovet vətəndaşlığından imtina edirik. Biz hüquqularımızın qorunmasını tələb edirik. Bu dirənişdən sonra filmi bir az da kəsib doğrayıb sonra buraxdılar efirə. 1986-cı ildə "Qaçaq Nəbi" filminin yaradıcı heyətinə Azərbaycan Dövlət Mükafatı verilib.

## 41. Xain xəyanətkarlar Qaçaq Nəbini necə məhv etdi?

Ümumxalq müdafiəsi Qaçaq Nəbini ələkeçməz etmişdi. Yelizavetpol qubernatoru knyaz A.D.Nakaşidze Nəbinin ələ keçirilməsinin qeyri-mümkünlüyünü bilib, Naxçıvan qəza rəisi A.S.Slavoçinskiyə və Zəngəzur qəza rəisi S.Rüstəmbəyova Qaçaq Nəbinin adamlarını bir-bir məhv etməklə, dəstəni dağıtmağı əmr etmişdi. Qaçaq dəstəsini, Nəbini aradan götürmək üçün xüsusi olaraq Cənubi Qafqaza ezam edilən xəfiyyə general-leytenantı D.Skalon Osmanlı və Qacariyyədən ciddi yardım tələb etdi.




Nəbiyə sui-qəsd Cənubi Azərbaycanda yaşayan Rusiya təbəəsi olan tacir Paşa Hacı Fərəc oğlu tərəfindən hazırlanmışdır. 1895-ci ilin noyabr ayında Qaçaq Nəbi Cənubi Azərbaycanda olarkən Naxçıvan qəza rəisi A.V.Slavoçinski İrəvan qubernatorunun razılığı ilə oraya gedib, Urmiya şəhərində yaşayan Ordubad taciri

Paşa Hacı Fərəc oğluna Qaçaq Nəbinin öldürülməsi təklifini etmişdi. Nəbinin onun tərəfindən öldürüləcəyi təqdirdə A.V.Slavoçinski onun qızıl medalla təltif ediləcəyini və həmçinin əlavə olaraq min rubl məbləğində pulla mükafatlandırılacağını vəd etmişdi. A.V.Slavoçinski ilə razılığa gələn Paşa Hacı Fərəc oğlu Nəbinin yaxın silahdaşları olan Şahhüseyni və Kərbəlayı İmanı aldadaraq Nəbinin öldürülməsinə nail oldu. Culfadakı Rusiya ali konsulluğunun başçısı knyaz Dobidze Nəbinin öldürüldüyünə əmin olandan sonra Qaçaq Nəbinin onun təkidi ilə İran polisləri tərəfindən öldürüldüyü haqqında məlumat yaydı. Onda İran mətbuatında da Nəbinin İran polisləri ilə atışmalarda öldürüldüyü barədə məlumatlar yer almışdı.Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində Nəbinin öldürülməsi ilə bağlı saxlanılan arxiv sənədləri yer almışdır və yuxarıda deyilənlərlə üst-üstə düşür.

Bəhlul Behcət də Qaçaq Nəbinin Rusiya və İranın polis orqanlarının təşkil etdikləri xüsusi əməliyyat nəticəsində öldürüldüyünü göstərirdi. Onun öldürülməsində sonralar İranın hərb naziri olmuş Əmir Bahadır Cəng Paşa xandan məharətlə istifadə edilmişdi. İran şahı Müzəffərəddin sarayının nüfuz sahiblərindən biri olan Cəng Paşa xan əvvəllər də Qaçaq Nəbinin Cənubi Azərbaycanda fəaliyyətinin qarşısını almaq üçün Qaradağ və Maku tərəflərdə olan İran hökuməti məmurlarına lazımi sərəncamlar vermişdi. Qaçaq Nəbi İranın Larni kəndində 12 mart 1896-cı ildə xəyanətkar sui-qəsdlə öldürülüb.



**42. S.P.Zelinski Zəngəzur ermənilәri haqqında nələri yazmışdı?**

Zəngəzur bölgəsinin demoqrafik mənzərəsini, əhali məskunlaş-masını, etnik tərkibini, eləcə də etnoqrafiyasına dair ən dolğun məlumatları, bəzi təhriflərə baxmayaraq, S.P.Zelinski verib. O, erməniləri görüb tanıyıb, həmsöhbət olub, gəldiyi qənaətlər hətta, üstündən əsr ötsə də, tamamilə həqiqətə uyğundur, reallığı əks etdirir. O, Zəngəzurla bağlı tədqiqatında qeyd edirdi ki, Zəngəzur erməniləri kobudluqları və söhbətcil olmamaqları ilə seçilirdilər, onlar qətiyyən inkişaf etməmişlər və bu mənada Zaqafqaziyanın digər ermənilərindən geri qalırdılar. Daim özünümüdafiə qayğısı tələb edən yerli şərait bu ermənilərdə ürkəklik yaratmışdı. İnam-sızlıq və şəkki-şübhə buradakı ermənilərin səciyyəvi cəhəti idi. Onlar demək olar heç kimə inanmırlar və daim nədənsə qorxurlar. Ona görə də Zəngəzur və Qarabağda yaşayan ermənilər özləri üçün yaşayış yerlərini gediş-gəliş yollarından aralı seçirdilər.



**43. Kürdlər Zəngəzurda nə zamandan məskunlaşıblar?**

Zəngəzur bölgəsinə kürdlərində yaşamı, onların bu yerlərə köçü, gəlişi barədə elmi-tarixi mənbələrdə xeyli məlumatlar var. 1589-cu ildə I Şah Abbasın vaxtında (1587-1629), Osmanlı sultanı III Muradın (1574-1595) 1579-cu il 13 aprel tarixli fərmanı ilə kürdlərin bu bölgələrə köçürülməsi barədə məlumatlar vardır. 1717-ci ildə Hüseyn xanın vaxtında daha intensiv olub. Kürdlərlə




bağlı məsələ sarayda müzakirə olunarkən vəzir Ədhəm xan son vaxtlar onların dövlətə qarşı açıq-aşkar çıxış etmələrini, quldurluq etdiklərini, yollarda basqınların baiskarları olduqlarını, üstəlik vergi ödəmədiklərini də deyir. Kürdlərin Arazdan o taya dağlıq ərazilərə köçürülmələri barədə qərar verilir. Kürdlərin 5 mindən çoxu Zəngəzurda məskun olurlar. Nadir şah hakimyyətə gələndən sonra kürdlərə qarşı daha amansız olur, keçdiyi ərazilərdən bütün kürdlərin köçürülməsini buyurur və vergiyə cəlb olunmasını da əmr edir. Qaraçorlu və Püsyan kürdlərinin bir hissəsini də Qarabağa köçürdür. Türkmənçay və Gülüstan sülh müqavilələrindən (1813; 1828) sonra, XIX əsrdə uzun sürən rus-osmanlı, Rus-Qacar müharibələri zamanı bu köç daha intensiv olmuşdur. Zilanlı, mafruzlu, şotlanlı kürdlərinin də İrandan bu ərazilərə köçü 1820-1830-cu illərə təsadüf edir. Kürdlər, əsasən, köçəri həyatla, qoyunçuluq, maldarlıqla məşğul olduqlarına görə daha çox dağlıq ərazilərdə–Naxçıvan və Zəngəzurda, Qərbi Azərbaycanda məskunlaşmışdılar.

Azərbaycanda və Zəngəzur mahalında kürdlərin sayı barədə mənbələrdə, KİV-lərdə çoxlu bir-birinə zidd rəqəmlər yazılmışdır. Ancaq sadə həqiqət budur ki, Zəngəzurda türklərlə kürdlər əsrlər boyu birlikdə mehriban şəraitdə yaşamış, qaynayıb qarışmış, yadellilərə qarşı birlikdə savaşmış, ermənilər tərəfindən ayrı seçkilik olmadan eyni amansızlıqla təcavüzə uğramışlar. Kürdlər Azərbaycan elminin, ədəbiyyatının, mədəniyyətinin inkişafına dəyərli töhfələr vermişdir.

Azərbaycanda yaşayan kürdlərin əksəriyyəti kürd dilini unutmuş, assimilyasiyaya uğramışdı. Dilin assimilyasiyası prosesi

adətən bir etnosun başqa daha böyük çoxluq təşkil etdiyi etnosla (yəni azərbaycan türkləri ilə) sıx təmasda olduğu zaman birinin digərinin içərisində azlıqda qalması nəticəsində baş verir.

Məşhur kürd ədəbiyyatçısı, astronom, şair, tarixçisi, "Məm və Zin" poemasının müəllifi Əhməd Xaninin (Ehmedê Xanî (1650-1707) Qubadlının Xanlıq kəndində doğulduğu bir sıra mənbələrdə qeyd olunub (poemanın Azərbaycan dilində nəşrinə ön söz).

**44. "Kürdüstan" yaradılmasının məqsədi nə idi?**



Məlumdur ki, 1923-26-cı illərdə Zəngəzurun Azərbaycanda qalmış Laçın, Qubadlı, Zəngilan bölgələrindən ibarət mərkəzi Laçın olan "Qırmızı Kürdüstan" qəzası yaradılmış, burada "Sovet Kürdüstanı" adlı qəzet də buraxılmışdır.

Məqsəd də Dağlıq Qarabağ vilayəti ilə Ermənistan Respublikasını coğrafi baxımdan ayıran bu bölgəyə etno-siyasi rəng verməklə gələcəkdə Azərbaycandan qoparılması üçün siyasi zəmin yaratmaq idi.

1992-1993-cü illərdə ermənilərin və havadarlarının mərkəzi Laçın olan "Kürdüstan" qəzasının bərpa edilməsi barədə hay-küy salması, informasiya yayması, hazırda Suriya və digər ölkələrdən kürdlərin bu ərazilərə köçürülməsi öz kökünü buradan alır.

**45. Zəngəzurun sonuncu qazısı Bəhlul Bəhcət haqqında nə bilirik?**




Qafqazda Şeyx Şamildən sonra xalqı rus işğalına qarşı Cihada Zəngəzurun sonuncu qazısı Bəhlul Behcət (Qubadlı, Dondarlı 1869 – İrkutsk, 15 mart 1938) qaldırmışdı. İbtidai təhsilini atasından və sonra qaynatası olan Hacı Qasım Çələbidən almışdı. Sonradan Şəki şəhərinə yollanmış mədrəsədə, sonra isə Türkiyə və İranda dini təhsilini davam etdirmişdi. 1915-ci ildə Qafqaz müftisi tərəfindən Zəngəzur qəzasının qazisi təyin edilmişdi. 1918-ci ildə Azərbaycanda Demokratik Cümhuriyyət qurulduqdan sonra 1920-ci ilə qədər Zəngəzurun qazısı vəzifəsində çalışıb. Bolşevizmə, kommunist ideologiyasına qarşı yazılmış “Cihad Bəyannaməsi”nin müəllifi olub, üsyan qaldırıb, əldə silah Zəngəzurda bolşevikləri devirib. O, milli dövləti fəaliyyətilə dəstəkləyənlərdən olub. Azərbaycanda bolşevizm bərqərar olduqdan sonra onun həyatının ağır günləri başlayır. Süni quraşdırılmış bir ittiham əsasında ilk dəfə olaraq 1924-cü ildə həbs edilir. 10 ildən sonra həbsdən qayıdır: 3 il ərzində əvvəlcə "Azərnəşr"də, sonra isə Elmlər Akademiyasının Azərbaycan filialının ədəbiyyat sektorunda işləyir. Bu elm ocağı Bəhlul Bəhcətin son iş yeri olur. 1937-ci ilin avqustunda yenidən dördüncü dəfə həbs edilir və 15 mart 1938-ci ildə quraşdırılmış ittihamlar əsasında güllələnir. 20 ildən sonra Azərbaycan SSR Ali Məhkəməsinin 5 noyabr 1958-ci il tarixli qərarı ilə bəraət verilir. Şərq ədəbiyyatı və dillərini, həmçinin Şərq tarixini gözəl bilən B.Bəhcətin bizə gəlib çatmış əsərləri onun görkəmli ədəbiyyatşünas, folklorşünas olduğunu göstərir. Oğlu Mustafa, nəvələri Həmdullah, Bəhlul da ilahiyyatçıdır. Əfəndi həbsxanada

Mərkəzi Komitədən verilən tapşırıqlar üzrə siyasi ədəbiyyatları dilimizə çevirir, xoşlamadığı işlərlə məşğul olduğuna görə özünə fikir vermir, üzünü, saçını qırxdırıb səhmana salmır. Soruşurlar:- *Bəhlul əfəndi, özünə niyə fikir vermirsən, başını niyə qırxdırmırsan?*

Bəhlul cavabında deyir:- *Düşmənlərə xidmət edən edən baş elə bu gündə olmalıdır, mən o başa qulluq edə bilmərəm…*

**46. "Cihad bəyannaməsi" və "Xanlıq üsyanı" haqqında nə bilirik?**

Qazının rəhbərliyi ilə 1922-ci ilin ortalarında Qubadlı qəzasında başlanmış xalq üsyanı 1923-cü ilin əvvəllərində daha da genişlənmişdi. Nuru paşanın sifarişi ilə Mirzə Möhsün bəyin yazdığı "Xanlıq üsyanı" adlı məqaləsində və qazının nəvəsi, ruhani tədqiqatçı Hacı Həmdullah Əfəndiyevin "Bəhlul Əfəndi Behcət: Xanlıq üsyanı" kitablarında bu üsyan barədə geniş məlumat verilmişdir. Qoçu Təhməzin qaçaq dəstəsi ilə silahlı qüvvələrini birləşdirərək qəza mərkəzi Xanlığa yaxın – Dağtumas, Sirik, Qazanzəmi, Maşanlı, Çaytumas, Əfəndilər, Usubbəyli kəndləri onun nəzarətində idi. Bu işdə ona qaynatası məşhur seyid hacı Qasım Çələbi də dəstək verirdi. Qubadlı nahiyəsində qırmızı hökuməti devirib sovet hakimiyyətinə qarşı üsyan qaldıran Bəhlul Əfəndinin Cihad bəyannaməsində deyilirdi: *"Tarixi beşiyimiz olan Zəngəzur, Qarabağ və onlara bitişik mahallar 12 yüz ildir ki, Azərbaycanın əsas tərkib hissəsidir. Ancaq bu gün özünün bu torpaqda yaşamaq hüququ olmayan, ancaq bu məsələni silah gücünə həll etməyə cəhd göstərən Andranik və onun daşnak qoşunları bu torpaqları bizim əlimizdən almaq fikrindədirlər. Onlar bu yolda bütün vasitələrdən istifadə edirlər... Cihad bayrağı qaldırmaqda*



*məqsədimiz doğma torpaqlarımızı düşmənlərdən azad etməkdir. Vətən, din, torpaq, İslam yolunda cihad etmək hər müsəlman üçün böyük şərəfdir".* Bolşeviklərin köməyi ilə bu üsyan 24 oktyabr 1922-ci ildə yatırıldı.

**47. Müsavatın 5-ci Başqanı Dr. Mehmet Azer Aran kim olub?**

Mehmet Azer Aran 1911-ci ildə Zəngəzur qəzasının Zəngilan şəhərində doğulmuşdur. İlk, orta  və lisey təhsilini tamamlamış, Azərbaycanın istiqlalı uğrunda mübarizəyə qoşulmuşdur. 1920-ci ildə Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsindən sonra təqiblərdən canını qurtararaq öncə Güney Azərbaycana, daha sonra Türkiyəyə keçmişdir. Hərbi Tibb Akademiyasına daxil olub uğurla bitirmiş, müxtəlif yerlərdə hərbi həkim kimi fəaliyyət göstərmiş, həkim nevroloq kimi böyük ad-san qazanmışdır. Bir neçə mühüm əhəmiyyətli əsgəri xəstəxanalarda Baş həkim vəzifəsində çalışmış və öz istəyi ilə əməkliyə-təqaüdə çıxmışdır. Albay-polkovnik rütbəsinə qədər yüksəlmişdir.Türkiyəyə qədəm qoyduğu gündən Azərbaycan davasının da Anadoluda ən ardıcıl, yorulmaz mübarizlərindən olan Aran ömrü uzunu Məhəmməd Əmin Rəsulzadənin etibarlı silahdaşlarından biri olmuş, əqidəsinə sadiq qalmışdır. 6 mart 1955-ci ildə Müsavat Partiyası lideri Rəsulzadə Ankarada vəfat etdikdən sonra həmən toplanan Müsavat Partiyası Rəsulzadənin yerinə Mirzə-Bala Məmmədzadəni Baş katib-Genel başkanlığa seçmişdir. 1959-cu ildə onun vəfatı ilə genel başkanlığa Kərim Odər seçilmişdir. 1981-ci ildə Kərim Odərin vəfatından sonra Mehmet Azer Aran bu vəzifəyə seçilmişdir. Yəni Müsavat Partiyasının lideri-"Milli Müsavat Halk Fırkası ve Milli Merkez Başkanı" kimi şərəfli görevi də daşımışdır. Gənc yaşlarından Türkiyədə Azərbaycan istiqlalının yükünü çiyinlərində daşıyan Mehmet Azer Aran 1949-cu ildə yaradılan Azərbaycan Kültür Dərnəyinin də qurucu və idarə edici, yönətim rəhbərlərindən biri olmuşdur. Onun haqqında

nekroloqda yazılmışdı: *"Atası və bütün əqrəbası Rəsulzadənin qurduğu Azərbaycanın istiqlala və hürriyətə qovuşmasını, Azərbaycan Milli Cümhuriyyətinin qurulmasını istəyən Milli Müsavat Xalq Partiyasının mənsubudurlar."* O, təqaüdə çıxandan sonra parkinson xəstəliyinə tutulmuş, 8 aprel 1993-cü ildə 82 yaşında Ankarada həyata gözlərini əbədi yummuşdur. Ahmet Karacanın "Dr.Mehmet Azer Aranı Ebediyete Uğurladık" başlıqlı təsirli yazısı bu nəcib insanın ömrünə işıq salan dəyərli mənbədir ("Azerbaycan Dergisi", mart-aprel 1993).

**48. Zəngəzur həsrətli bu sözlər kimindir?**

*"Doğma yurd! Sən nə şirin imişsən! Səni belə sevməsəydim başıma bu qovğalar da gəlməzdi. Sənin şirinliyindən mənə ömrüm boyu zəhər dadızdırsalar da, səni yenə canım qədər sevirəm...ax doğma yurdum, kəndim, canım elim-obam, sənsiz necə yaşadım bu illər uzunu, sənə qovuşmadan son yolçuluğa getmək nə qədər çətindir bilsən..."*

Zəngəzur qəzasında yüzbaşı işləmiş, 1918-1920-ci illərdə




erməni daşnaklarına qarşı fəal mübarizə aparmış Baba Məmmədov Gəncədə Nuru Paşa ilə tanış olaraq onun köməkliyi ilə Zəngəzurun müdafiəsi üçün xeyli silah yardımı almışdır. H.Z.Tağıyevlə yaxın münasibətdə olmuş, onun Zəngəzur qaçqınlarına yardım ayırmasına nail olmuşdur. 1920-1924-cü illərdə Qubadlı bölgəsində milis işləmiş, daşnak dəstələrinin zərərsizləşdirilməsində xüsusi fəallıq, şücaət göstərmiş, qaçaqlara qarşı əməliyyatın aparılmasına imkan verməmiş, bir çoxunun dincliklə üzə çıxmasına səbəb olmuşdur. Əhalinin köməksiz vəziyyətindən istifadə edib Arazdan Cəbrayıl, Qubadlı, Zəngilana hücum edib camaatın var-yoxunu aparan iranlı qaçaq-quldur dəstəsi ilə döyüşü onu daha da məşhur etmişdi.

Süsən meşələrində lövbər salan iranlılara rus sərhədçiləri də yaxın düşə bilmir, ya da istəmirdilər, bu onlara lazım da deyildi. Baba başının dəstəsi ilə Araz qırağında bu quldur yığnağını mühasirəyə alır, ən yaxın məsafədən atılan atəşlə əksəriyyəti məhv edilir, bir qismi də yaralı, ya əsir alınır, bununla da Arazdan bu yana basqınlara son verilir. Ancaq bu savaş oddanalovdan çıxmış Babanı ömürlük şikəst edir, 2 əl barmağını dibdən kəsib atır, üz sümüyünün bir hissəsini də söküb dağıdır, ancaq al qan içində də sona qədər döyüşür və komandirlik edir. Rus hərbi səhra həkiminin sayəsində üz sümükləri də əyri bitir, yaraşıqlı sifətində əyrilik yaranır. 1929-cu ildə Baba həbs edilərək Şuşa turməsinə salınmış, lakin köhnə tanışı bolşevik Hüsü Hacıyevin köməkliyilə azad edilərək Türkiyəyə getmişdir. Burada o Xosrov bəy Sultanov və Nuru Paşa ilə yenidən görüşmüşdür. 1918-ci ildə Zəngəzura köməyə gələn Qafqaz İslam Ordusu əsgərlərindən biri azyaşlı oğlunu da özü ilə gətirmişdi. Baba kişi şəhid olan həmin əsgərin oğlu Osman Əlini oğulluğa götürüb evləndirib yanında saxlamışdı. Mühacirətdən sonra Əli də gizlicə Türkiyəyə köçmüşdü.

B.Məmmədov 1974-cü ildə Vətən həsrəti ilə vəfat etmiş, səsini, vəsiyyətini lentə aldırmışdır.

**49. Zəngəzur qəzasında yaşamış Sultanovlar barədə nə bilirik?**

XIX əsrin sonlarından XX əsrin 20-ci illərində Zəngəzur bölgəsində sinfi, sosial-iqtisadi, mədəni həyatını, milli münasibətləri, eləcə də erməni-müsəlman davalarını Sultanovlarsız təsəvvür etmək qeyri-mümkündür.

Nəzər Heydərovun “Zəngəzur dağlarında” kitabında bildirilir ki, Zəngəzur qəzasında üç Sultanovlar nəsli yaşayırdı. İndiki Laçın rayonuna daxil olan Kürdhacı kəndindən olan Sultanovlar nəslən, ata-babadan mülkədar deyildilər. Qarabağın general-qubernatoru Xosrov bəyin babası çarvadar olmuşdur. O zaman

xalq arasında deyərdilər: “Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz”. Bax həmin bu qatırçı Murad Sultanovların babası idi. Murad varlanıb Əsəd Sultanlı bəyin qohumunu almışdı. Qubadlı və Hacıalı kəndlərində yaşayan Bərgüşadlı Sultanovlar kürd idilər və ata-babadan mülkədar idilər. Mərmər, Hal, Davud-lu, Mahmudlu və Zeyvə kəndləri Bərgüşadlı Sultanovların idi. Mac, Ağbulaq, Qurtqalağı kəndlərində yaşayan müflis bəylər də bu Sultanovlar nəslindən idilər.

Danzaver və Pirçivanda yaşayan üçüncü Sultanovlar nəsli zadəgan idilər. Erməni kəndləri - Kovdar, Aşağı Xotanan, Yuxarı Xotanan, Azərbaycan kəndləri Gürcülü, Əyin, Mistan, Qiyaslı, Göyərcik, Xallava, Aşağı Cibikli, Yuxarı Cibikli, Malatkeşin, Genlik, Məmmədli kəndləri Danzaverli və Pirçivanlı Sultanovlara aid idi. İsgəndərbəyli, Ovqanlı, Göyarabas, Seytas, Bəxtiyarlı, Qarıqışlaq kəndlərində yaşayan bəylər də Danzaverli Sultanovların nəslindən idilər.

Sultanovlar soyunun ulu babası XVII əsrin sonlarında yaşamış, sonradan «sultan» rütbəsi almış Məhəmməd bəy Püsyandır. Hacı Məhəmməd Sultanın törəmələri bəylərbəylik alaraq, xanlıq dönəmində Püsyan, rus üsuli-idarəsi dövründə isə Sultanov soyadını daşımış, dövrlərinin gözüaçıq, zirək, fərasətli mülkədarları kimi ad çıxarmışdılar.

Zəngəzurda başqa varlı mülkədarlar da vardı. Qıraq Muşlan, İçəri Muşlan, Zəngilan, Məmmədbəyli, Sobu, Tatar, Keçikli kəndləri Cavanşirovların idi. Kirəvic o zaman Gorusda yaşayan Lohraz bəy və Hüseyn bəy Behbudbəyovların idi. Mehri rayonundakı Birinci Vartanadzor və İkinci Vartanadzor kəndlərinin sahibi Sərməstbəyovlar idi. Fərəcan, Diləlimüşkənli, Saray, Kertizan, Göyyal kəndləri isə Hacıbəyovların idi... Qarabağın varlı mülkədarlarının Zəngəzurda çoxlu kəndləri var idi. Dığ kəndi Rüstəmbəyovun idi. Ağdü, Vağdü və Dərəkənd kəndləri Əli bəy və Mirzəli bəy Behbudovların idi. Xanlıq, Mahrızlı, Xəndək kəndlərinin sahibi Keyqubad ağa Cavanşirov idi. Həbib bəy Şəkinski isə Həkəri, Muradxanlı, Novruzlu



kəndlərinin sahibi idi. Əliquluuşağı kəndinin camaatı Mehdibəyovun rəiyyəti idi. Mehdiqulu xan Qarabağskinin (İbrahim xanın oğlu-H.A) qızı knyaginya Gövhər ağa Usmiyeva Məlik Pəyəsi, Comartlı, Cicimli, Qara dərəsi kəndlərinin sahibi idi, üstəlik, onun bu yerlərdə 27 min desyatin meşəsi vardı.

Laçının Qasımuşağı obasında 1975-ci ildə doğulmuş İsgəndər bəy Rüstəm bəy oğlu Sultanov Sankt-Peterburq Texnologiya İnstitutunu bitirmişdi. Təhsilini bitirdikdən sonra Zəngəzura qayıdıb, ailə üzvləri ilə birlikdə Sibirə sürgün olunub, orada vəfat edib.

Abbas bəy Ağalar bəy oğlu Sultanov 1895-ci ildə Zəngəzur qəzasının Qubadlı kəndində dünyaya gəlmişdi. Qubadlı kənd məktəbində oxumuş, Qori gimnaziyasını bitirmiş, 1915-ci ildə Kiyev Universitetinin tibb fakültəsinə daxil olmuş, siyasi dərnəklərdə iştirak etmişdi. Gorusda qəza idarəsinin tibb şöbəsində işə başlamışdı. Sovet dövründə, 1921-ci ildən 1923-cü ilədək Qubadlı Qəza Firqə Komitəsinin məsul katibi işləmişdi. Sonra Xalq Maarif komissarlığında baş ictimai tərbiyə idarəsinin müdiri, ordan də Ali Siyasi Maarif İdarəsinin müdiri vəzifəsinə dəyişmişdi. 1930-cu ildə Qubadlı Rayon Partiya Komitəsinin birinci katibi olmuşdu.1931-1932-ci illərdə Qaradonlu (indiki İmişli) Rayon Partiya Komitəsinin birinci katibi, sonra Gəncədə Zaqafqaziya Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun direktoru işləmişdi.1937-ci ildə Bağırovun təşəbbüsü ilə həbs edilib güllələnmişdi. Bağırov onun Qubadlıda Əliyanlı qaçaqlarına tutulan divana etiraz etməsini unutmamışdı. Abbas bəy haqqında yazıçı Əli Vəliyevin «Fədakar vətəndaş» oçerki var.

Qarabağ, o cümlədən Zəngəzurla bağlı dəyərli tədqiqatların müəllifi olan Ənvər Çingizoğlunun “Qarabağlı həkimlər (1750-1950)” və “Soy” dərgisində (N-1, 2003) tarixi-ensiklopedik

tədqiqatlarında Sultanovların digər nümayəndələri (Camal bəy Sultanov, Əlipaşa bəy Sultanov, Xanmurad bəy Qaraçorlu, Xıdır bəy Qaraçorlu, İskəndər bəy Sultanov, Kamal bəy Paşayev, Rüstəm bəy Sultanov, Fərrux bəy Hüseynbəyov, Cabbar bəy Sultanov, Abbas bəy Sultanov və b) barədə ətraflı bilgilər vardır.

**50. Erməni terror təşkilatlarının Zəngəzurda fəaliyyələri nə zamandan başlamışdı?**

Hələ XIX əsrin sonlarından etibarən Zəngəzurda «Hnçak» və «Daşnaksutyun» terrorçu təşkilatlarının yerli özəkləri fəaliyyətə başlamışdı. 1904-cü ildə Zəngəzurun erməni əhalisi arasında milli zəmində qarşıdurma yaratmaq istiqamətində təbliğat işi aparmış, siyasi terror partiyalarının şöbələri yaradılmış, əhali silahlandırılmış, alınan silahların bir hissəsi gizli yolla Bakıya göndərilmişdi. Zəngəzurda yüksək inzibati vəzifələrindən birini tutan İvan Yakubovski Yelizavetpol Dairə Məhkəməsi prokuroruna 4 iyun 1905-ci ildə göndərdiyi təqdimatında yazırdı ki, 1905-ci il mayın 31-də Gorusa bağlı Xınzirək məktəbinin nəzarətçisi Nazaret Şirakuni dindirilərkən ifadəsində göstərmişdi ki, kənddə «Hnçak» və «Daşnaksutyun» partiyaları fəaliyyət göstərirlər. Şirakuni Xınzirək komitəsinin keşiş Ter-David Ter-Arutyunov başda olmaqla, daha üç nəfər təbliğatçıdan ibarət olduğunu və onun fəaliyyətinin bütün Zəngəzur qəzasını əhatə etdiyini bildirmişdir. O, həmin komitənin əhalidən pul yığanlarının və terrorçularının da olduğunu öz ifadəsində göstərmişdir. Təbliğatçıların hər ay 120, pul yığanların 25-30 rubl aldıqları, terrorçuların isə aylıq yox, hər bir qətlə görə xeyli məbləğ aldıqları məlum olmuşdur. Qeyd edilənlərdən asılı olmayaraq şahid N.Şirakuni öz ifadələrində göstərmişdir ki, keşiş Ter-Osip bütün ehtiyatda olan hərbi mükəlləfiyyətliləri kilsəyə yığaraq and içdirmişdir ki, orduya səfərbərlik zamanı hərbi qulluğa gələcəklər.

Həmin dövrə aid hadisələr haqqında maraqlı məlumatın verildiyi və «Məxfi» qrifi ilə saxlanılan başqa bir sənəddə isə

qeyd edilirdi ki, 1904-cü ilin noyabrında Xınzirək kəndinin sakinlərindən 8-i prokurora verdikləri ifadələrində göstərmişlər ki, onlar 80-100 nəfərdən ibarət partiyanın rəhbərliyində dururlar. Partiyanın hər bir üzvündən ayda 80 qəpikdən 2 rubladək aylıq üzvlük haqqı alırlar. Yığılan pulları kəndin icma başçısının qardaşına verirlər. Həmin pullara icma başçısı Sarkis Bağdasarov və keşiş Ter-David Ter-Arutyunov silah və güllə alırlar. Sursat keşişin anbarında saxlanır. Mədənçi Martiros Şahzadov isə xalça almaq adı ilə kəndləri gəzir, pul yığır və həmin pulla güllə alır. Həmin sənəddə göstərilir ki, oktyabrın 13-də keşiş Ter-Arutyunovun evində Cəbrayıl qəzasının rəisi Qaranı öldürmək üçün püşkatma keçirilmişdir. Püşkatma nəticəsində üç nəfərə – xınzirəkli Arsen Dadaniyevə, Ballıcalılı (Şuşa qəzası – H.A.) Baxşı Musaelova və irəvanlı Surenə ölüm hökmünü icra etmək həvalə edilmişdir».

Başqa bir arxiv sənədində göstərilir ki, 1905-ci il martın 5-də Zəngəzur qəzasının 1-ci polis sahəsinin sakinləri Yelizavetpol qubernatoruna məktub göndəriblər. Müraciətdə qeyd edilirdi ki, hələ 1903-cü ildə polis məmuru erməni Baqrat Əsilov 1-ci sahəyə rəis təyin edildikdən sonra bacanağı – qarakilsəli Vağarşak Safrazbəyovun fitnəsi ilə erməni və azərbaycanlı əhalisi bir-birlərinə qarşı düşmən kəsilmişdilər. Qəza rəisi R.Pfelerin səyi ilə Əsilov 1-ci sahədən uzaqlaşdırılsa da, 1905-ci ilin fevralında Bakıda qırğınlar başlanandan dərhal sonra Əsilov yenidən 1-ci polis sahəsinə gəlmiş, erməniləri qızışdıraraq söyləmişdir ki, iki millət arasında böyük iğtişaşlar gözlənilir. Əsilovun fəaliyyətinin qəzada tezliklə qırğınlara səbəb olacağından və bunun qarşısını hökumətin ala bilməyəcəyindən ehtiyatlanan yerli əhali qubernatordan təcili tədbirlər görməyi xahiş etmişdi.



**51. Ermənilərin Zəngəzurda müsəlmanlara qarşı ilk açıq hücumları nə zaman başladı?**

1905-ci il sentyabrın 22-də Xoznavar və Xnaçax erməniləri ətraf kəndlərdən gələn silahlı dəstələrin köməyi ilə türk kəndlərinə hücum edərək Bayandurda 50, Şələkdə 35, Kosalarda 25, Malıbəylidə 50, Cağazurda 40, Çaylıda 10, Kalavalaxda 25, Novruzluda 15 evi sakinləri ilə birlikdə yandırıb dağıtmışdılar. Birinci üç kənd isə tamamilə qarət edilmişdi.

«Kaspi» qəzeti 5 noyabr 1905-ci il tarixli sayında «Kavkaz» qəzetinə istinadən yazırdı ki, «Yelizavetpolun müvəqqəti qubernatoru oktyabrın 27-də Gorusdan Qafqaz canişininə aşağıdakı məzmunda teleqram göndərmişdir: «Oktyabrın 16-dan isə müxtəlif yerlərdən gəlmələrdən və fərarilərdən ibarət olan erməni bandası Zəngəzur qəzasından Qaryagin qəzasına keçdikdən və dağlıq erməni kəndləri olan Zamzur, Daşbaşı, Cilan və digər kəndlərin sakinləri ilə birlikdə tatar kəndləri olan Aşıqməlikli və Tararlı kəndlərinə hücumları nəticəsində 8 tatar öldürülmüş, meyitlərin başları bədənlərindən qoparılmış, bəzilərinin sağ əli və sağ qulaqları kəsilmişdir. Meyitlər elə eybəcər hala salınmışdır ki, bütün bunlar şəriət qaydalarına görə Qaryagin qəzasının müsəlmanları arasında çaxnaşma yaratmışdır. Qətllərin bütün iştirakçıları təhvil verilənədək təqsirkar erməni kəndlərində cərimə kəsilmişdir.




Həmin ilin sonlarında - dekabrın 17-də erməni silahlı dəstələri 102 evdən ibarət Böyük Cicimli və 26 evdən ibarət Kiçik Cicimli kəndlərinə hücum edirlər. Kiçik Cicimli tamamilə darmadağın edilir, Böyük Cicimli kəndinin əhalisi qaçmağa müvəffəq olsa da, evləri talan, qarət edilir. Hətta, erməni müəllifi A-do özü ermənilərin bu hərəkətini "vəhşilik" adlandırır.

**52. «Sisian kəndinin əhvalatı» bölməsində erməni-müsəlman davası necə təsvir edilib?**




1905-ci il mayın 22-də Ərəfsə kəndindən Seyid Adıgözəl yoxa çıxır. Bu hadisə Sisian kəndinin 200 evdən ibarət azərbaycanlılar daha çox həyəcanlandırır. Sisian kəndi Ağkənd, Əlili, Təzəkənd və Dulus kəndlərinin əhatəsində yerləşirdi. Noyabrın 23-də Sisianlılar Təzəkənd kəndini iki tərəfdən mühasirəyə alırlar. Üç gündən sonra Sisianlıların Comərdli və digər türk kəndlərinin köməyi ilə Təzəkəndə hücumları baş tutur. Noyabrın 26-da ətrafındakı erməni kəndlərindən Təzəkəndə gələn ermənilər Sisian üzərinə birgə hücuma keçirlər. Azərbaycanlılar çoxlu itki verdikdən sonra kəndin ortasındakı təpənin üstündə yerləşən köhnə qalanın qalıqları arasına çəkilirlər. Ermənilər 50-yə qədər evi yandırıb, kəndin mal-qarasını özləri ilə aparırlar. Əsgərlərin kəndə gəlib yetişməsindən sonra silah gücünə Sisian ermənilərdən təmizlənir. Sisianlılardan 50-dən çox ölən və

yaralanan olur. Ermənilərdən 5 nəfər öldürülür. Bu münaqişədən sonra bölgədə bir müddət sakitlik hökm sürür.

«Sisian kəndinin əhvalatı» bölməsində həmin hadisələri belə təsvir edir: «Ermənilər böyük və qüvvətli dəstə yaradaraq müsəlmanların yaşadıqları Sisian kəndinə hücum etdilər. Kənd sakinlərinin silahları və patronları az olduğuna görə döyüş onlar üçün ağır keçdi. Erməni quldurları kənd əhalisindən 20 nəfərini öldürdü, xeyli insan isə yaralandı. Müsəlmanlar az olsa da, bu şəhidlərin əvəzini çıxdılar. Bir neçə saat atışmadan sonra ermənilər geri qayıtdılar. Həmin günün səhəri Sisian kəndinin əhalisindən bir neçə nəfər Qalaya-Şuşaya gələrək imkanları daxilində tüfəng və patronlar alıb kəndə gətirdilər. Bununla yanaşı, onlar Sisian kəndinin ətrafında yerləşən müsəlman kəndlərinə müraciət edib kömək istədilər. Sisiana ətraf kəndlərdən kömək gəldikdən sonra ermənilər yaşayan Dərəbas kəndinin azərbaycanlıları kəndi tərk etmişdilər. Onlar kəndi hər tərəfdən mühasirəyə alaraq kəndin içinə doldular. Kənd əhalisindən olan kişiləri qətlə yetirdilər. Müsəlmanlar kənddə olan övrət-uşaqlarla işləri olmayıb onları döyüş meydanından kənara çıxarırdılar. Müsəlman igidləri Dərəbas kəndində öz əməliyyatlarını başa çatdırdıqdan sonra geri qayıtdılar. Səhəri gün isə Lor kəndinin üstünə yeridilər. Bu kənddə də ermənilərə qüvvətli zərbələr endirərək böyük qənimətlə Sisiana qayıtdılar. Bu qaynaq sübut edir ki, Zəngəzur igidləri dinc müsəlman əhalisinin canı və malını mühafizə etmək üçün əllərindən gələnləri etməyə çalışırdılar.



O dövrdə Sisiandan Gorusa gedən yol Ağudi və Vağudi kəndlərindən keçirdi. Ətraf kəndlərdə yaşayan ermənilər Gorusa

getmək üçün ya Ağudi və Vağudinin ərazisindən keçməli, ya da yollarını dəyişib dağlar və dərələrlə getməli idilər. Ona görə də ermənilər Ağudi və Vağudi kəndlərini dağıtmağı qərara almışdılar. A-donun yazdığına görə, dekabrın 25-də böyük bir erməni silahlı dəstəsi Ağudi üzərinə hücuma keçir. Ağudililər böyük itki verərək Vağudi kəndinə çəkilirlər. Kənddə qalanların bir hissəsi isə məsciddə gizlənmişdi. Hücum edən ermənilərin bir hissəsi kəndin girəcəyindəki mövqelərdə qalmış, digər hissəsi isə kəndə soxulmuş, evləri yandırıb dağıtmağa başlamışdı. Bu zaman Şəki kəndinin sakinləri köməyə çatırlar və döyüşün gedişi dəyişir. Bundan sonra ətrafdakı azərbaycanlı kəndlərindən, eləcə də Dərəbasdan köməyə gəlirlər. Kəndə hücum edən ermənilər mühasirəyə düşürlər və onlar geri çəkilmək məcburiyyətində qalırlar. Bu hücum zamanı ağudililər 60 nəfərdən çox, ermənilər isə 22 nəfər itki verirlər.

M.M.Nəvvab ermənilərin Sisian kəndinin ardınca Vağudi kəndində törətdikləri vəhşilikləri belə təsvir edir: *«Yaxşı silahlanmış bu erməni dəstəsi Stepan Stepanyans adlı bir qımdatın rəhbərliyi altında atlanaraq Vağudi müsəlman kəndinə hücum etdilər. Vağudi kəndi Sisian mahalında yerləşirdi. Orada yaşayanların hamısı müsəlman idi. Erməni dəstəsi kəndi mühasirəyə alırlar. Qabaqcadan hazırlıq görərək silah və patron tədarük etmiş və gizli yerlərdə səngərlər düzəltmiş Vağudi kəndinin əhalisi tez bir zamanda silahlanaraq səngərlərə, damların, daşların dibində müdafiə üçün hazırlanmış mövqelərə girərək erməniləri hər tərəfdən atəşə tutmağa başladılar. Birinci atışmada müsəlman igidləri əlli nəfərdən çox erməni vurub yıxdılar. İkinci atışmada isə ölən ermənilərin sayı yetmişdən çox idi. Üçüncü dəfə onlar «Ya Allah», «Ya Əli, səndən mədəd» deyib, daha şiddətli atəş açmağa başladılar və yüz nəfərəcən erməni öldürdülər. Ermənilərə rəhbərlik edən Stepan Stepanyans adlı qımdat karıxıb bilmirdi ki, nə etsin. Bu zaman müsəlmanların atəşindən üç güllə ona dəyib yerə sərdi. Ermənilər öz başçılarının yerə yıxılaraq çapaladığını görən kimi qaçmağa başladılar. Müsəlmanların tə-*

*qib etdiyi ermənilərin bir hissəsi Stepanyans vurulan yerə gəldilər. Gördülər ki, hələ ölməyib. O, əlindəki tüfəngi götürüb daşa çırpdı ki, müsəlmanlara qismət olmasın. Tüfəngin qundağı sınsa da, özü salamat qaldı. Sonra da əli titrəyə-titrəyə qoynundan bir dəstə əskinas çıxarıb dişi ilə parça-parça etdikdən sonra yıxılıb öldü. İrəli gəlib gördülər ki, həmin əskinaslar yüz manatlıq pullar imiş. Təxmin etdilər ki, onun üstündə bir neçə min manat pul var imiş. Belində də bir onaçılan qəribə tapança var idi. Deyilənə görə, onun qoltuğundan bir kağız da çıxıb. O kağızda bu sözlər yazılıbmış: «Qafqaz ermənilərinin qubernatoru Stepanyans». Xülasə, ermənilər öz yaralılarını da götürüb getdilər.*




*Bu vuruşmada ermənilər tərəfdən 400 nəfərin öldürüldüyü təxmin edildi».*

**53. M.S.Ordubadi «Qanlı illər» əsərində Zəngəzur qırğınlarını necə təsvir edirdi?**






Erməni terrorçu siyasi partiyalarının əsas məqsədlərini M.S.Ordubadi «Qanlı illər» əsərində kifayət qədər dəqiqliklə belə ifadə etmişdir: *«İrəvandan Naxçıvana qədər yol üstündə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır*

*olan əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvələri birləşdirmək kimi alçaq xəyallardan ibarət idi".*

«Qanlı illər»də 1906-cı ildə Zəngəzur qəzasının 5-ci sahəsində ermənilərin törətdikləri qırğınlar haqqında müfəssəl məlumat verir. Erməni komandirləri Qatardakı ehtiyat hissələrini və ətraf erməni kəndlərindəki silahlıları da cəlb edərək avqustun 14-də Oxçu-Şəbadin kəndlərini işğal edirlər. Silah-sursatı tükənən azərbaycanlılar Saqqarsu dağına çəkilirlər. Kəndi tərk edə bilməyənlərin hamısını ermənilər qətlə yetirib bir-birlərinin üstünə qalaqlamışdılar. Tək-tək sağ qalanlar çıl-çılpaq Ordubada və Cəbrayıl qəzasının kəndlərinə pənah aparmışdılar. Bu qanlı cinayətin təsvirindən aydın olur ki, XX əsrin sonlarında Xocalıda törədilən soyqırımının analoqu həmin əsrin əvvəllərində Saqqarsuda törədilmişdir. Ordubaddan Yelizavetpol qubernatoruna vurulan yüzlərlə teleqramdan sonra general-qubernator Ordubada bir rota draqun süvarisi göndərir. Saqqarsuda toplaşan 800 nəfərə yaxın ordubadlı könüllülərin də köməyi və 1000 nəfərə yaxın Oxçu-Şəbədək silahlılarının iştirakı ilə sentyabrın 16-17-də Oxçu-Şəbədək kəndləri ermənilərin işğalından azad edilir. Sağ qalan əhalinin yenidən öz kəndlərinə qaytarılması prosesi başlanır. Ordubad tərəfdən gələn silahlı dəstələrdən ağır zərbə alan ermənilər qırğınlara ara verməyə məcbur olmuşdular.

**54. 1906-1906-cı illərdə Zəngəzurda erməni talanlarının statistikası necə göstərilib?**

Erməni müəllifi Martirosyan "1905-1906-cı illərdə Qafqazda türk-erməni toqquşmaları kitabı"nda Zəngəzurun 409 kəndindən yalnız 92-də ermənilərin yaşadığını qeyd edib. S.Zavaryanın verdiyi məlumata görə, 1905-1906-cı illərdə Zəngəzur qəzasında 43 müsəlman, 14 erməni kəndi dağıdılmışdı.




Erməni A-do dağıntılara məruz qoyulmuş aşağıdakı 43 azərbaycanlı kəndinin adlarını çəkir: Bayandur, Hələk, Binəyeri, Kosalar, Malıbəyli, Cağazur, Çaylı, Kalavalax, Novruzlu, Cecimli, Hacılar, Bağırbəyli, Qarahunc, Unanav, Kürdlər, Ağvani, Danzaver (Armudlu), Sisian, Ağdü, Dərəbas, Pul, Ərikli, Şükar, Məliklər, Yeməzli, Xəştap, Almalı, Karxana, Qatar, Cibilli, Xələc, Keçi-Şabadin, İncəvar, Çullu, Oxçu, Atqız, Pirdavdan, Əclıli, Buğaçıq, Kollu-Qışlaq və b.

Digər tarixi qaynaqlardan məlum olur ki, qanlı-qadalı 1905-1906-cı illər ərəfəsində Zəngəzur qəzasında mövcud olmuş 406 yaşayış məntəqəsindən 314-də azərbaycanlılar yaşamışlar.

Ümumiyyətlə, 1905-1906-cı illər erməni-müsəlman iğtişaşları nəticəsində İrəvan və Yelizavetpol quberniyaları ərazisində 200-dən artıq azərbaycanlı yaşayış məntəqəsi viran edilmiş, əhalisi soyqırımına məruz qalmışdır.

1917-1920-ci illərdə Zəngəzurun türk əhalisi ikinci dəfə soyqırımı və deportasiya ilə üzləşmişdi. Lakin 1905-1906-cı illərdən fərqli olaraq, bu dəfə onların əksəriyyətinə öz doğma yerlərinə qayıtmaq müyəssər olmamışdı.

Qəza rəisi M.Namazəliyevin 30 oktyabr 1918-ci il tarixli raportundan isə bəlli olur ki, 1917-ci ilin dekabrı – 1918-ci ili avqustu arasındakı müddətdə təkcə Zəngəzur qəzasının I sahəsində 16 kənd dağıdılmış, 708 nəfər məhv edilmiş, 47 mln 390 min rubl məbləğində maddi ziyan vurulmuşdu. Sisian mahalının I polis sahəsinin bütün müsəlman kəndləri, II sahənin kəndlərinin əksər hissəsi, III, IV, V sahələrin mühüm hissələri tamamilə məhv edilmiş, kəndlər yerlə-yeksan edilmiş, ermənilər tərəfindən əkin sahələrinə çevrilmişdi. 50.000 nəfərdən müsəlman öz yurd-yuvalarından qaçqın düşərək 4-cü sahədə və qonşu Cəbrayıl qəzasında yerləşmişdi.

## 55. 1908-1920-ci illərdə Zəngəzur əhalisinin etnik tərkibi necə idi?

1905-1906-cı illərdə Zəngəzurda müsəlman əhaliyə qarşı törədilmiş qanunsuzluqlardan sonra bir çox kəndlərin müsəlman əhalisi qaçqın düşsə də, onların əksəriyyəti bir müddətdən sonra doğma yurdlarına geri qayıtmış, öz həyatlarını yenidən qurmağa müvəffəq olmuşdular.

1908-ci ildə Yelizavetpol quberniyası üzrə əhalinin siyahıyaalınması sənədlərində Zəngəzur qəzası əhalisinin 294 min 753 nəfər olduğu göstərilir. Bunlardan 197 mini (67%) müsəlman, 97 mini (32,9%) erməni idi. Professor İ.Musayevin hesablamalarına görə, 1917-ci ildə Zəngəzur qəzasında azərbaycanlılar 123085 nəfər (55 faiz), ermənilər isə 99257- 44,3 faiz təşkil edirdi.

## 56. I Dünya müharibəsinin yekunlarının Zəngəzurun itirilməsinə təsiri necə oldu?

Zəngəzur, həm də İrəvanın itirilməsinin əsas səbəbi, başlıca amili XX əsrin əvvəllərində iki böyük hərbi-siyasi güc mərkəzinin Antanta və Üçlər İttifaqının bölüşdürülmüş dünyanı yenidən bölüşdürmək uğrunda mübarizəsinin nəticələrinə bağlı idi.

I Dünya savaşı dünyada, Avrasiyada olduğu kimi, Cənubi Qafqazda da ciddi təbəddülatlara gətirib çıxardı. Rusiyanın Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra, Fevral burjua inqilabı və Rusiyada çar hökuməti devriləndən bolşevik Rusiyasının 1920-ci il aprelin 28-də Azərbaycana bolşevik qiyafəsində gəlişinə qədər Qafqazda cərəyan edən bütün proseslərdə ingilislər əsas ssenari müəllifi, rejissor və baş rolun ifaçısı idilər.




Müharibənin qalibi olan koalisiya qüvvələrinin-ingilis, fransız, italyan hərbçi və diplomatlarının təlimatı ilə hazırlanıb qarşıya qoyulan məqsəd Rusiyanı Qafqazdan çıxarıb yenicə müstəqilliklərini elan etmiş 3 respublikanı Antantanın nüfuz dairəsinə daxil etmək, Bakı neftinə sahiblənmək, Naxçıvanla Şuşa arasında yaşayan müsəlman əhalini qırıb, bu əraziləri boşaldıb yeni yaradılacaq xristian Ermənistan Respublikasına qatılmasına maneəsiz zəmin hazırlamaq, Zəngəzur və Qarabağdakı erməni qoşunlarını birləşdirib Gəncəyə hücum etmək, Azərbaycan Milli Şurasını - Azərbaycan Xalq Cümhuriyyətini beşikdəcə boğmaq, Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun hərbi yardımı gəlib çatanadək Cənubi Qafqazın türklər yaşayan torpaqlarında ermənilər üçün müstəqil dövlət yaratmaq planını gerçəkləşdirmək idi.

**57. İngilislərin “erməni məsələsi” planları ilə Zəngəzurun ermənilərə verilməsi arasında hansı əlaqə var idi?**

Antitürk düşüncələri ilə məşhur olan İngiltərə baş naziri V.Qladstonun planı ilə İngiltərə Rusiya və Fransa ilə birlikdə 1895-ci il mayın 11-də İstanbula bir memorandum təqdim edərək 6 vilayət – Ərzurum, Bitlis, Van, Sivas, Diyarbəkir və Harput – üçün islahat layihəsini təqdim etmiş, faktiki olaraq bu vilayətlərdən ibarət “Müstəqil Ermənistan” yaratmağı planlamışdı. İngiltərə hökuməti Osmanlıdan Ermənistanın gələcəyi ilə bağlı öhdəliklər tələb etmişdilər. İngiltərənin Hərbi Şurası özünün 7 dekabr 1917-ci il tarixli iclasında ermənilərə maliyyə dəstəyi verilməsi haqqında qərar qəbul etdi, ayrılan yardım 20 milyon sterlinq idi. 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində İngiltərə tərəfindən Tehrandan Bakıya, oradan da ermənilərə verilməsi üçün Tiflisə külli miqdarda qızıl və pul, silah və sursatlar da göndərildi. Bu yardımlar Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: “*Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökməsi üçün faydalanmaq olar”*. İngilislərin bu dəstəyi sayəsində hərəkət qabiliyyətlərini artıran, külli miqdarda silah və sursat əldə edən ermənilər Cənubi Azərbaycanda və Cənubi Qafqazda on minlərlə insanı qətlə yetirdilər. İngilislərin Azərbaycana gəlişinin səbəbi təkcə iqtisadi maraqlarla bağlı deyildi, həm də Türkiyənin türk dünyası ilə əlaqəsini kəsmək idi. Bu planın gerçəkləşməsi üçün yeganə ən uyğun vasitə isə ermənilər idi. İngilislərin məşhur diplomatlarından Lord Kerzonun ifadələri olduqca dəqiqdir: *“Türkiyə ilə türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni “Erməni dövləti” təzahüründə xristian bir topluluğun meydana*

*gətirilməsi vacibdir”*. Erməni dövlətinin Türkiyə ilə Azərbaycan arasında, Naxçıvan, İrəvan və Zəngəzuru da əhatə edən bir bölgədə qurulması və sərhədlərinin rəsmən müəyyənləşdirilməsi məsələsi İngiltərənin planları çərçivəsində idi. İngilislər Türkiyəyə meyilli olan Azərbaycana inanmadıqlarından məhz Ermənistana etimad edir və Türkiyənin Transqafqaza olan qapısını əbədilik bağlamaq üçün Naxçıvanı ermənilərə verməyə çalışırdılar. Bütün bunları ümumiləşdirərək belə bir nəticəyə gəlmək mümkündür ki, İngiltərə özünün ekspansionist siyasətini həyata keçirərkən Londonda tərtib olunmuş ssenari üzrə hərəkət edən daşnaklardan istifadə etmiş, hər vəchlə Ermənistanın Antantaya öz ərazisini, habelə hərbi və iqtisadi potensialını verməyə hazır olan daşnak rəhbərlərini dəstəkləmiş, faktiki olaraq Ermənistanı Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar hərəkətlərə təşviq etmişdir. Fransız tədqiqatçısı Jorj de Malevil “1915-ci il erməni tragediyası” adlı əsərində erməni dövlətinin qurulmasının da Antanta dövlətləri, xüsusilə İngiltərənin yardımı sayəsində gerçəkləşdiyini qeyd etmişdir: *“İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulub qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi”.*

1918-ci il sentyabrın 4-də Zəngəzura daxil olaraq, qəzada törədilən qırğınlarda xüsusi amansızlığı ilə seçilən mütəşəkkil ordu hissəsinin komandanı Andranik hər yerdə onu da deyirdi ki, müsəlmanları qırmaq əmrini ona ingilislər verib.

ABŞ prezidenti V.Vilsonun ermənilərə şəxsi mərhəm münasibəti də hadisələrdə mühüm rol oynayırdı. *«Daşnak ordusu Amerika çörəyi yeyirdi. ABŞ Ermənistana 50 min, İngiltərə 40 min, Fransa 30 min əsgər üçün geyim, ərzaq, hərbi sursat, 10 milyon patron vermişdi.»*

İngiltərənin iradəsi olmasaydı, hazırkı Ermənistan dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi.

Özünü “Zəngəzur quberatoru” (əslində cəlladı) elan etmiş Andranik Toros Ozanyanın (Antranig Paşa Անդրանիկ Թորոսի

Oquանեան, 25 Şubat 1865 - 31 Ağustos 1927) şərəfsiz tərcümeyi-halında rus, Fransa “möhürü” də var; Osmanlı ermənisi, terrorbaşı, rus ordusunda erməni könüllü birliklərinin komandanı, erməni inqilabi federasiyası – daşnak partiyasının üzvü Osmanlıya qarşı savaşlarda müttəfiqlərlə mühüm yardımlardan dolayı Fransa Prezidenti Raymond Poincare tərəfindən “Légion d'Honneur” medalı ilə təltif edilmişdi.

**58. Tomsonun İrəvandakı çıxışında Zəngəzurla bağlı nə demişdi?**



Azərbaycandan qoparılıb Ermənistana veriləcək torpaqların sərhədlərini də Tiflisdə qərar tutmuş Qafqazdakı ABŞ, Böyük Britaniya, İtaliya, Fransadan ibarət Müttəfiqlər cızmışdılar. Bu missiyanın başçısı general Tomsonun bütün hərəkətləri, Ermənistan hökumətinin rəhbərləri Xatisov və Tiqranyanla dialoqları da çox mətləblərdən xəbər verir.

Böyük Britaniya və Müttəfiqlərin Qafqazdakı diplomatik nümayəndəliyinin faktiki rəhbəri general Tomson 1919-cu il martın 28-də Yerevanda Ermənistan hökumətinin iclasında çıxışında demişdi: *«...Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə ediləcək... Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur Dərələyəz-Sürməlini tuta bilər... Azərbaycan ordusu indi durduğu yerdən - Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək... Azərbaycan hökumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, Daxili İşlər Nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik erməni süvari dəstəsinin Şuşa, Xankəndi, Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Monk Mezon mənə məlumat vermişdir ki,*

*Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağ-salamat keçməsi üçün bütün tədbirləri görmüşdür... Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir».*

Tomson Ermənistan hökumətinin rəhbərlərinə 5 milyon ədəd patron və pul da göndəriləcəyini də vəd etmiş, vədini də yerinə yetirmişdir.

General Tomsonun nümayəndəsi Hibbon 1919-cu il yanvarın 7-də Teymur Müskanlı kəndininin sakinləri ilə görüşdə Andronikin artıq Zəngəzur ərazisinin 5/4-nü ələ keçirdiyini bildirərək onun bölgədən çıxarılmasının mümkünsüzlüyünü bildirmişdi.

**59. Osmanlı dövlətinin Azərbaycana xəyanəti, ya tarixi məcburiyyət?**




1918-ci ilin 27-28 mayında erməni və Azərbaycanın milli şuraları Tiflisdə müstəqillik bəyannamələri qəbul etdikdən dərhal sonra Ermənistan Milli Şurasının rəhbərləri Azərbaycan Milli Şurasına müraciət edərək Aleksandropolun (Gümrünün – H.A.) türk ordusu tərəfindən tutulduğunu qeyd edir və İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi məsələsini müzakirə etməyi təklif edirlər. Baş nazir Fətəlixan Xoyskinin hər iki respublikanın və Milli Şuranın elan olunduğu günün səhərisi Ermənistan hökuməti başçısının məktubuna verdiyi cavabla bağlı onun AXC-nin xarici işlər naziri M.Hacinskiyə 1918-ci ilin mayın 29-da göndərdiyi məktubunda yazırdı: *"Biz ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatumumuzu qəbul*



*edəcəklər və müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərə güzəştə getdik".*

Tərbiyə, humanizm, insanlıq, təmiz əxlaq mücəssəməsi olan AXC liderlərinin erməni məkrinə belə sadəlövhlüklə inanması, belə aldanışları sonralar da dəfələrlə təkrar olundu, davam etdi. Ermənilər heç mürəkkəbi qurumadan Batumdə imzaladıqları müqavilələrin bütün bəndlərini pozdular, inadkar, iyrənc hərəkətlərini daha çirkin həyasızlıqla davam etdirdilər. Batum danışıqlarının lap başlanğıcındaca, həqiqətən də, Osmanlı Türkiyəsi «erməni təhlükəsini» özündən uzaqlaşdırmaq üçün gələcək erməni dövlətinin Azərbaycan ərazisində yaradılması siyasətini yeritdiyi məlum oldu.

Bununla bağlı olaraq, Batum konfransında aparılan danışıqların gedişi barədə danışıqlarda iştirak edən Azərbaycan nümayəndə heyətinin üzvü Nəsib bəy Usubbəyov Zaqafqaziya seyminin sabiq üzvlərinin 27 may 1918-ci il tarixli fövqəladə iclasında məlumat verdi. Batumdan yenicə qayıdan Nəsib bəy Usubbəyov fövqəladə iclas iştirakçılarına bildirdi ki, *«Türkiyə nümayəndə heyətinin fikrinə görə Zaqafqaziyanın tərəqqisi üçün ən başlıca təminat Zaqafqaziya xalqlarının həmrəyliyi və birliyidir ki, buna nail olmaq üçün Azərbaycan tərəfi ermənilərə müəyyən qədər ərazi güzəştə getməlidir».*

## 60. Ermənilərin Batum sazişində yerinə yetirmədikləri öhdəlikləri hansılar idi?



İrəvan mərkəz olmaqla ətraf Azərbaycan ərazisində erməni dövlətinin yaradılması müqabilində erməni tərəfı Azərbaycan və Osmanlı imperatorluğu qarşısında bir sıra öhdəliklər götürdü. Bunlar Osmanlı imperatorluğu ilə yeni yaradılan Ermənistan Respublikası arasında Batumda imzalanan 30-31 may və 4 iyun 1918-ci il tarixli protokol və müqavilələrdə təsbit edildi:

1. Ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi Stepan Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsizliyini təmin edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır. Erməni tərəfinin üzərinə götürdüyü bu öhdəlik Osmanlı imperiyası ilə yenicə yaradılmış Ermənistan Respublikası arasında 1918-ci il iyunun 4-də Batumda bağlanmış «Sülh və Dostluq» müqaviləsində təsbit olundu. Batum müqaviləsinin 11-ci maddəsinə əsasən Ermənistan Respublikası hökuməti erməni silahlı qüvvələrinin ən tez bir zamanda Bakıdan çıxarılması üçün bütün qüvvələrini səfərbər edəcəyini öhdəsinə götürdü.

2. Erməni tərəfi öhdəsinə götürdü ki, Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır.

3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət,

mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməyi öhdəsinə götürdü.

4. Batum danışıqları zamanı əldə olunmuş razılığa əsasən ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəkdilər.

5. Bundan başqa, İrəvan və ətrafındakı torpaqların verilməsi müqabilində ermənilər Azərbaycanla vahid konfederativ dövlətdə birləşməli idilər.

Lakin İrəvanı və digər əraziləri alandan sonra ermənilər öhdəliklərindən imtina etdilər və Azərbaycan torpaqlarının işğalı prosesini davam etdirdilər.

## 61. Zəngəzur qırğınları Fövqəladə Təhqiqat Komissiyasının [FTK] sənədlərində necə əks olunub?




Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının [FTK] topladığı 36 cildlik istintaq materiallarının 3500 səhifəlik 2 cildi - təqribən 80 səhifəsi Zəngəzur qəzasındakı qətliamları özündə ehtiva edir.

FTK-nın topladığı məlumatlara görə, qəzada 7729 nəfər (3257 kişi, 2276 qadın, 2196 uşaq) qətlə yetirilmiş, 2339 nəfər (1060



kişi, 794 qadın və 485 uşaq) yaralanmışdı. Ölü və yaralı sayı 10068 nəfər idi.

Zəngəzurun 1574 tüstüdən ibarət 32 kəndinin 2254 sakini (1826 kişi, 275 qadın, 153 uşaq) xüsusi amansızlıqla qətl edilmiş, 304 nəfər diri-diri yandırılmışdı.

Xeyli kəndlər barədə ayrıca faktlar toplanmışdı; Vağudi kəndində 450, Ağudidə 325, Teydə 135, Şabadində 110 nəfər öldürülmüşdü.

Andronikin başçılığı ilə erməni quldurları Urud, Darabas, Ağadu, Vağudi, Arıqlı, Şukər, Məlikli, Pulkənd, Şəki, Qızılcıq, İrmis, Pəhlili, Kürdlər, Xotanan, Sisian, Zabazadur, Çullu, Bağırbəyli, Müsəlmanlar, Qatar və digər kəndlərini dağıdaraq 500 nəfəri qətl etmişdi.

Məhv edilən 115 kəndin 50 mindən çox sakini qaçqın düşmüşdü.

Materiallarda şahid ifadələrinə əsaslanan 20 tükürpədən qəddarlıq faktı da öz əksini tapmışdı. Lakin erməni vəhşiliklərinin sayı o qədər çox idi ki, onların hamısını toplayıb sənədləşdirmək mümkün olmamışdı.

## 62. Vağudi, Şəki faciələrinin dəhşətli statistikası necə idi?

Ermənilər 1918-ci ilin iyununda Vağudi kəndinə hücum zamanı 400 müsəlman məscidə sığınmışdı, ermənilər məscidin qapısını kəsərək, əvvəlcə içəriyə əl qumbaraları atmış, sonra isə məscidi insanlarla birgə yandırmışlar. Sakinlərin bütün əmlakını, mal-qarasını çapıb-talamış, 250 kişi, 100 qadın, 100 uşaq öldürmüş, 20 kişi, 10 qadın, 9 uşaq yaralamış, 90 ev və tikilini yandırmış, 60-nı dağıtmışdı.

Kəndin 15 qızı törədilən qansızlığa dözməyərək özlərini öldürmüşdülər.

Nüvədi kəndində ermənilər yataq xəstələrini süngüləyərək öldürmüş, uşaq və qadınların başlarını kəsmişdilər. Ermənilər insanlığa sığmayan bu vəhşilikləri Zəngəzurun Şəki, İmişli, Ağudi, Çullu, Bağırbəyli, Müsəlmanlar, Qatar və digər kəndlərinin günahsız sakinlərinə qarşı da törətmişdilər. Ağkəndə girən ermənilər evləri yandıraraq külə döndərmiş, qaçan sakinlərə çataraq 65-ni öldürmüş, 4-nü yaralamışdılar. Birinci və İkinci Vartanəzir kəndlərinə erməni quldurlarının basqını nəticəsində 384 sakin öldürülmüş, 30-u yaralanmışdı.

Qəzanın ən böyük azərbaycanlı-türk kəndlərindən olan 380 tüstülük Şəkidə erməni cəlladları qəddar vəhşiliyi həyata keçirmiş, kəndin 140 kişi, 160 qadın, 200 uşaq - cəmi 500 nəfəri qətl edilmiş, 80 kişi, 56 qadın, 10 uşaq isə yaralanmışdı.

## 63. Oxçu qətliamı necə törədildi?

1919-cu il noyabrın 19-da qaniçən erməni başkəsənlərindən biri – Hamazasp 40 süvari və 200 piyada əsgərlə Oxçu kəndinə gələrək onu mühasirəyə almışdı. Kənd əhalisi onları duz-çöræklə qarşılamış, yemək vermişdi. Hamazasp çörəyə əl basaraq, müsəlmanların Ermənistan hökumətinə sədaqətlə xidmət edəcəklərinə and içəcəkləri təqdirdə ermənilərin onlara yaxşı münasibət göstərəcəklərinə söz vermişdi. Günorta namazı üçün



məscidə ibadətə getmək məqsədilə meydana toplaşan bütün kişilərə qəflətən hücum edən erməni quldurlar onların əksəriyyətini qətlə yetirmiş, sağ qalmış və yaralanmış müsəlmanları süngülərlə dəlik-deşik etmişdilər. Bütün bunların şahidi olmuş Allahverdi adlı birisinə ermənilər bu dəhşətli mənzərəni göstərib bilərəkdən onu sağ buraxmışdılar ki, o, müsəlman kəndlərinə gedib erməni hakimiyyətini tanımayan müsəlmanlara onları da belə tale gözlədiyini söyləsin. Sonra isə vəhşilər bütün uşaqları və qadınları bir yerə yığıb, onların başına, sənəddə göstərildiyi kimi, – hətta vəhşi xalqların tarixində belə görünməmiş müsibətlər gətirmişdilər. Kəndin böyükdən kiçiyə 1400 sakini qılıncdan keçirilmişdi. Yalnız 12-13 nəfər kəndi əvvəlcədən tərk etdiklərinə görə labüd qətliamdan xilas olmuşdu. Pakizə adlı qadın ürək sarsıdan vəhşiliklərin təsiri altında əsəb sarsıntısı keçirmiş, tapança və qılıncla gözəl qadınları kəsib öldürməyə başlamışdı ki, onlar erməni vəhşilərinin əlinə keçməsinlər. Şəhrəbanu adlı qadın isə erməni əsgərlərin təndirə atdıqları uşaqlarını xilas etmək üçün özünü təndirə atmış və onlarla birgə diri-diri yanmışdı.

Ermənilər Pirdavdan, Şabadin və Atqız kəndlərinin əhalisini kütləvi şəkildə qıraraq, bu kəndləri yandırdılar. Şabadindən yalnız 8 kişi və 7 qadın xilas olmuşdu. Atqız kəndinin əhalisi erməni hücumlarından xəbər tutaraq qaçmağa nail olsa da, Ordubada çatanadək 167 uşaq və qadın yolda soyuqdan həlak olmuşdu. Beləliklə, Oxçu, Şabadin, Pirdavdan və Atqız kəndlərinin 4000 nəfərlik əhalisindən yalnız 262-sı sağ qalmış və onlar Ordubada pənah gətirə bilmişdilər.

Bu fakt Azərbaycan xarici işlər naziri F.X.Xoyskinin Ermənistan XİN-ə göndərdiyi 10 dekabr 1919-cu il tarixli teleqramında da eyni ilə təsvir edilib.

Bölgə əhalisi düşdükləri çox ağır vəziyyət barədə əvvəlcədən dəfələrlə Bakıya teleqramlar vurur, yardım üçün yalvarmışdılar: *«Biz Oxçu-Şabadin və Gığı dərəsi sakinləri hər tərəfdən ermənilərlə əhatə olunmuşuq, onların bütün əməlləri və rəftarları bizə hücum etməyə hazırlaşdıqlarını açıq şəkildə sübut edir, onların köməyinə nizami qüvvələr gəlib. Onların top və pulemyotları var. Biz çıxılmaz vəziyyətdəyik, biz qorxuruq. Sizin ayaqlarınıza düşüb mərhəmət diləyirik və bizi xilas etməyinizi xahiş edirik. Bizə güllə və pulemyotu olan bir neçə zabit göndərin. Əgər göndərməsəniz, xəbər verin ki, biz vaxtında öz kəndlərimizi tərk edək, yoxsa biz bilirik ki, xilas ola bilməyəcəyik».*

**64. Üzeyirbəy Hacıbəyli «Andronikin məsələsi» məqaləsində Hökumətdən nəyi tələb edirdi?**



Şuşa, Qarabağ, Azərbaycan sevdalısı Üzeyirbəy Hacıbəyli redaktoru olduğu Parlamentin rəsmi qəzeti olan "Azərbaycan"ın hər nömrəsində qanlı qırğınlardan yazırdı, Hökumətin, Parlamentin diqqətini Qarabağa yönəldirdi. O, «Andronikin məsələsi» məqaləsində yazırdı: *"başıpozuq generalın heç bir söz, nəsihət və xəbərdarlıqlara, hətta ingilis hərbi komandanı, general-mayor Tomsonun təhdidlərinə belə məhəl qoymadan müsəlman kəndlərini dağıtmasını, əhalisini qırmasını, özbaşınalığını şərh edir, yazırdı ki, «bir quldurun yanına «deleqat» göndərmək, onu kağız vasitəsilə quldurluqdan mən qılmaq və ya həddini bildirmək üçün teleqram vasitəsilə təhdid etmək nə hökumətimizin şəninə layiqdir, nə ingilis komandasının və bir də məşhur məsəldir ki, «Quran oxumaqla donuz darıdan çıxmaz», quldurların qabağına lazım olan qədər güc göndərmək istər ki,*

*dəstəsini də, özünü də dəstgir edib məhkəmə qarşısına gətirsin və cəzasına çatmaq üçün mühakiməyə verilsin».*

Ü.Hacıbəyli Qarabağda *«zülmü sitəmə məruz qalan müsəlmanları tezliklə xilas etməyi», «vaqeənin getdikcə böyüyüb əngəl olmağına imkan verməmək üçün»* Andronikin hərəkətlərini necə olursa-olsun dayandırmağı Hökumətdən tələb edirdi.

**65. Sultan bəy Sultanov kim idi və Zəngəzurda Andranikin ordusunu necə məhv etmişdi?**



Zəngəzurda ermənilərə qarşı mübarizədə Sultan bəy Sultanovun adı öndə gedir və onun rəhbərliyi ilə aparılmış silahlı mübarizə, döyüş öz nəticələrinə və tarixi əhəmiyyətinə görə Azərbaycan xalqının qəhrənlıq tarixində, xalqımızın hafizəsində silinməz iz qoyub.

Sultan bəy Əlipaşa bəyin oğlu 1871-ci ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında doğulub. Molla yanında oxuyub, mədrəsə təhsili alıb. Peterburqda ali hərbi məktəbdə millətçi rus müəllimləri ilə dəfələrlə sözləri çəp gəldiyindən təhsili yarımçıq ataraq vətənə qayıdıb, yeni müasir üsullarla heyvandarlıq məhsulları istehsalı ilə məşğul olan fermalar qurub.

Osmanlı generalı Andranik Ozonyan 1918-ci il sentyabrın 4-də Naxçıvandan 10 minlik nizami qoşunla Zəngəzura girdi, uşaq, qoca, qadın demədən ucdantutma qıraraq kəndləri yağmalayır, məhv edirdi. Onun Şaumyanla da razılaşdırılmış məqsədi Laçından Şuşaya keçib ordakı hərbi qüvvələrlə birləşmək, Gəncəyə hücum edib Azərbaycan Milli Şurasını məhv etmək idi. Sultan bəy Laçının Zabux dərəsindəki döyüşlərdə Andronikin ordusunu darmadağın etmiş, Qaragöl ətrafında toplanan çoxsaylı erməni silahlılarını məğlubiyyətə uğradaraq 600 nəfəri əsir götürmüş, Zəngəzurda onlarla kəndi də erməni silahlılarından

təmizləmişdi. Ermənilərin planları puça çıxmışdı. Bundan sonra Zabux dərəsi "Qanlı dərə" adlandırılmışdır. Türkiyədə və Azərbaycanda çoxlu sayda cinayətlər törətmiş, Türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmaq üstündə qulağı kəsilmiş erməni quldur dəstələrinin rəhbəri Andranik Ozanyan aldığı bu zərbədən sonra üzüqara Avropadakı ağalarının yanına getmişdi.

Sultan bəy və onun qardaşı - Azərbaycan Demokratik Respublikasının ilk hərbi naziri, ikinci hökumətdə əkinçilik naziri və Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanovun yalnız Zəngəzur və Qarabağın deyil, Dərələyəz, Basarkeçər və digər ərazilərimizin də erməni quldurlarından qorunmasında əvəzsiz xidmətləri olmuşdur.

Sultan bəyin atası Əlipaşa bəy Murad bəy 1905-06-cı il davasında igidliyi ilə şöhrət qazanmışdı. Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində Əlipaşa bəy Murad bəy oğlunun və dəstəsinin erməni quldurlarına qarşı apardıqları mübarizədən də geniş bəhs edib. Müəllif yazır: *"Piçənis müsəlman kəndindən və başqa müsəlman kəndlərindən 300 nəfərə qədər igidlər və qeyrətli cavanlar toplaşaraq Əlipaşa bəy Murad bəy oğlunun sərkərdəliyi ilə atlanıb, Minkəndin üzərinə yeridilər. 160 evdən ibarət olan kəndin yarısı müsəlman idi. Paşa bəyin dəstəsi ermənilərin bir qismini öldürdülər və yaraladılar, bir qismi isə qaçıb, dağıldılar. Bundan sonra onlar 200 evdən ibarət olan Xoznavar kəndinə hücum etdilər."*

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Sultan bəy bolşevik-daşnak birliyinə qarşı partizan savaşı aparır, yaralanır, təqib olunur, ətrafındakıların da həyatını qorumaq məqsədi ilə İrana keçir. Qardaşı İskəndər bəyin sovet imperyasının göndərdiyi xüsusi casuslar tərəfindən İranda öldürülməsindən sonra Türkiyəyə keçir. Xosrov bəylə qardaşı Sultan bəyin Türkiyədə əlaqələri qırılmayıb. Xosrov bəy qardaşı Sultan bəyin vəfatı ilə bağlı "Cümhuriyyət" qəzetinin 15 aprel 1942-ci il sayında öz adından (Dr.Xosrov Sultanlı) başsağlığı verən hər kəsə təşəkkürünü bildirib.



***

Azerbaycan Karabağ eşrafından kardeşim Sultan Beyin aramızdan ebediyen ayrılması üzerine gerek merhumun cenazesi merasiminde bulunmak ve gerekse telgraf, mektub göndermek ve ziyaretimizde bulunmak suretile taziyet eden dostlarımıza ve vatandaşlarımıza ayrı ayrı teşekkürde bulunmağa kederimiz müsaid olmadığından muhterem gazeten'zi tavsit ederiz.

Azerbaycanlı Dr. Hüsrev Sultanlı

Azərbaycanın istiqlalı və torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə misilsiz xidmətləri olmuş, öz adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazmış Xosrov bəy və Sultan bəy Sultanov qardaşlarının adlarının əbədiləşdirilməsi, onlara layiq olduqları qiymətin verilməsi hazırkı dövrdə böyük mənəvi əhəmiyyət kəsb edir.




Zəngəzur Cəmiyyətləri Birliyi 140 illik yubileyi ilə əlaqədar 2011-ci ili "Sultanbəy ili" elan etmiş, onun daşnak erməni ordusuna qarşı mübarizəsini əks etdirən ən yaxşı məqalə, əsərin müəyyən edilməsi üzrə respublika müsabiqəsi keçirmişdir. Professor Ziyadxan Nəbibəylinin "Sultan bəy və Xosrov bəy qardaşları" kitabı qalib sayılmış, Milli Məclisin üzvü, iqtisadiyyat üzrə fəlsəfə doktoru, Laçın torpağının yetiməsi Mahir Abbaszadənin maddi dəstəyi ilə nəfis tərtibatda nəşr edilmişdir (Bakı, "Nurlar" nəşriyyatı-2011, 176 səh.).

**66. "Zəngəzur ekspedisiyası" nədən məqsədinə nail ola bilmədi?**

1919-cu ildə artıq azı 30 minlik canlı hərbi qüvvəyə, xeyli silah-sursata malik olan AXC Hökuməti Qarabağın general-qubernatoru Xosrov bəyin çoxsaylı müraciətlərindən sonra 1919-cu il oktyabrın 30-da "Zəngəzur ekspedisiyası" adlanan xüsusi dəstə yaratdı. Bütövlükdə, dəstədə 1 tabor, 6,5 bölük süvari, 14

pulemyot və 2 top var idi. Dəstə oktyabrın 30-da ilkin mövqelər istiqamətində Xankəndidən Zəngəzura doğru hərəkətə başladı. Müxtəlif istiqamətlərlə hərəkət edən birinci, habelə sağ və sol dəstələr qəza mərkəzi Gorusa bitişik Dığ yaşayış məntəqəsinə doğru irəliləməli idilər. Dığın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyətə malik idi. Birinci dəstə Dığa doğru şimaldan hərəkət etməli idi. C.Şıxlinskinin əmrinə əsasən, Birinci dəstə noyabrın 3-də hücuma başlamalı, dəstənin piyada bölmələri 2 ədəd topla Sultan-kənd, süvari bölmələri isə Sadınlar kəndi istiqamətində irəliləməli və orada döyüşqabağı mövqe tutmalı idi. Hücum zamanı dəstənin sağdan mühafizəsi Sultan bəy Sultanovun rəhbərliyi ilə yerli partizanlara tapşırıldı. Noyabrın 4-nə keçən gecə yerli partizanlar Keçəldağ strateji yüksəkliyini tutub, orada möhkəmlənməli, sonra isə hərbi hissə və bölmələr hücuma qoşulmalı idilər. Bölgədə azərbaycanlıları sıxışdırmağa çalışan ermənilər də bu döyüşə ciddi hazırlaşmışdılar. Onların Dığ və Gorus ətrafında 6 minədək canlı qüvvəsi, 4 qaubitsası və 2 ədəd topu var idi. Atəşlərin dəqiq və dağıdıcı olması göstərirdi ki, topçular təcrübəli zabitlərdirlər. Süvari qoşunları ən azı 3 bölükdən ibarət idi. Qüvvələr nisbətində təqribi bərabərlik var idi. Dığ istiqamətində aparılan döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlasa da, onu əldə saxlamaq mümkün olmadı. Noyabrın 3-dən 7-dək Dığ istiqamətində aparılan döyüşlərdə AXC ordusunun qoşun bölmələri qarşıya qoyulan vəzifələri yerinə yetirmədən ilkin mövqeyə qayıtdılar. Zəngəzur ekspedisiyası qarşıya qoyulan vəzifəni yerinə yetirmədi, hərbi əməliyyat başa çatdırılmadı.




Əməliyyatın gedişində

özünümüdafiə dəstələri mərdliklə vuruşsalar da, nizami erməni hərbi hissələrinin qarşısında duruş gətirmək üçün mümkün deyildi. Həmin günlərdə Müttəfiq dövlətlərin Qafqazdakı emissarları da təkidlə döyüşlərin dayandırılması üçün Ermənistan və Azərbaycan hökumətlərinə təzyiq edir, tərəflər arasında sülh danışıqları aparılmasını, hücumun dayandırılmasını istəyirdi. Əslində isə Zəngəzurda ciddi zərbələr alan ermənilərə əlavə qüvvə toplamaq üçün vaxt qazandırırdı. AXC ordusu hissələri bölgədən çıxarmışdı. Zəngəzur yenə də yalnız yerli əhalinin öz imkanları hesabına müdafiə edilməyə cəhd edirdi. Ermənilər bu dəfə də məqsədlərinə nail olaraq, daha güclü qüvvə ilə dinc əhalinin soyqırımını davam etdirməyə başladılar.Ermənilər həmin soyuq noyabr günlərində Qarıqışlaq kəndi ətrafında 36 nəfər qadın, qoca və uşağı güllələdilər. Qarıqışlaq kəndində bu qətliamları törədən Mardi Ayvazyanın və Eqiş İşxanyanın hərbi bölmələrinin vəhşiliyi erməni tarixçisi Z.Şahnazarovun xatirələrində əks olunub: "Biz Qarıqışlaq kəndindən çıxarkən, əhaliyə məxsus bütün əmlakı özümüzlə götürdük, kənddə bir pişik belə qalmadı, evlərə od vurub oradan çıxdıq. Ətraf kəndlərdən topladığımız atlardan nəqliyyat vasitəsi kimi istifadə etdik. Əldə etdiyimiz bütün əmlakı
itki vermədən özümüzlə əvvəlcə Daşaltı kəndinə, oradan isə Şuşa şəhərinə gətirdik."

Azərbaycan ordusu Cavad Şıxlınski ilə Davud bəy Yadigarovun komandanlığı altında göndərilən dəstələr qarşıya qoyulan məqsədə nail olmadılar. D. Yadigarovun dəstəsindəki anası gürcü olan bir topçu zabiti ermənilər pulla ələ almışdılar və xəyanət də öz işini görmüşdü. Sultan bəyin kürd partizanlarının əlində olan strateji yüksəkliklərdə möhkəmlənmək üçün əməliyyatı pozduğuna, Qaragöl və digər ərazilərin yenidən ermənilərin əlinə keçməsinə imkan verdiyinə görə Nazirliyin Qərargah rəisi general-leytenant Sulkeviç D.Yadigarovu komandan müavinliyindən azad edib qərargah zabiti təyin etmişdi. http://1905.az/zəngəzur/




## 67. Zəngəzurda ermənilərə vurulan zərbələr tarix dərsliklərimizə niyə salınmır?

Ermənilərin Zəngəzurda törətdiyi vəhşiliklərdən ən dəhşətlisi Tat qırğınıdır. Andranikin quduzlaşmış ordusunun Tat kəndində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdir. Bu döyüşdə tatlılar baltadan, yabadan, ağacdan, daşdan istifadə edib şücaət göstərsələr də, qüvvələr nisbəti çox olduğundan düşmənin qarşısını ala bilməmişlər. Daşnaklar camaatın bir hissəsini böyük kahalara doldurub ağzında kərmədən ocaq qalayıblar. Onları tüstüdə boğub, odda yandırıblar. Bir dəstə əsiri Zabıx kəndinə gətirdikləri zaman yolda erməni dığalar bir gürzəni ağacla götürüb qolları bağlı kişinin üstünə atırlar. İlan dərhal kişinin boynuna dolanıb üz-gözünü gəmirir. Sonra qulağını ağzına alır. Kişi bir qədər getdikdən sonra huşunu itirib yerə yıxılır. Daşnaklar kişinin öldüyünü güman edib başına, kürəyinə bir neçə daş salıb gedirlər. Əsir götürdükləri qadın və qızların əvvəl saçlarını kəsdirib çatı toxutdururlar. Onlara ağlasığmaz işgəncələr verib, çılpaq-çılpaq ağaclardan asırlar. Quldur daşnak ordusunda xidmət edən bir erməni həkiminin göstərişi ilə sağlam görünən kişi və qadınların başlarını kəsib qanlarını ayrıca qablara yığırlarmış. Yetmiş uşağın qarnına süngü soxub yol boyu işarə daşları kimi düzürlər. Patrona qənaət etmək məqsədi ilə adamların başlarını daşların üstünə qoyub gürzlərlə əzərək Zabıx çayına tökürlərmiş. Qədim yazılı ağır bir daşı Ermənistana aparmaq üçün 20 nəfər Tat kişisini arabaya qoşurlar. Xumar adlı kənd Tat gözəlini Andranikin çadırına apararkən Sərt döngə deyilən yerdə qız qəflətən özünü uçurumdan atıb intihar edir. Xumarın qardaşı İbrahimi qolu bağlı itlərin qabağına ataraq quduzlara parçalatdırır, sonra ağaca bağlayaraq sinəsinə bıçaq atırlar. Daşnaklar törətdikləri vəhşilikləri Zəngəzur camaatı

arasında yayıb vahimə yaratmaq üçün bir neçə qadın və kişinin budlarına, kürəklərinə möhürə bənzər dəmiri qızdırıb basaraq Abdallar kəndinə tərəf buraxırlar. Xəbər Ağanus, Fətəlipəyə, Söyüdlü, Mığırdərə, Malxələf kəndlərinə çatanda camaat sel kimi axışıb köməyə gəlir. Lakin iş-işdən keçmişdi. Kəndlər tamam yandırılıb əhalisi qırılmışdı.

Tat qırğınından bir az sonra Andranik Abdallardan Şuşaya keçmək üçün Sultan bəydən yol istəyir. Elçiləri vasitəsi ilə Sultanbəyə çatdırır ki, hərgah Qarabağ yürüşümün təhlükəsizliyini təmin edə bilsən sənə istədiyin qədər qızıl verərəm. Sultan bəy Şuşa quberniyasında işləyən çox ağıllı, müdrik zəkalı qardaşı general Xosrov bəylə təcili məsləhətləşdikdən sonra Andranikə bildirir ki, onun Qarabağ yürüşünün təhlükəsizliyini təmin etmək üçün bir qədər silah lazımdır. Andranik Sultan bəyə 20 qatır yükü silah verir. Sultanbəy Andranikdən aldığı sursatla özünün süvari dəstələrini silahlandırıb Qaladərəsindən Şuşaya gedən yolda, Yeddiqatın ayağında nal şəkilli pusqu yaradır. Andranikə xəbər göndərir ki, yolda şübhə doğurmamaq üçün topları da sökdürsün və mənim işarəmi gözləsin. Andranik belə də edir. Topları sökdürüb, yükləri hazırlatdırır. Əhvalatın üçüncü gününün axşamı Sultanbəy Andranikə xəbər göndərir ki, gecə gəlin keçin. Andranik xəbəri alandan bir az sonra silah yüklənmiş 170 qatır karvanını Şuşaya yola salır, özü isə sübh çağı ordu ilə getmək qərarına gəlir. Eyni zamanda həmin gecə Sultanbəy bir neçə atlıya neft dolu tuluqlar verdirib tapşırır ki, Dığa, Xinzirəyə, Gorusa, Sisiana gedib Andranikin gəldiyi yollardakı bir neçə erməni kəndlərinə od vursunlar. Gecə Andranikin silah aparan karvanı yeddiqata çatanda Sultanbəyin pusquda dayanmış süvariləri meşədən çıxıb silah yüklü qatır karvanının yönünü Kürdhacı kəndinə tərəf döndərirlər. Beləliklə, zəhmli silahlar Andranikin ordusunun əlindən çıxır. Həmin gecə arxa kəndlərdən tez-tez çaparlar gəlib Andranikə bildirirlər ki, türklər arxadan hücuma keçib kəndləri yandıra-yandıra gəlirlər. Qayıdıb onların qabağını kəsmək lazımdır. Gecədən xeyli keçmiş Andranikə xəbər verirlər




ki, Qarabağa göndərdiyin silah yüklü qatır karvanı keçib Sultanbəyin dəstələrinin əlinə. Bu xəbəri eşidən Andranik buraxılmış səhvin nə ilə nəticələnəcəyini dərk edərək qorxu və həyəcanını ordusundan gizlədə bilməyib çox bərkdən hönkürərək zarıyır. Sonra orduya geri qayıtmaq əmri verir. Andranikin ordusu geri dönüb Zabıx kəndinin yaxınlığındakı dərin dərədən Dığ kəndinə keçmək istəyərkən Sultanbəyin dəstələri daşnakları mühasirəyə alıb dərəni qabaqdan və arxadan kəsirlər. Tarixdə daşnaklara ibrət dərsi olsun deyə Sultanbəy quldur ordusunun yüzlərlə əsgərini, 61 zabitini quzğunlara yem edir. Qocalar danışırlar ki, bir müddət Zabıx çayından qan axırmış. Andranikin quduz ordusunun Zabıx dərəsində məhv edilməsi xəbəri Zəngəzur kəndlərində böyük ruh yüksəkliyinə səbəb olub.

Qaragöl ətrafında gedən döyüş də ermənilərin tam məğlubiyyəti ilə bitir. Kürd partizanlar səhih məlumatlar gətirmiş, döyüşə atılacaq dəstə başçılarının hər birinin yeri, vəzifəsi müəyyən edilmişdi. Döyüşə Zəngəzur qazısı Bəhlul Behcətin rəhbərliyi ilə qazilər dəstəsi, Pristav Şahsuvar bəy Kələntərovun dəstəsi də cəsur, igid atlılarla gəlmişdi. Sultanbəy Qazının Azərbaycan dilinə tərcümə edib ona bağışladığı nəfis toxunmuş dəsmala bükülü "Quran"ı 3 dəfə öpüb üzü qibləyə dönüb başını, əllərini göyə qaldırdı, hamının eşidəcəyi səslə dedi: "Ey "Quran",

haqq işimizə görə bizə özün kömək elə". Sonra ehtiramla "Quran"ı ürəyinin başına qoydu. Qazıya tərəf dönüb, ehtiramla: "inşallah qələbə bizim olacaq!" dedi. Yuxuda heç nədən xəbərsiz, tökdükləri qanlardan doyub yatmış, Qarabağa sabahkı hücumun xoş xəyalları ilə yatan daşnak ordusunun hədəfi dünəndən nişan alınmışdı, əmr gözləyən topçular komandiri Çal Aslana tərəf dönüb "atəş!" komandası verdi. İlk topun mərmiləri silah-sursat anbarını göyə sovurdu, yer-göy titrədi. Səhərin ala toranında başlarını itirən yağılar hara qaçmağı da ayırd edə bilmədilər. Hər tərəfdən top, güllə yağışı altında qışqırıq, ah-vay nidaları eşidilirdi. Müqavimət göstərmək barədə düşünməyə, nə də qaçmağa imkan yox idi. Qaragöl döyüşündə Sultanbəy 9 uzaqvuran, 5 yaxınvuran toplardan, 40 pulemyotdan, 3 min müxtəlif növ tüfəngdən, 120 qılıncdan, 50-dən çox gürzdən, 9 minə qədər silahlıdan istifadə edirdi. Bunların əksəri Andranikdən qənimət alınmışdı. Döyüş günortaya qədər davam elədi. Əsir alınanların sayı 600-dən çox idi. Hər tərəf qırılan və yaralananlarla dolu idi. Qaranlıq düşənə yaxın Sultanbəy atlara qoşulu topları sürətlə yeni mövqelərə çıxarmağı əmr etdi, topların üzünü daşnak yuvası, Andranikin özünü general-qubernator elan edib mərkəz seçdiyi Gorusa çevirdi. Ağaməmmədin Minkənd alayı mühasirəyə alınmış Xınzirək kəndinə tərəf qaçanları güllə yağışına tutdular. Bununla Zəngəzur yaylaqlarındakı təhlükələr aradan qaldırıldı. Sultan bəy Araz çayı ətrafındakı tərəkəmə ellərinə adam göndərdi ki, yaylaqlara arxayın köçə bilərsiniz.

"Sahil əməliyyatı" da uğurlu olub. Sultan bəyin qəfil zərbələrinə tab gətirməyib İrana qaçmaq istəyən silahlı daşnak dəstələri Araz çayı sahilindəki qamışlıqlara doluşaraq gecələr fürsət tapan kimi çaya tökülüb o taya adlayırdılar. Buna yol vermək olmazdı, düşmən sonadək qovulub məhv edilməli idi."Sahil əməliyyatı" hazırlandı. Bu savaşda Həkəri və Bərgüşad çaylarının vadilərindəki kəndlərin camaatı və Zilanlı kürdləri xüsusi fəallıq göstərirdilər. Zilanlı kürdləri Arazın sahilində sol cinahda Diri dağı, Xudafərin körpüsünü, sağ cinahda isə



Mincivanadək sahil boyunu nəzarət altında saxlayıb Araza tökülən daşnak dəstələrini gülləbaran edib axırlarına çıxırdılar. Kürdlər donuzları neftləyib, od vurub qamışlıqlarda yanğınlar törədərək düşmənləri məhv edirdilər. Yanğından qaçan erməniləri Zəngilan, Məmmədbəyli kəndlərinin ətrafındakı dərələrdə kütləvi şəkildə qırırdılar. Daşnakların xaricə aparmaq istədikləri var-dövləti əllərindən alıb Azərbaycan kəndlərinə paylayırdılar. Sahil əməliyyatı zamanı ermənilərdən alınmış silahlarla Çaytumas, Ağalı, Alaqurşaq, Xanlıq kəndlərində güclü silahlı dəstələr yaradırdılar. Bu silahlar hələ 1937-ci ilədək bolşeviklərə, erməni daşnaklarına çox acılar yaşadacaqdı.

## 68. Qafqaz İslam Ordusu Zəngəzura necə kömək etmişdi?

Ordunun bölük komandiri Sevki paşa 29 avqust 1918-ci ildə Şərq Ordu qrupunun komandanlığına göndərdiyi teleqramda Zəngəzurdan qaçıb gəlmiş şahidlərin ifadələrinə əsaslanaraq yazırdı ki, Zəngəzurda ermənilərin fəaliyyəti belə davam edərsə, bölgədə bir aydan sonra bir müsəlman da sağ qalmayacaq, ermənilər ərazilərini daha da genişləndirəcəklər.

Qarabağ Məntəqəsinin Komandanı İsmayıl Hakkı paşanın Ağdamdan Qarabağ və Zəngəzurdakı vəziyyətlə bağlı Nuru paşaya göndərdiyi həyəcanlı teleqramlar nəticəsiz qalmadı. 1918-ci ilin 15 sentyabrında Bakını azad edən Nuru paşa komandanlığında Qafqaz İslam Ordusunun ilk tədbirlərindən biri Qarabağ və Zəngəzura kömək göndərmək oldu. Sentyabrın 23-də

Ağdama çatan həmin bölük, oktyabrın 7-də "cəsarətli bir kişi olan Sultan bəy Sultanovun təşkil etdiyi qüvvələrlə Gorus istiqamətində hücuma başlamış və nəticədə oktyabrın 18-də erməniləri Gorusun cənubuna qova bilmişdi". Almaniya, Fransa xarici işlər nazirlikləri də Andranikin nizami qüvvələrinin Zəngəzurda törətdikləri vəhşiliklər barədə məlumatlandırılmışlar. Türk komandanlığı Andranikin 700 nəfərlik piyada və 200 süvari ilə 1919-cu ilin yayında Zəngəzurun Sisian bölgəsində 500-dən çox müsəlmanı amansızlıqla qətlə yetirməsi barədə komandanlığa məlumat verilir, təcili kömək göndərilməsi xahiş edilirdi.

Albay (polkovnik) Cəmil Cahid bəy 1918-ci il 8 oktyabrda Şuşanı itkisiz ələ keçirdi. Burada mühasirədən xilas olan adamlar Türk ordusunu hərarətlə qarşıladı. Cəmil Cahid bəy erməni əsilli Bələdiyyə rəisi Kavalanı erməni məhəlləsinə göndərərək, itaət edəcəkləri halda can və mallarının təminat altında olacağı, əks halda isə müharibə qanunlarına uyğun olaraq cəzalandırılacaqlarını bildirdi ki, bunun da günahı Türk ordusunda deyil, onların özlərində olacaqdır. Yarım saatdan sonra erməni başbilənləri Cəmil Cahid bəyin yanına gələrək, xalqın böyük hörmətlə Türk ordusuna bağlılığını və əmrlərə itaət edəcəklərini bildirdilər. Bundan sonra Komandan erməni başbilənlərinin böyük kilsəyə yığışmalarını tələb etdi. Cəmil Cahid bəy buradakı nitqində, ermənilərin indiyə qədər türklərə çox pisliklər etdiklərini, bununla bərabər Türk dövlətinin onlara tam bir vətəndaşlıq hüququ verməsinə baxmayaraq onların nankorluq etməsindən söz açdı. Bu səbəbdən ermənilər cəzalandırılmalı olduqları halda, Türkün ulu vicdanının bir daha onları əfv etdiyini bildirdi. Albay Cəmil Cahid bəy ermənilərə silahı dərhal təhvil verməyi tələb etdi. Şuşanın



azərbaycanlılar yaşayan hissəsində Türk ordusunun rəsmi keçid mərasimi keçirəcəyini bildirən Cəmil Cahid bəy, ermənilərin də bu mərasimdə iştirakını və beləliklə də, türklərlə barışmalarını istədiyini qeyd etdi. Bundan sonra Şuşanın erməni və türk məhəllələri arasındakı səngərlər yığışdırıldı və Türk ordusunun rəsmi keçid mərasimində ermənilərin də iştirakı təmin edildi. Şəhərin əhəmiyyətli qovşaq və məhəllələrinə Türk əsgəri yerləşdirilərək, asayiş təmin edildi.

Sultan bəy Sultanovun dəstəsi Andranikin qüvvələrinə qarşı Qaladərə tərəfdən hücuma keçib erməniləri Gorusun cənubuna qədər qovaladı.

30 oktyabr 1918-ci ildə Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında bağlanmış Mudros sülh müqaviləsinin şərtinə görə Osmanlı ordusunun Qafqazdan çıxarılması ilə Qarabağ və Zəngəzurdakı bölüklərinin də ərazini tərk etməsi ermənilərin əl-qolunu yenidən açdı.

Acı təəssüflər olsun ki, 100 il keçsə də, hələ də Azərbaycanda xilaskar Qafqaz İslam Ordusu adına bir abidə, muzey yoxdur.

## 69. Zəngəzurlu Baharlılar haqqında nə bilirik?

Baharlılar-Azərbaycan türklərinin etnogenezində mühüm rol oynamış türkdilli tayfadır. Baharlılar Zəngəzurun 2 kəndində - Qafan və Zəngilanda, həm də Ağdamda məskunlaşmışdılar. Mənşəcə oğuz tayfalarından olan Qaraqoyunlular dövlətini Baharlılar yaratmış, bu sülalənin nümayəndələri də dövlətə başçılıq etmişdilər. Baharlılar Orta Asiya-Türküstandan İran və Anadolu torpaqlarına köçərək Van ətrafında güclü Qaraqoyunlu tayfa ittifaqı (1380-89) yaradıblar. Ərzincan və Sivasda möhkəmləniblər, Ağqoyunlular, Teymurlular və Cəlairilərə qarşı mübarizə aparıblar, Qara Yusifin başçılığı ilə Azərbaycanın da daxil olduğu Qaraqoyunlu dövlətini qurublar. Azərbaycanın ərazisində də indi də Qaraqoyunlularla bağlı bir çox toponimlər var. Qaraqoyunlu hökmdar sülaləsinin (1387-1468) banisi Bayram

Xocadır. Hökmdarları: Qara Yusif (1410-1420), Qara İsgəndər (1421-1429; 1431-1436), Əbu Səid (1429-1431), Cahanşah Həqiqi (1437-1467), Həsənəli (1467-1468) olublar, az müddətdə İraq, Cənubi İran, Azərbaycan, Gürcüstanı sərhədlərinin içinə alıblar, 100 minlik qoşunu ilə yaxın qonşularını səksəkədə saxlayıblar. Qaraqoyunluların hakimiyyəti dövründə Teymurlular, Cəlairilər, Şirvanşahlar, Ağqoyunlular, Gürcüstanla müharibələr aparılmışdır. Qaraqoyunluların hakimiyyətinə Ağqoyunlular son qoymuşlar. Bu dövlətin başında duranlar Baharlı sülaləsi, vuran əli də baharlı tayfasını igidləri idi. Döyüşkənliyi ilə birlikdə zəkalı insanları da dövlətin güc və nüfuzunun möhkəmlənməsində mühüm rol oynayırdı. Ağqoyunlulara məğlub olduqdan sonra bu tayfa mənsubları Böyük Moğol İmperiyasının başçısı, Teymurləngin nəvəsi Zəhirəddin Babura ( 1483- 1530) qoşularaq Hindistana getmiş, orada 175 il sürən Qütbşahlar Dövlətini qurmuş, Əmir Teymur nəslindən olan xanımlarla ailə qurub hakimlik, sərkərdəlik, baş vəzirlik etmişlər. Türkmənistan Prezidenti Səfərmurad Niyazov da baharlı tayfasından idi. Orta Asiya respublikalarında bu tayfaya mənsub xeyli tanınmış insan var.

Zəngəzurlu baharlıların bir çox məşhurları olub; Məhəmməd Xan Baharlı (XVI əsr), şair, ictimai xadim, "Qarabağnamə" müəllifi" Mirzə Vəli Baharlı (XVIII əsr), coğrafiyaşünas, dövlət xadimi Məhəmmədhəsən Baharlı (XX əsr), Azərbaycan xalqının böyük məhəbbətini qazanmış daxili işlər naziri, Şəhid general Məhəmməd Əsədov. Qarabağ xanlığı dövründə Zəngəzur qəzasına daxil Zəngilanın Baharlı, Şayıflı, Çöpədərə və digər bir neçə kəndinin idarəsi baharlılara məxsus olub. Zəngilandakı Bəsitçayın Arazboyu Baharlı kəndindəki Çinar meşəsi Kanadadan sonra dünyanın 2-ci ən böyük Çinar meşəsi, nadir təbiət möcüzəsi idi.



**70. Sisianlı Cümhuriyyət deputatı Mirzə Məmmədsadıq Axundzadə kim olub?**



Yelizavetpol-Gəncə quberniyasında 1901-ci ilə qədər 28 rus-tatar məktəbi vardı ki, onun da 12-si Zəngəzur qəzasında açılmışdı. Sonralar uzun illər Azərbaycan hökumətinin rəhbərliyində təmsil olunanlar, sənayenin müxtəlif sahələrində mühüm postlarda çalışanlar arasında zəngəzurluların sayının çoxluğu, eləcə də bu torpaqlardan xeyli sayda tanınmış elm, mədəniyyət xadiminin yetişməsi bu yeni tipli məktəblərin sayəsində mümkün olmuşdu.Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, maarifçi, yazıçı, jurnalist, naşir, mühacir siyasi-ədəbi irsimizin görkəmli nümayəndəsi Mirzə Məmmədsadıq Axundzadə 1895-ci ilin dekabrında Sisianın qədim Urud kəndində nüfuzlu bir nəslə mənsub ailədə doğulmuş, ilk təhsilini Urud mədrəsəsində almış, Təbrizdə ali dini təhsilini bitirib Uruda qayıdaraq mədrəsədə dərs demişdi.O, fars, ərəb, rus dillərini kamil öyrənib, "Quran-i Kərim"i sərbəst oxuyub tərcümə edərmiş, müxtəlif məktəblərdə müəllimlik edib. Məmmədsadıq ilk şeirlərini "Açıq söz" və "Fyuzat" jurnallarında dərc etdirib. Təqiblərdən sonra Arazın o tayına keçib Marağada ibtidai məktəb açıb. 1917-ci ildə isə Zəngəzur qəzasının mərkəzi Gorusa qayıdıb və orada da məktəb açır. Çar Rusiyasında baş verən 1917-ci il inqilabından sonra Azərbaycanda istiqlal hərəkatının ilk sıralarında, Zəngəzurda əsas liderlərdən biri, 28 may 1918-ci ildə bağımsızlığını elan edən Azərbaycan Xalq Cümhuriyyətinin Zəngəzurdan seçilən millətvəkili - Parlamentin üzvü, Müsavat və Birtərəflər fraksiyasında idi. Ruslar Azərbaycanı tamamilə işğal etdikdən sonra, akıdakı dostları ilə birlikdə gizli qurtuluş təşkilatını qurur və İstanbuldakı Milli Azərbaycan Təşkilatı ilə əlaqə yaratmaq

üçün Türkiyəyə gedir, sonra yenidən Azərbaycana qayıdır. “Çeka” dəstələri tərəfindən Tiflisdə tutulub həbsə alınır. Fürsət tapıb həbsxanadan qaçmağa müvəffəq olur. Siyasi mühacirət nümayəndələrinin bir çoxu kimi 1920-ci ildə İran üzərindən keçərək Türkiyəyə üz tutur. Burada Mehmet Sadık Aran adı ilə Trabzonda müəllimlik edir, sonra da İstanbula gəlir, 15 il ərzində Azərbaycan Milli Mərkəzində də fəallıq göstərir. Məmmədsadıq daha sonra Finlandiyaya gedir (1931-1933). Orada İdil-Ural türklərinin uşaqlarını oxutmaq üçün məktəb açaraq müəllim və idarəçi vəzifəsində çalışır. Eyni zamanda türkcə və fincə “Yeni Turan” adlı bir qəzet də təsis edir. İstanbula döndükdən sonra “Millət”, sonra da “Cümhuriyyət” qəzetlərinin müxbiri kimi İranda işləyir. O, 1942-ci ildə İstanbulda Sənan Azər təxəllüsü ilə "İran türkləri" kitabını çap etdirir. Maraqlıdır ki, həmin kitab Türkiyənin yürütdüyü rəsmi siyasətə zidd sayılaraq Prezident İsmət İnönünün göstərişi ilə qadağan edilmişdi. Az sonra müəllif “Türkün altun kitabı” adlı ikinci kitabını nəşr etdirir. M.S.Aran pedaqoji siyasi fəaliyyətlə yanaşı bədii yaradıcılıqla da məşğul olur. Onun “Qara köynək”, “Gənclərə nəsihət” “Millətlərin haqqı və məhkum türklərin davası” adlı nəsr əsərləri, “Qaçaq Nəbi”, “Top səsləri” kimi pyesləri, çoxlu şeirləri var. Əsərlərinin əksəriyyəti 1952-ci ildə çap olunmuş “Ərkənəkon yolları” adlı kitabında toplanıb. Müxtəlif qəzet və məcmuələrdə çoxsaylı məqalələr çap etdirməklə yanaşı, "Azəri türk", "Yeşil yaprak", "Türk yolu", “Şark yolu”, "Erkenekon" dərgilərinin naşiri, yaxud redaktoru olmuşdu. Uzun müddət qurucularından olduğu Ankaradakı Türk Kültürlərini Araşdırma İnstitutunun əməkdaşı kimi çalışmışdı. “Azerbaycan Dergisi”ndə öz bioqrafiyasını da yazıb çap etdirib ( S. 205, 1972, s. 63-66, “Mehmet Sadık Aran (San’an). Böyük vətənsevər yazılarının bir çoxuna da “Sisianlı” imzası qoyub. Onun adı M.Ə.Rəsulzadə və Mirzə Bala Məmmədzadədən sonra adı 3-cü sırada çəkilib, dostları arasında “Ataazəri” ləqəbi qazanıb. 1971-ci ildə İstanbulda vəfat edib. Haqqında yazılmış vida sözlərindən biri belədir: *“Əziz qardaşım*




*Mehmet Sadık Aran! Sən son nəfəsə qədər çarpışan bir cəbhə əsgəri kimi öz Vətənin qarşısındakı vəzifəni yerinə yetirib aramızdan ayrıldın. Sən uzun zaman dillərdə anılacaq, sonra da Türkçülük tarixindəki yerini dolduracaqsan. Sözlərimi bitirərkən, çox dəfə söylədiyim sözü təkrarlayacağam: günün birində sənin Quzeyli və Güneyli bütöv azad Azərbaycan arzun gül açacaqdır."*

**71. Azərbaycanın ilk hərbi naziri Xosrov bəy Sultanov haqqında nə bilirik?**

Xosrov bəy Sultanov 1918-1920-ci illərdə Qarabağda Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Hökumətinin 1 nömrəli əsas fiquru, erməni-daşnak hərbi hissələrinə qarşı mübarizənin başında duran şəxs idi.

O, 1879-cu ilin mayın 10-da Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin, Qasımuşağı obasında, indiki Laçın rayonunda anadan olub, Odessa Universitetinin tibb fakultəsində təhsil alıb. Bir müddət "Müsavat", sonradan isə "İttihad" partiyasının üzvü olub. 1918-ci ilin mayın 27-də Azərbaycan Milli Şurasının, bundan əvvəl Zaqafqaziya Seyminin və sonradan Azərbaycan Parlamentinin üzvü seçilib, AXC-nin elan edilməsi bəyannaməsinə imza edənlərdən biri olub. Mayın 28-də Baş Nazir Fətəli Xan Xoyskinin formalaşdırdığı ilk hökumət kabinəsində Hərbi nazir vəzifəsinə təyin edilib. Xosrov bəy Tiflisdə Hərbi nazir vəzifəsini qəbul edərkən Milli Şura qarşısında 3 vəzifəni yerinə yetirəcəyini aşağıdakı sıra ilə elan etmiş və bundan ötrü Hökumətin yardımını istəmişdi:-erməni hərəkatı ilə mübarizə və bu hərəkatın tamamilə məhv edilməsi, asayişin «bərpa olunması, məcburi köçkünlər arasında gəzən epidemiyalarla mübarizə,



onlara yardım». 1918-ci il yazın sonu-yayın əvvəllərində Şimali Azərbaycanda yaranmış kəskin hərbi-siyasi durum nəticəsində AXC-nin ilk hökuməti çox az, 20 gün yaşadı. Azərbaycanın ilk Hərbi naziri vəzifəsini qısa müddətə icra etdikdən sonra növbəti hökumət kabinələrində Əmək, Əkinçilik, Torpaq naziri olub. X.Sultanov 1919-cu ilin 13 yanvarında Azərbaycan hökumətinin keçirdiyi iclasda Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ quberniyası yaradıldı, Xosrov bəy general-qubernator təyin edildi.

Qarabağın general-qubernatoru vəzifəsinə başlayarkən onun xalqa müraciət ünvanlamışdı: *"Azərbaycan hökumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general-qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir. Azərbaycanın təqribən yarısında, onun ən yaxşı hissəsi - 4 qəza - artıq bir ilə yaxındır ki, anarxiya ucbatından dağılır. Şəxsi firavanlığı yüksək ideal sayan məsuliyyətsiz elementlərin rəhbərliyi altında olan bandalar diyarı viranə qoyur; kəndləri yandırır, əhalini qırır, on minlərlə yurdsuz-yuvasız qadın və uşaq qaçqın düşmüşdür, yuxarıda göstərilən elementlər milli ədavət yayırlar. Əhalidən ümumi siyasi vəziyyət gizlədilir. Bu şəxslər öz şəxsi mənafelərini güdür, öz cəhdlərini partiya ideya forması donuna salırlar.*

*Öz həyatını xalqa xidmətə sərf etmiş ictimai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibət göstərməyi, ciddi ədalət və qanunçuluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram. Azərbaycanın müstəqilliyi, ərazi toxunulmazlığı, şəxsiyyətin ciddi məsuliyyəti və əmlak toxunulmazlığı - diyarın həyatı bu əsaslar üzərində qurulacaqdır".*

O, 1919-cu ilin fevralın 15-17-də qəza rəisləri və ictimai xadimlərin iştirakı ilə keçirdiyi ümumbölgə müşavirəsində Andronikin qəzada törətdiyi faciələr barədə ətraflı məlumatlar dinlənilmiş və bu quldur dəstəsinin bölgədən çıxarılması qəti olaraq qərara alınmış, plan cızılmışdı.Ermənilər X.Sultanovun general-qubernator təyin olunmasına, Qarabağ general-qubernatorluğunun yaradılmasına dəfələrlə etiraz bildirmişdilər, onun haqqında mərkəzə, müttəfiqlərin Tiflisdəki missiyasının başçılarına şər-böhtan dolu müraciətlər göndərmişdilər.

Onların narahatlığının əsasları var idi, Qarabağ və Zəngəzurda Sultanovların erməni iddialarına qarşı qətiyyətli, barışmaz mövqedə durduğunu, bölgədə böyük nüfuz və imkanlara sahib olduğunu ermənilər yaxşı bilirdilər.

1919-cu ilin Novruz bayramında erməni-daşnak hərbi dəstələri general Dronun rəhbərliyi ilə Qarabağa yeganə keçid olan Əsgəranı zəbt etmiş, Şuşa, Zəngəzurla əlaqələri kəsmişdilər. Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri dəqiq, çevik hərbi əməliyyatla mayın 30-da erməni qoşunlarını darmadağın edərək Xankəndi və Şuşanı düşməndən geri almışdı. 1919-cu ilin iyununda X.Sultanovun başçılığı ilə keçirilən digər əməliyyatda Şuşaya gizli yolla silah aparan Erməni Milli Şurasının üzvləri həbs edilərək Qarabağ ərazisindən çıxarılmışdı. Top, haupitsa, pulemyotlarla silahlanmış, nizami süvari və piyada dəstələrinə malik olan daşnak ordu hissələrinə qarşı yerli özünümüdafiə dəstələri bəzən sarsıdıcı zərbələr də vurur, erməniləri itkilərə məruz qoyurdu. Lakin acı təəssüflər olsun ki, ermənilərin aldığı belə sarsıdıcı zərbələrdən sonra AXC silahlı qüvvələri yaranmış vəziyyətdən istifadə edərək Zəngəzur və Qarabağda erməni mövcudluğuna son qoymaq fürsətini əldən verdi.

Xosrov bəy Odessa Tibb Universitetində Nəriman Nərimanovla tələbə yoldaşı olub. Tələbəlik dövründə küçədən keçərkən bir rus zabitin yoldan keçən qıza sataşdığını görən Xosrov bəy qızı müdafiə edir və bu da duellə nəticələnir. Birinci gülləni zabit atır və güllə bəyin gözünü zədələyir. Amma yaralı



Xosrov bəy də zabiti öldürür. Sonradan məlum olur ki həmin qız Odessa Universitetinin rektorunun qızıdır. Həmin qızla evlənən Xosrov bəyin ondan Murad adlı bir oğlu olsa da, uşaq yaşlarında dünyasını dəyişib. O, bilikli həkim idi, boş vaxt tapan kimi xəstələrə baş çəkir, müalicə edir, pulsuz dava-dərman paylayırdı. Qarabağda, Türkiyədə öz vəsaiti hesabına uşaq evi açmışdı.

1923-cü ildən general Xosrov bəy Sultanovun həyatında mühacirət dövrü başlanmışdır. O, Türkiyədə, İranda (1926), daha sonra Fransa və Almaniyada yaşamış, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışmışdır. Xosrov bəy Türkiyədə ağır maddi vəziyyətdə yaşamağına baxmayaraq, Cümhuriyyətçilərə, xaricdə təhsil alan Cümhuriyyət tələbələrinə də pul göndərib. Bu sırada Üzeyirbəyin qardaşı Ceyhun bə Hacıbəyli də olub.

7 yanvar 1943-cü ildə vəfat edib, İstanbulun Feriköy qəbiristanlığında dəfn olunub.

**72. Xosrov bəy AXC Parlament və Hökumətinə raportunda nələri təklif etmişdi?**

1918-ci il 28 mayda Tiflisdə İstiqlal Bəyannaməsinə imza atan 26 nəfərdən biri, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun *"Qarabağda ingilislərin siyasəti ilə bağlı yaranmış vəziyyət və onun aradan qaldırılması üçün zəruri tədbirlər"* raportu 1918-1920-ci illərdə Zəngəzurda baş verən hərbi-siyasi

hadisələrin mahiyyətini anlamaq, xarici güclərin, ermənilərin, AXC Hökumət və Parlamentinin mövqeyini, siyasətini anlayıb dəyərləndirmək baxımından çox əhəmiyyətli, unikal sənəddir.

Qarabağda baş verən hadisələrin mərkəzi siması olaraq Xosrov bəy Sultanovun 1918-ci ilin ortalarından başlayaraq aprel 1920-ci ilin aprelin son günlərinədək Nazirlər Şurasına, Hərbi Nazirliyə, Milli Şuraya, Baş nazirlər Fətəlixan Xoyski və Nəsib bəy Usubbəyova ünvanlandığı xeyli məktub, teleqram, raportları, xüsusən Qafqazda əsas söz sahibi olan ingilis generalı Şatelvortla Qarabağ məsələsinə dair apardığı müzakirələrdən dərhal sonra - 22 avqust 1919-cu il Milli Şuraya göndərdiyi "Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər" adlı məlumat-məruzəsində qoyduğu aşağıdakı tələblərinin və müşahidələrin nə qədər düzgün olduğunu zaman göstərdi:

*1. Qarabağ və Zəngəzur məsələsinin həllində ingilis köməyindən qətiyyətlə imtina edilməlidir; 2. İngilislər Qarabağ və Zəngəzur məsələsinin həllində bizə yalnız maneçilik yaradırlar; 3. Məcburi tədbirlər görülmədikcə, ermənilər Azərbaycan hakimiyyətinə tabe olmayacaqlar; 4. Bu problem həllini tapmadıqca əhali AXC Hökumətinin gücsüz olduğuna inanacaqdır...*

Zəngəzur torpağına canı, qanı, əsli-soykökü, ata-baba mülkləri ilə bağlı olan cəsur hərbçi və qətiyyətli siyasətçi olan Xosrov bəy problemin həlli yollarını da göstərirdi:

*1. Təxirə salmadan hərbi hissələri Zəngəzura yeritmək, ermənilərin İrəvandan Zəngəzura, Azərbaycanın digər bölgələrinə hərəkətinin qarşısını almaq; 2. Dağlıq Qarabağa (Erməni Milli Şurasının idarəsində olan) Azərbaycanın hakimiyyətini tanımaq barədə ultimatum vermək və altı gün vaxt qoymaq; 3. Bütün ermənilərə Azərbaycanın bütün rayonlarından getməyi təklif etmək, ultimatum dövründə onlarla hər cür danışıqları kəsmək, ultimatum bitdiyində dərhal hərbi əməliyyatlara başlamaq və bütün məsuliyyəti erməni başçılarının üzərinə qoymaq.*




Xosrov bəy Osmanlıda Hərbi nazir Ənvər Paşanın erməni məsələsini necə həll etdiyini də gözəl bilirdi: erməni durduqca problem duracaq, erməni məsələsini həll etməyin yeganə yolu ermənilərdən azad olmaq, onları bu torpaqlardan təmizləməkdir.

Tarixi şans bir dəfə verilir, sən ondan yararlanmadınsa, qarşındakı yararlanacaq, Zəngəzur ortada qalıb sahibini gözləyən ov kimi idi, birinci kim götürdüsə onun idi. Qarabağın general-qubernatoru Xosrov bəy 1919-cu il aprelin 2-də AXC Nazirlər Şurasının sədrinə məktubda yazırdı ki, *general-qubernatorluğun hüdudlarında siyasi məsuliyyəti mən daşıdığım halda hərbi hissələrin mənə tabe olmaması, lazımi zamanda silahlı qüvvələrin gücündən istifadə etmək hüququndan istifadənin, həm də hökumətlə teleqraf, rabitə əlaqəsi, xüsusən zəruri hallarda Hərbi nazirlə əlaqə qurmağımın qeyri-mümkünlüyü bölgəni böhranlı vəziyyətə salıb, faktik olaraq ikihakimiyyətlilik hökm sürür, ingilis missiyası öhdəsinə götürdüyü missiyanı yerinə yetirmir, ermənilərlə, ingilislərlə apardığımız danışıqlar heç bir nəticə vermir, ermənilərin hərəkətlərindən görünür ki, onlar yeni hücumlar üçün güclü hazırlıq aparırlar. Qanuna görə general-qubernatorun hakimiyyəti Baş komandanın hakimiyyətinə bərabər tutulur, ona görə də hərbi hissələr onun tabeliyinə keçməlidir.*

Bu, çox ciddi tələbə heç bir cavab gəlmir, Xosrov bəy yenidən hökumətə yazır ki, *Qarabağda hərbi hissələrin mənə tabe*

*edilməsinin zəruriliyi haqqında dəfələrlə verdiyim bəyanata baxmayaraq, indiyə qədər cavabsız qalmışdır. Mənim tərəfimdən bildirilmişdir ki, bu cür tabe edilmə qətiyyən mövcud qanunlarla ziddiyyət təşkil etmir.* O yazırdı ki, indiki vaxtda Qarabağ məsələsinin həll edilməsinin mənim cavabdehliyimdə olduğunu nəzərə alaraq xahiş edirəm hərbi hissələrin Qarabağın general-qubernatoruna tabe edilməsi haqqında qərar verəsiniz, ya da mənim istefamı qəbul edib, hərbi hissələri ona tabe etməklə digər bir şəxsi mənim yerimə təyin edəsiniz. Mən bu haqda bəyanat verərkən tamamilə vətənpərvərlik hisslərindən çıxış edirəm. Nə üçün? Ona görə ki, vilayətdə hərc-mərclik olmasın, vilayət özbaşına buraxılmasın, Hökumətin Qarabağdakı nümayəndəsinə heç bir mövcud siyasi vəziyyətlə, mövcud qanunlarla bəraət qazandırılmayan qeyri-müəyyən və anlaşılmayan münasibət bəslə-yən ermənilərin hakimiyyətinə verilməsin. Xosrov bəy növbəti məktublarında bölgədəki Azərbaycan ordu hissələrinin də durumundan ətraflı bəhs edirdi O, Hərbi nazirliyə tabe olan hissələrdəki əsgərlərin ayaqqabı, geyim, patron çatışmazlığından, hətta itaətsizliyə gətirib çıxaran vəziyyətin kəskinliyindən, neçə aydır şəxsən ona vəd olunan patronları almadığından yazır, Qarabağ, Zəngəzurdakı vəziyyətin böhranlı həddə çatdığını, Qarabağ qubernatorluğuna aid ərazilərin məsələsinin birdəfəlik qəti həlli üçün hərbi sursatla 2 min əsgərin onun tabeliyinə



keçirilməsini, İranla sərhəddə boş dayanmış 6 pulemyotun bir neçəsinin onun sərəncamına göndərilməsini tələb edirdi. Əks təqdirdə özünün istefaya göndərilməsini israrla təkid edirdi. Mövcud real vəziyyətdə Xosrov bəy israrında tamam haqlı idi.

AXC Nazirlər Şurasının sədri Nəsibbəy Yusifbəyli Xosrov bəyin bu məktubu ilə bağlı Hökumətin 1919-cu il 19 aprel iclasında şəxsən məruzə edir, qızğın müzakirə keçirilir və məsələ həllini tapmır, heç bir konkret qərar qəbul olunmur, tədbir görülmür. Onun «Azərbaycan» qəzetinin 5 aprel nömrəsində çap olunmuş müsahibəsi də vəziyyətin böhranlılığını aşkar göstərsə də, Hökumət və Parlamentdəki müəyyən qüvvələr müxtəlif bəhanələr, əsassız arqumentlərlə, ən başlıcası isə ingilis nümayəndəliyinin təzyiqi qarşısında geri çəkilərək Qarabağda, Zəngəzurda vəziyyətin birdəfəlik Azərbaycanın xeyrinə həlli yolunda ciddi sipər çəkdilər.

### 73. Üzeyirbəy Hacıbəyli Xosrov bəy Sultanov haqqında nə yazmışdı?



*«Həqiqətən, o, Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücuda malik olan kimi sağlam və salamat politika yerindən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə*

*tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan bu zat Qarabağın hökuməti başında olması idi, burası - Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital olmuşdu».*

AXC Parlamentinin orqanı olan "Azərbaycan" qəzeti yazırdı: *"əgər erməni quldur dəstələrinin vəhşiliklərinin qarşısını ala biləsi hər hansı qüvvə özünü çatdırmasa, bu "cəngavərlər" Zəngəzur və İrəvan müsəlmanlarını ucdantutma qırmaqdan əl çəkməyəcəklər".*

O günlərin başqa qəzetləri Xosrov bəyin fəaliyyətinə geniş yer ayırırdı. «Наше время» qəzeti 1919-cu il 13 iyun tarixli sayında yazırdı: *«8 iyunda Qarabağda qanlı hadisələrə dair Van kilsəsi yanında mitinqdə qəbul edilmiş aşağıdakı qətnamə Müttəfiq Dövlətlərə, beynəlxalq təşkilatlara göndərilmişdir və bu müraciətdən də Xosrov bəyin erməni planlarına qarşı ən böyük maneə olduğu görünür: "Qarabağda daimi olaraq sakitliyi və qayda-qanunu pozan məşhur türk agenti və Azərbaycan general-qubernatoru Xosrov bəy Sultanov və bütün Azərbaycan hərbi hissələri Qarabağdan çıxarılsın."*

**74. Cümhuriyyət Parlamentinin deputatı Zəngəzurdan Bakıya göndərdiyi teleqramlarda nə yazırdı?**

AXC Parlamentinin Zəngəzurdan seçilmiş üzvü, Müsavat fraksiyasının üzvü Cəlil bəy Sultanovun, qəza rəisi M. Namazəliyevin və Hökumətin digər yerli təmsilçilərinin onlarla teleqramındakı həyəcanlı çağırışlar, imdad, yardım diləyən sözlər ürək sızladır. Arxivlərdə saxlanan bu teleqramlar Zəngəzur qırğınlarının faciəli mənzərəsini və 23 aylıq mövcudluğu ilə qürur duyduğumuz Cümhuriyyətimizin Zəngəzurla bağlı uğursuz

mövqeyini, fəaliyyətsizliklərini aydın görmək üçün şərhsiz kifayətdir.

Cəlil bəy Sultanov 1920-ci il yanvarın 24-də Parlamentin sədrinə ünvanlandığı teleqramda yazırdı: "*Bütün teleqramlarıma əlavə olaraq, hərbi əməliyyat yerindən məlum edirəm ki, Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər öz qüvvələrini Cəbrayıl qəzasının sərhədində cəmləşdirirlər. Qarabağı xilas etmək lazımdır. Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir.*"

*"Silahının gücünü Zəngəzurun həmişə təqiblərə məruz qalmış, məzlum, bədbəxt müsəlman əhalisi üzərində sınayaraq cəzasız qalan ermənilərin təcavüzkar hərəkətləri barədə hökumətə dəfələrlə xəbər verilmişdir. Zəngəzur müsəlmanlarının müdafiəsi üçün hökumət tərəfindən indiyədək heç bir real tədbir görülməmişdir. Hökumətin fəaliyyətsizliyindən əl-qolu açılan Zəngəzur erməniləri nizami hissələrin köməyi ilə birləşmiş Qarabağ qüvvələri kimi hərəkət edib bütün yolüstü müsəlman kəndlərini məhv etmək, Qarabağa daxil olaraq Əsgəranı tutmaq, Şuşanı almaq qərarına gəliblər. Bu qərar indi icra edilir. Xankəndində əhalinin müdafiəsi tapşırılan qarnizon Bakıdan əmr verilmədən müdafiəyə başlamağa cəsarət etmir. Cinayətkar ermənilərin hökmranlığına və belə biabırçı hadisələrə son qoymağı, Qarabağ və Zəngəzurun mühüm ehtiyaclarının həlli üçün bir dəqiqə vaxt ayırmağa sizdən sonuncu dəfə xahiş və tələb edirik, kömək edin."*

*"Hazırda Fərəcan, Göyyal, Çərəli (Qubadlı rayonu ərazisi - H.A)...8 kənd yanır, tüstü göyün üzünü bulud kimi alıb. Düşmənə qarşı müqavimət göndərən yerli qüvvələr dənizdə bir damladır. Xahiş edirik tədbirlər görəsiniz. Bizim qüvvəmizlə onların qarşısını almaq olmaz".*

*"Artıq ermənilər Zəngəzurun 3-cü sahəsini (Qubadlı rayonu - H.A) işğal etdilər. Hücum 4-cü sahədə və Cəbrayıl qəzasının sərhədində gedir. Ermənilərin 8 topu, 60 pulemyotu var, qoşunları*

*mütəşəkkildir. Patronları, silahları olmayan müsəlmanlar geri çəkilməyə məcburdurlar. Zəngəzurda artıq hər şey bitib."*

*«Həlak olmuş Zəngəzur müsəlmanları sizə cansağlığı diləyirlər. Zəngəzurlular nə qədər ağlasalar da, onların iniltisi cavabsız qaldı, heç kəs onların köməyinə gəlmədi. Qadınların döşləri kəsilib, uşaqların başları kəsilib, bədənləri qan içindədir. Ermənilərin əllərinə düşən gözəl qızlar zorlanır. Zəngəzurda düşmənə müqavimət göstərmək üçün kişilər həddindən artıq azdır və onların kənardan köməyə bütün ümidlərini itiriblər».*

*«Bu gün axşam vaxtı qəza rəisi ili birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Ermənilərin döyüş meydanında qalmış ölüləri arasında bir neçə ingilis əsgəri də vardı. Xocahan və Zabux arasındakı bütün yüksəkliklər ermənilər tərəfindən tutulmuşdur. Əkərə çayının sağ sahili boyu üçüncü polis sahəsi tamamilə toplarla və pulemyotlarla məhv edilmişdir. Bu gün Zəngəzur qəzasının dördüncü polis sahəsinin sağ qalan hissəsini ermənilər mühasirə ilə kəsib ayıraraq onun da axırına çıxırlar. Zəngəzurda tam hakimiyyətsizlik hökm sürür. Döyüşmək və müqavimət göstərmək üçün heç bir vəsait yoxdur. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə, sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Qarabağın dağlıq hissəsinin erməniləri surətlə üsyana hazırlaşırlar. Hökumətin cinayətkarcasına fəaliyyətsizliyi Zəngəzur və Qarabağın məhvinə gətirib çıxarıb. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain xatisovların təntənəli ziyafətləri, Azərbaycanın erməni*

*təbəələrinin həyasızlığı yetər. Xahiş edirəm təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir.»* ARDA:f. 895, siyahı 1, iş 299, vərəq: 8-12, 18, 20, 22, 26, 31-33.

**75. Azərbaycan Parlamentində Andraniklə bağlı hansı qərar verilmişdi?**

Parlamentin Həsən bəy Ağayevin sədrliyi və Əhməd Cövdət bəyin katibliyi ilə 20 dekabr 1918-ci ildə keçirilən dördüncü fövqəladə iclasının stenoqramından məlum olur ki, deputatların tələbi ilə Andronikin Zəngəzurda törətdiyi vəhşiliklərə dair məsələ müzakirə olunur.

Baş nazir Fətəli Xan Xoyski: - *Zəngəzur əhvalatı təzə bir şey deyil. Bu çoxdan başlamış bir işdir. Burada oturan məbuslara məlumdur ki, vaxtilə bir para ermənilər tərəfindən Qarabağ haqqında bir məsələ qaldırılmış idi. Hələ iyul ayında Andranik başına bir dəstə çiteçi yığaraq İrəvan quberniyasından Gəncə quberniyasının hüduduna keçdi. Buranı deməliyəm ki, Andranik Türkiyə təbəəsidir. O vaxt Azərbaycan hökuməti hələ Gəncədə ikən erməni hökumətinə müraciətlə isticvab etmişdi ki, Andranik sizin tərəfinizdən iş görür, yoxsa bu hərəkətlər onun öz təşəbbüsüdürmü və onun qoşunları erməni hökumətinə tabedirmi, yoxsa onun hərəkətləri, şəxsi təşəbbüsləri və adi üsyan kimidirmi? Erməni hökuməti cavab verdi ki, Andranikin erməni hökuməti ilə heç bir əlaqəsi yoxdur, özü də bir asidir. Erməni hökuməti özü də onun rədd edilməsini və üsyanın yatırılmasını istəyir. Fəqət, gücü yoxdur, iş görə bilmir. Sizə məlumdur ki, Andranik iyul ayında Zəngəzur mahalında böyük fənalıqlar yaparaq bir çox köyləri dağıtdı, nəhayət Şuşa qəzasına keçərək Əsgəran yolunu bağladı. O zaman böyük fəlakətlər çıxırdı. Fəqət Azərbaycan hökumətinin əsgəri qüvvəsi o zaman yalnız Bakı məsələsinə münhəsir idi. Ona görə də ancaq Gəncədən iki dəfə erməni, müsəlman deliqasiyonu*



*göndərdi. Lakin bundan bir şey çıxmadı. Andranik öz işində davam edirdi. Sentyabr ayında Bakı alınandan sonra hökumət buraya köçdü və dərhal bu məsələyə diqqət verərək, özünə borc bildi ki, Andranik məsələsinə xitam versin. Ona görə də çeteçilər müqabilinə bir miqdar əsgəri dəstə göndərdi.*

*Qoşunumuz müharibə nəticəsində Andraniki Əsgərandan çıxarıb, tamam Şuşa uyezdindən və Zəngəzur mahalının çox yerindən qovdu. Andranik qaçdı. Demək istəmədiyim bəzi səbəblərə görə biz bundan sonra artıq yürüşümüzü dəvam etdirə bilməz idik. Bu oktyabr ayında idi. O zaman sakitlik hökmfərma idi. Andranik Gorusda idisə, heç bir fəaliyyətdə bulunmurdu. Noyabrın ortalarında işlər tamamilə dəyişdi və müttəfiqlərin təklifinə görə türk əsgərləri Azərbaycanın hər yerindən çıxıb getdi. Ovza dəyişib əhval qeyri-müəyyən oldu. Noyabrın 20 və 23-dən sonra Andranik yenə baş qaldırıb, ayın 25-dən sonra fəlakətlər çıxarmağa başladı, böyük xətalar əmələ gəldi. Bu xüsusda mənə gələn teleqramlar qəzetlərdə vardı, hamınıza da məlumdur ki, Zəngəzur mahalında nə qədər kəndlər dağıldı, yandı, əhaliyə nə qədər böyük zərər və xəsarətlər dəydi, şübhəsiz ki, bu işlərə hökumət laqeyd baxa bilməzdi. Biz öz tərəfimizdən lazım və mümkün olan qədər çalışıb tədbirlər gördük. Onların müqabilinə əsgəri qüvvə göndərilməsi barəsində teleqrafən binagüzarlıq etdik. Eyni zamanda borc bildim, müttəfiqlər nümayəndəsi general Tomsona məlumat verim. Çünki o mənə də*

*deyib, qəzetlərdə də xəbər veribdir ki, müttəfiqlərin məqsədi Qafqaziyada sülh və müsalimi davam etdirməkdir...*

*General Tomsona lazım gələn məktublar yazılıb, əsgəri qüvvələrimizin silah gücü ilə hərəkət etməsi əmri verilib, bir çox başqa tədbirlər də görülmüş, onların hamısını burada söyləməyə lüzum görmürəm. Andranikin başında olan dəstə çetə və quldur dəstəsindən ibarətdir. Bunların nə fikirdə olduqları və bu fikrin də müəyyən olduğu məlumdur. Bunların aşkar fikirləri budur ki, Zəngəzur və Şuşa uyezdlərini Azərbaycandan ayırıb, Ermənistana mülhəq etsinlər. Bacardıqları qədər bu yolda işləyirlər. Bunların qarşısına qüvvə göndərdikdə bir müddət sakit olub, yenə fürsət tapdıqda öz fikirlərində sabit olub əməllərinə nail olmaqdan ötəri işə başlayırlar.*

*Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə bir məsələnin həlli üçün silaha sarılmaq lazım gəlmiş isə də, biz özümüz deyil, bizi məcbur etmişlər.*

*İxtilaflı sərhəd məsələlərinin sülh yolu ilə həll olunmasını təklif etmişik. Başqaları ilə hər bir məsələni sülh ilə həll etməyə çalışmış, Azərbaycanda nə erməni, nə müsəlman, nə də başqalarının qanı tökülməmək üçün əlimizdən gəldiyi qədər səy etmişik. İndi də heyət göndərib məsələlərin sülh ilə həll olunmasına mümkün qədər çalışmalıyıq. Lazımi təqdirdə silaha sarılsaq, hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər. Hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh ilə hər məsələnin xitamə yetməsinə çalışmaq, hökumət şimdi də belə müamilədə bulunacaqdır. Əks surətdə hökumət özü, öz gücü ilə, qüvvəsilə Azərbaycan Hökumətini hər bir təcavüzdən mühafizə edəcəkdir.* (Mərkəzdən, sağdan alqış).Sədr - Söz Əhməd Cövdətindir.

*(Digər çıxışlar da bu məzmunda olur, Andranik məsələsinin sülh yolu ilə həllinə səy göstərmək təklifi üstünlük təşkil edir-H.N.)*

### 76. Pristav Şahsuvar bəy kim idi?

Pristav Şahsuvar bəy Həzrətqulu bəy oğlu Kələntərov (əslində Hüseynbəyovdur) 1880-ci ildə Zəngəzur qəzasının Xocamsaxlı kəndində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almış, ardını Yelizavetpol (Gəncə) klassik gimnaziyasında davam etdirmişdi. Şahsuvar bəy 19-cu əsrdə ali təhsil almış ilk azərbaycanlı gənclərdən biri idi. O, 1906-cı ildə Kiyevdə Müqəddəs Vladimir Universitetinin hüquq fakultəsini bitirmişdi. 1911-ci ildən Zəngəzurun Dondarlı nahiyəsinin polis pristavı idi. Şahsuvar bəy savadlılığı və ədalətliliyi ilə el-oba arasında hörmət qazanmışdı. Bilik, bacarıq, nüfuzuna görə 1918-ci ildə Zəngəzur qəzasının mərkəzi Gorus şəhərinin polis rəisi vəzifəsinə irəli çəkilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman Şahsuvar bəy Zəngəzur qəzasının rəis müavini vəzifəsində fəaliyyət göstərmişdi. O, qəzanın ən nüfuzlu şəxslərindən biri kimi ermənilərə qarşı silahlı mübarizədə xidmətlər göstərmiş, məşhur xalq qəhrəmanı, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun böyük qardaşı Sultan bəy Sultanovun yaxın dostu və silahdaşı olmuşdu. 1919-cu ildə Sultan bəy Laçında Zabıx çayı vadisində qaniçən daşnak generalı Andranik Ozanyanın ordusunu darmadağın edilməsində ağıllı plan, məsləhətləri və şəxsi şücaəti ilə məşhurlaşmışdı. Şahsuvar bəy erməni-daşnak qüvvələrinin Qarabağa hücumlarının qarşısının alınmasında xalqımıza köməyə gəlmiş türk generalı Nuru paşayla bərabər vuruşmada qəhrəmanlıqlar göstərmişdi. Odur ki, Nuru paşa ona “Kələntər” (farsca “böyük” sözündəndir, “hakim,” “başçı” deməkdir) adı vermişdi. Kələntərov soyadı bu faktla bağlıdır.

A-do (Hovannes Ter-Martirosyan) "Qafqazda erməni-türk toqquşmaları: sənədli, statistik, topoqrafik izahlarla" (İrəvan, 1907, ermənicə) əsərində yazır: *"Ermənilərin Sisian, Ağudi, Dərəbas və digər kəndlərdə törətdikləri vəhşiliklər öz növbəsində azərbaycanlıları da qisas almağa vadar edirdi. Azərbaycanlılar xəbər almışdılar ki, məşhur quldurbaşı Keri Əngələkət*

*(Angeğakot) kəndindədir və onun başçılığı ilə türk kəndlərinə yeni hücum hazırlanır. 1906-cı il yanvarın 6-da Ağudu, Vağudi, Urud, Şəki və digər kəndlərdən yığışmış türklərin böyük bir dəstəsi Əngələkət kəndinə hücum edir. Dəstəyə Şahsuvar bəy başçılıq edirdi"*

Andronikin dəstəsində məşhur Stepan varmış, olduqca əzazil birisi imiş. Şahsuvar bəyə xəbər çatdırırlar ki, Stepan qonşu kəndlərin birində növbəti vəhşiliklərini törədib, silahsız insanları qətlə yetirib, məscidə toplaşan camaatı işgəncələrə məruz qoyub. Heç kimə bir söz demədən beşatılanı götürüb atına minir və hadisə baş verən kəndə doğru çapır. Tabeliyindəkilər də Şahsuvar bəyi at belində, əlində beşatılan görüb niyyətini anlayır, atlanıb arxasınca çapırlar. Stepanın dəstəsi ilə qarşılaşanda atışma baş verir. Şahsuvar bəyin gülləsi Stepanı yerə sərir. Dəstəbaşının xurcunundan yarımçıq araq şüşəsi çıxır. Hadisənin təfərrüatı əhali arasında sürətlə yayılır. Camaat Şahsuvar bəyi böyük təntənə ilə qarşılayır, başları üstünə qaldırıb gəzdirir, şənlik edirlər. Əhvalat yumorlu şeir misralarına çevrilib xalqın dilində dolaşırdı:

*Şahsuvar bəy beşatılan bağladı,*
*Ermənilər zarı-zarı ağladı.*
*Hayın getdi, vayın qaldı, İstepan,*
*Bodulqada payın qaldı, İstepan.*

Azərbaycan Cümhuriyyəti devriləndən sonra bolşeviklər Şahsuvar bəyi həbs etmək istəsə də, camaatın ciddi müdaxiləsi ilə bu baş tutmur. Növbəti cəhddə qohumu Xansuvar bəy məsələdən xəbər tutan kimi əlində tüfəng özünü dərhal hadisə yerinə çatdırır, qırmızı komandirin cilov gəmirən atını tüfənglə vurub gəbərdir. Şura hökumətinin nümayəndələrinə də səslənərək deyir: *"Kim Şahsuvar bəyə toxunmağa cəhd edərsə, onu da bu at kimi gəbərdəcəm"*. Bu əhvalatdan sonra hökumət Şahsuvar bəyi həbs etmək fikrindən daşınır. O, qızı Arəstəni həmin cəsarətli qohumu, təəssübkeşi Xansuvar bəyə ərə verir.

Şahsuvar bəy ev dustaqlığına alınır. Camaat onun "mühafizəsini" boynuna götürən nankorun layiqli cəzasını verir.



Azərbaycanda sovet hökumətində vəzifə sahiblərindən olan Nəzər Heydərovun zəmanəti ilə Şahsuvar bəyə sərbəstlik verilir. O, 1929-cu ildə vəfat edir.

Şahsuvar bəyin vəfatından sonra təqiblər ucbatından qızı Arəstə xanım Yevlax rayonun Malbinəsi kəndində məskunlaşır, kolxozda işə düzəlir. Fərasətli gənc xanım olduqca qısa zamanda özünü fəal işçi kimi təsdiq edir, ferma müdiri, kolxoz sədri seçilir. Yorulmaq bilməyən bu xanımın sayəsində kolxoz respublikanın ən qabaqcıl təsərrüfatlarından birinə çevrilir. Azərbaycan Kommunist Partiyasının qurultayında Arəstə Hüseynovanın çıxışı Mir Cəfər Bağırovun xoşuna gəlir, onun təklifi ilə Arəstə xanım Azərbaycan KP MK-nın üzvü seçilir. Ertəsi gün Bağırova onun kimliyi haqqında geniş bir arayış təqdim edən Xalq Daxili İşlər Komissarlığının sədri bildirir ki, ölkə rəhbərinin namizədi Azərbaycan Cümhuriyyətində Zəngəzur qəza rəisinin müavini işləmiş məşhur Şahsuvar bəyin qızıdır. Bağırov da qəzəblə göstəriş verir yoxlasınlar bəy qızı Arəstə xanım bu qurultaya necə gəlib düşüb. Araşdırırlar və öyrənirlər ki, xanımı qurultaya nümayəndə kimi o zaman məsul vəzifədə çalışan yazıçı Əli Vəliyevin tövsiyəsilə göndəriblərmiş. Əli Vəliyevi sorğuya çəkirlər, o da izahatında bildirir Şahsuvar bəy sovet hökumətinə müqavimət göstərməyib, öz əcəli ilə rəhmətə gedib, qızı da sovet hökuməti üçün təsərrüfat işlərində fəallıq göstərir və s. Əli Vəliyevdən əl çəkirlər. Arəstə xanım isə MK-nın rəsmən üzvü qalsa da, onu MK-nın qurultayarası dövrlərdə keçirilən plenum

yığıncaqlarının heç birinə dəvət etmirlər. Sinfi mənşəyinə görə bir müddət bu etimadsızlıq mühitində çalışmalı olur.

Şahsuvar bəyin adı övladlarını yenə də bir müddət təqib qorxusu altında saxlayır. 1951-ci ildə nəvəsi, sevimli şairimiz, Dövlət mükafatı laureatı Qasım Qasımzadəni babasına, sinfi mənşəyinə görə aspiranturadan çıxarmış, sonradan Ali Sovetin Rəyasət Heyətinin sədri Nəzər Heydərovun müdaxiləsi ilə aspiranturaya bərpa etmişdilər.

İlahiyyatçı-alim Nəriman Qasımzadə və bəyin digər törəmələri müxtəlif vəzifələrdə vətənə, xalqa ləyaqətlə xidmət edirlər.

**77. İngilis jurnalisti Skotland-Liddell Zəngəzurda gördükləri barədə nələr yazmışdı?**

O, 1920-ci ilin qanlı yanvar günlərində Zəngəzura gəlib törədilən qırğınları şəxsən görüb yanvarın 30-da Tiflisdə bölgəyə səfərində gördüklərini «Müsəlmanlarla müharibə, ermənilər yenidən hücum edirlər» adlı məqaləsində vicdanlı obyektivliklə qələmə almışdı. İngilis jurnalisti yazırdı ki, *«...hər iki hökumət tərəfindən Tiflisdə noyabrın 23-də müqavilə imzalanmışdı və bütün mübahisəli məsələlər Böyük Dövlətlər tərəfindən həll edilənədək hər iki tərəfin sülh şəraitində yaşayacağına ümid yaranmışdı. Lakin müqavilənin imzalanmasının ardınca ermənilər dərhal Azərbaycan ordusunun geri çəkilməsindən istifadə edərək Zəngəzurda qırxadək müsəlman kəndini darmadağın etdilər, doqquz müsəlman kəndini də Şuşa yolu üstündə darmadağın etmiş, əhalinin böyük əksəriyyətini isə vəhşicəsinə öldürmüşlər. Azərbaycan hökuməti bununla bağlı etirazını bildirsə də, Ermənistan hökuməti bu faktları rədd edən cavab aldı... Ermənistan ona görə bədbəxtdir ki, «Daşnaksutyun» partiyası orada qüvvədədir. Bu uzun illər erməniləri müsəlmanlara qarşı hücum etməyə sövq edən inqilabçı terror təşkilatıdır. Ermənilər bacarıqlı müntəzəm təbliğat vasitəsilə layiq olmadıqları həddə rəğbət qazanırlar. Ermənistan həmişə dava-dalaş axtarır və ona*



*nail olanda təbliğat məqsədilə deyirlər ki, amandı qoymayın qırdılar bizi. Daşnak üçün öldürülmüş erməni daha əzizdir. Bundan istifadə edərək, ermənininin ölüsü qalxıb haray – həşir təpir ki, ayə mən özüm ölməmişəm, məni müsəlmanlar öldürüblər... Londonda, Fransa, Birləşmiş Ştatlarda erməni büroları mövcuddur, onların ən sevimli metodu «xristian» sözündən istifadə etməkdir. İndi Zəngəzura hücum edən ermənilər özlərinin müvəqqəti uğurlarına şübhə etmirlər. Lakin gün gələcək ki, bütün müsəlmanlar bir nəfər kimi zülmkarlara qarşı qalxacaq və həmin gün gələndə heç nə erməni xalqını xilas edə bilməyəcəkdir».*

**78. Azərbaycan və Ermənistanın hökumət başçılarının imzaladığı sazişin mətnində nə nəzərdə tutulmuşdu?**

1919-cu il 23 noyabrda Tiflisdə Azərbaycan və Ermənistanın hökumət başçıları ABŞ və Gürcüstan təmsilçilərinin də iştirakı ilə atəşi dayandırmaq barədə sazişə qol çəkirlər. Sazişin mətni belədir: *«Ermənistan hökumətinin nümayəndəsi baş nazir Xatisov və Azərbaycan hökumətinin nümayəndəsi baş nazir Usubbəyov arasında qarşılıqlı saziş imzalanmışdır. Ermənistan hökumətini təmsil edən baş nazir Xatisov və Azərbaycan hökumətini təmsil edən baş nazir Usubbəyov bu sazişi Tiflis şəhərində 1919-cu il noyabrın 23-də aşağıdakılar barədə imzalamışlar: Ermənistan və Azərbaycan hökumətləri indi baş verən düşmənçilik hərəkətlərini dayandırmağı və bir daha silaha əl atmamağı öhdələrinə götürürlər. Ermənistan və Azərbaycan hökumətləri dinc mal mübadiləsi üçün Zəngəzura aparan yolların təmiri və açılması*

*məqsədilə təsirli tədbirlər görməyə razıdırlar. Sərhəd məsələləri də daxil olmaqla, bütün mübahisəli məsələlər ilə bağlı növbəti paraqrafda xatırladılan konfrans tərəfindən qərar qəbul edilənədək Ermənistan və Azərbaycan hökumətləri bu məsələləri sülh sazişləri vasitəsilə həll etməyi öhdələrinə götürürlər. Əgər bunu yerinə yetirmək mümkün olmazsa, hər iki hökumətin qərarına tabe olmağa razılaşdığı hakim kimi hər hansı bir neytral tərəf seçilməlidir. İndi belə bir neytral tərəf Birləşmiş Ştatların ordu polkovniki Ceyms Reydır. Ermənistan və Azərbaycan hökumətləri təcili surətdə çərşənbə günü, noyabrın 26-da Bakıda görüşməli və Tiflisdə konfransın başlanmasını dekabrın 4-dən təxirə salmamalı, bərabər sayda nümayəndə təyin etməyi öhdəsinə götürürlər. Ümumi razılığa əsasən konfransın keçiriləcəyi yer dəyişdirilməzsə, konfransın iclasları Tiflisdə davam edəcəkdir. İki hökumət arasında mübahisə və ixtilaflara səbəb olan bütün məsələlər bu konfransın müzakirə obyekti olacaq. Konfrans bu və bu qəbildən olan bütün məsələləri saziş və arbitraj yolu ilə həll etmək hüququna malik olacaqdır. Bu müqavilə imzalandığı gündən qüvvəyə minir, hər iki hökumətin parlamentləri tərəfindən təsdiq edildiyi gündən daimi sayılır. Ermənistan və Azərbaycanın baş nazirləri öhdələrinə götürürlər ki, onların hökumətləri yuxarıda ifadə olunmuş müqavilənin bütün bəndlərini dönmədən müdafiə edəcək və yerinə yetirəcəklər. Bunu sübut etmək üçün onlar bu müqaviləni imzalayırlar. Müqavilə üç nüsxədə: ingilis və rus dillərində, Tiflisdə 1919-cu il noyabrın 23-də tərtib edilmişdir. Onun bir surəti müttəfiqlərin ali komissarının nümayəndəsinə, bir surəti Ermənistanın baş nazirinə, bir surəti isə Azərbaycanın baş nazirinə göndərilir. A.Xatisov, Ermənistanın baş naziri, N.Usubbəyov, Azərbaycanın baş naziri aşağıdakıların iştirakı ilə imzalanmışdır: Gürcüstanın xarici işlər nazirini əvəz edən müvəqqəti baş nazir, Müttəfiqlərin ali komissarı-Birləşmiş Ştatlar Ordusunun Baş qərargahının polkovniki».*

Bu müqavilənin də ömrü gödək oldu. Ermənilər xislətlərindən əl çəkmək fikrində deyildilər. AXC Hökuməti və Parlamenti

rəhbərlərinin humanist, insani, səmimi, əxlaqlı mənəviyyatına yaxşı bələd olan ermənilər Azərbaycan tərəfinin bu sazişə də, verdikləri vədə əməl edəcəklərinə də əmin idilər. Tiflisdə imzaların heç mürəkkəbi qurumamış AXC Hökuməti az sayda qüvvələrini Zəngəzurdan geri çəkdi. Qaniçən Njdenin quldur dəstələri bundan istifadə edərək, Zəngəzurun aşağı Qafan, Meğri, Qubadlı bölgəsini qan içində boğdu. Yuxarı Zəngəzurda Andranikin axıtdığı qanlar hələ soyumamışdı. Hökumət növbəti dəfə dəhşətli şəkildə aldanmış, Naxçıvanla Azərbaycanın qalan hissəsi ermənilərin əlinə keçmiş, 4 mindən çox insan amansızlıqla qətl edilmişdi.Xarici İşlər Nazirliyi isə nota, şikayət yaymaqda idi.

Azərbaycanın Xarici İşlər Naziri Məmmədyusif Cəfərov noyabrın 29-da Ermənistan xarici işlər nazirinə Ermənistan hökumətinin 23 noyabr sazişinə xilaf çıxdığına görə etiraz teleqramıda deyilirdi:“*Noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətlərinin nümayəndələri arasında Zəngəzurda silahlı toqquşmaları dərhal dayandırmaq və bütün mübahisəli məsələlərin həllini çağırılacaq Azərbaycan Ermənistan konfransının öhdəsinə buraxmaq barəsində razılaşma olmuşdur. Bununla yanaşı indi Sizin hökumətin qoşunları tərəfindən Zəngəzurda Oxçu, Pirdavidan, Atqız, Şabadin, Anişu və Quşçular kəndlərinin talan edilməsi haqqında məlumat alınmışdır. Çoxlu ölənlər var, Girətağ kəndi və bütün ətraf müsəlman kəndləri ilə bütün əlaqələr kəsilmişdir və bu kəndlər erməni quldur dəstələri tərəfindən mühasirəyə alınmışdır”.*

Belə eyni təslimçilik, acizlik, ürkəklik Baş nazir F. Xoyskinin 4 fevral 1920-ci ildə Ermənistanın Baş naziri Xatisova ünvanladığı teleqramda da görünür:*«Zəngəzur müsəlmanlarının tamamən yox edilməməsi üçün Azərbaycan Ordusundan bir miqdar əsgəri qüvvə o bölgəyə göndərilmişdir və bu, 23 noyabr 1919-cu il anlaşmasına zidd deyildir»...*Bu da gecikmiş qərar idi.

**79. Əyyub Abasovun "Zəngəzur" romanında tarixi gerçəkliklər necə əks olunub?**



Bədii ədəbiyyatımızda ermənilərin Zəngəzurda törətdiyi soyqırımı obyektiv əks etdirən ən mükəmməl əsər, heç şübhə yoxdur ki, istedadlı yazıçı, Azərbaycan SSR əməkdar incəsənət xadimi Abbasov Əyub Cəbrayıl oğlunun iki cildlik, 980 səhifəlik "Zəngəzur" romanıdır. Ə.Abbasov 1905-ci Zəngəzur qəzasının Şəki kəndində anadan olmuşdur. İki il kənd məktəbində oxuyub. 13 yaşında olarkən general Andranikin Zəngəzurda törətdiyi qanlı qırğınların canlı şahidi olub, valideynlərini, iki qardaşını, çox sayda əzizlərini itirib. 1918-ci il avqustun 15-də kəndin camaatı elliklə arpa biçinində olarkən ermənilərin qəfil hücumuna məruz qalmış bu kənddə əhalinin yarıdan çoxu qətlə yetirilmişdir.

"Zəngəzur"dan alınan bu parçada ermənilərin onları gözləyən dəhşətli bəlalardan, hər şeydən xəbərsiz dinc müsəlman əhaliyə qarşı apardığı qanlı soyqırım və deportasiyanın fəlakətli mənzərəsi görünür: *"Qızılcıq kəndində hələ bu gecəki qədər adam olmamışdı. Evlər, küçələr, xırmanlar adamla dolmuşdu. Onlar yayın bu gözəl gecəsində bu kəndə qonaq deyil, ölümün pəncəsindən qurtulub gəlmişdilər. Bu adamlar dağıdılmış, yandırılmış ayrı-ayrı kəndlərdən: Şəkidən, Ağudidən, Vağüdidən, Uruddan, Qarakilsədən gəlmişdilər. Hamısı Andronikin topunun, tüfənginin ağzından qurtarmışdı. Lakin fəlakət onları yenə izləyirdi..."bala, vay", "bacı, vay","ata, vay", "yazıq balam, qaldı", "yurdum, komam yandı", "çö-rək..." fəryadı, ürəkləri yandıran ah-naləsəsindən qulaq tutulurdu...bu ətrafda yeməyə ot da, gicitkan da qalmayıb... Andronik qoşununu və erməni əhalisini*

*Gorusda bir meydana toplayıb "qələbə" münasibəti ilə onları təbrik etmiş və demişdi: "Gördünüzmü, Türkiyədə qırılan ermənilərin intiqamını Zəngəzur müsəlmanlarından necə alıram! İndi mən qalan müsəlman kəndlərinin də daşını daş üstə qoymayacağam."*

Daşnaklar Andronikə tabe olmayanları *"siz erməni deyilsiniz, millət xainisiniz, dəstəmizə qoşulmasanız, türklər sizi qıracaq"* - deyə hədələyirdilər. Andranikin bircə məqsədi, ideyası olub və bunu da həyasızcasına bəyan edib: *"Türkü öldürmək cinayət deyil, qəhrəmanlıqdır"*.

Andronik komandanlığında erməniləri silahlandırıb, şirnikləndirib Zəngəzura (həm də Cənubi Azərbaycana, Naxçıvana, İrəvana, Qarabağa...) göndərənlərin iç üzü, məramı kitabın bu parçasında bütün açıqlığı ilə aydın görünür. Andronikin gəlişi belə təsvir edilir:

*"...58-60 yaşlarında, orta boylu, enli kürəkli, başı-bığı çallaşmış, rus generalı paltarında bir adam içəridən balkona çıxdı. Onu görən kimi hamı:-Andronik paşa! Andronik paşa! – deyə əl çaldı.Andronik əlini qaldırıb onların sakit olmalarına işarə etdi. Hamı sakit olub, gözünü ona dikdi. Andronik dedi:-Qaxdaqanlar!(ermənicə qaçqın deməkdir-H.N)Elindən, kəndindən ayrı düşmüş ermənilər! Mən sizin dərdinizi bilirəm. Yaşamağa eviniz, əkməyə torpağınız, yeməyə çörəyiniz yoxdur. Siz onları Ərdəhanda, Qarsda, Sarıqamışda qoydunuz. Burda isə sizin dərdinizə ağlayan, qeydinizə qalan yoxdur. İndi məndən kömək istəməyə gəlmisiniz. Mən əlimdən gələni eləyəcəyəm. Mən sizi bu hala salan türklərdən Türkiyədə intiqam ala bilmədimsə, Qafqazda, bax, bu Zəngəzurda alacağam."*

"Zəngəzur"dakı bu sözlər 1952-1954-cü illərdə o zaman yazılıb nəşr olunmuşdu ki, Ermənistan SSR-in və dünyanın bütün ölkələrinə səpələnmiş erməni başbilənləri guya 1915-ci ildə Anadoluda türklər tərəfindən ermənilərin soyqırıma məruz qalmasının ildönümlərinə açıq və gizli şəkildə ciddi hazırlıqlar görürdü. Q.Qəribçiyanın, S.Xanzadyanın, A.Mikoyanın,

İ.Baqramyanın kitablarında Andronikin artıq "Xalq Qəhrəmanı", "Erməni xalqının Xilaskarı" obrazı yaradılırdı. Müəllif həqiqətin bədii inikası olan detallarla yeni qurulan Ermənistan Milli Şurasının məramını da ustalıqla göstərir. General Karo Hamparsumyan başda olmaqla, Şuranın nümayəndələri də dinc müsəlman əhaliyə qarşı eyni fikirdədir: *"Andronik ermənilərə millətçilik və başqa xalqlara qarşı ittiham hissi aşılamaqda bizim məqsəd və ideyamıza yaxındır."*

Bununla onlar Andronikin etnik təmizləmə, deportasiyaya yönələn cinayətlərinin onların da ürəyincə olduğunu, siyasi məramları ilə eyniyyət təşkil etdiyini etiraf edirlər. Bu isə qaniçənlikdə heç də Andronikdən geri qalmayan general Karonun fikirləridir: *"əsas vəzifə şüarımızı unutmamaqdır. "Makrel sırpel", yəni süpürüb atmaq. Ermənistanda ancaq ermənilər yaşaya bilər. Müsəlmanlar, ruslar ölkədən təmizlənməlidir. Andronikin başladığı, lakin axıra çatdırmadığı işi Xatisov hökuməti başa vuracaqdır."*

Zəngəzurda siyasi vəziyyəti əks etdirən arxiv sənədləri ilə müqayisə, paralellər aparmaq üçün romandakı bu sətirlərin tarixi gerçəkliyi nə qədər düzgün əks etdirdiyi üzərində düşünməyə dəyər: *"...Müsavat hökuməti ilə daşnak hökumətinin arasındakı dava çox uzun sürmədi. Müsavat qoşununun biabırcasına məğlubiyəti ilə qurtardı....erməni kəndləri dağılmadı, əhali öz yurdundan, evindən qaçqın düşmədi....Müsavat qoşununun məğlub olmasının səbəbləri o idi ki, daşnak ordusunun komandanlığı daha cəld hərəkət etmişdi. Ermənilərin müsavatdakı agentinin məlumatını əsas tutaraq, müsavat əsgərlərinin arxasına gözlənilməz yerdən əsgəri hissələr çıxarmışdı, eyni gündə Naxçıvandan Zəngəzura hücum etməli olan Naxçıvan polku yubanmışdı...erməni kəndlərinin adamları Baqratın başçılığı ilə dəstələr düzəldib onları qarşılamışdı. Bir neçə gün davam edən davadan sonra polk komandirini əsir alıb öldürmüşdülər.Bunu bilən müsavat əsgərləri arasına pərakəndəlik düşmüş, ölən ölmüş, sağ qalanlar qaçıb yenə Əriklini o tərəfə aşmışdılar."*




Ə.Abasov cəsarətlə əsrin əvvəlində və sonunda Azərbaycanın başına gətirilən müsibətlərin haradan gəldiyini obrazın dili ilə açıq söyləyir: *"Sözümün canı bundadır ki, gərək Şimal tərəfdən üstümüzə axıb gələn selin qabağını alaq! Bəli, bulanıq selin..."*

Həm də çar Rusiyasının Zəngəzurdakı pristavı Timofey Timofeyeviç Karpov şərait dəyişən kimi, burjua inqilabından sonra mərkəzin tapşırığı ilə dönüb olur daşnak Andronik qoşunlarının kəşfiyyat rəisi, 1-ci məsləhətçisi, plan quranı, sonra da bolşevikləri qarşılayır. “Zəngəzur qubernatorluğu"nun əsas nüfuz sahiblərindən biri Karpov olduğu kimi, bolşevik Rusiyasının Zəngəzurda yaratdığı Tatev şura hökumətinin də başçısı, qızıl ordunun polk komandiri Gerasimov idi.

“Zəngəzur” romanı zəngəzurluların XX əsrin əvvəlində və sonundakı halına aydın ayna tutur. Talesizliyə bax ki, tarix təkrar olundu; məqsəd, məzmun da, forma da eynidir, dəyişən dövr, zamandır və bir də xalq, dövlət olaraq başımıza gələn, gətirilən faciələrdən ibrət ala bilməməyimiz və bu faciələri yenidən təkrar yaşamağımızdır.“Zəngəzur” romanının müəllifi Ə.Abbasov Zəngəzurun vurğunu idi, qəhrəmanının dili ilə deyirdi: *“Çayın şırıltısı, ulduzların parıltısı, cırcıramaların nəğməsi, yaşıl çəmənlik, ətrafdakı sıra dağlar, yaşıl yamaclar-hər şey, hər şey həyata vurğun könülləri dilə gətirir. Sən nə sevimlisən, a mənim yurdum! Mən sənin hər bir qarış torpağında gördüyüm və duyduğum gözəlliyi bir yerə toplamağa qadir olsaydım, dünyaya göstərib deyərdim: baxın, görün, Zəngəzuru gözəllik və təbii sərvətlər diyarı adlandırın!”*

Zəngəzur camaatı faciələr yurdu Zəngəzurun yenidən gözəlliklər diyarına çevriləcəyi günü həsrətlə gözləyirlər.

**80. Azərbaycan Cümhuriyyəti Hökuməti 1918-1920-ci illərdə Zəngəzurda qırğınların, torpaq itkilərinin miqyasını azalda bilərdimi?**

AXC Hökuməti Osmanlı, Qafqaz İslam Ordusunun fəal yardımı ilə artıq milli silahlı qüvvələrin müəyyən qədər formalaşmış olduğu 1919-1920-ci illərdə Zəngəzurda qırğınların, torpaq itkilərinin, heç olmazsa, miqyasını azalda bilərdi. Bu məlumatdan da göründüyü kimi, buna imkanlar da var idi: *“1919-cu ilin dövlət büdcəsində toplanan 1600 446 952 rubldan müdafiə xərcləri üçün 399452 242 rubl ayrılmışdı ki, bu da ümumi büdcənin 27,7 faizinin təşkil edirdi. Gözlənilən təhlükələri nəzərə alaraq 1919-cu ilin iyun ayında Dövlət Müdafiə Komitəsi yaradıldı...1919-cu ildə 25 minlik, 1920-ci ildə 40 minlik ordu yaradılmalı idi. Ordunu milli zabit kadrları ilə təmin etmək üçün 1918-ci ilin iyun ayında Gəncədə hərbi məktəb yaradıldı və bu təhsil müəssisəsi 1919-cu ilin noyabr ayında hərbi uçilişə çevrildi. Uçilişin üç şöbəsində-ümumi, topçuluq və mühəndislik şöbələrində 250 müdavim oxuyurdu. 1919-cu ilin sonunda, 1920-ci ilin əvvəlində kovalyer, topçuluq və snayper uçilişləri yaradıldı. Bu tədris müəssisələrində dərs demək üçün mütəxəssislər dəvət edildi. 1918-1920-ci illərdə türk və rus zabitlərininköməkliyi ilə piyada və atlı alaylar, artilleriya briqadası, diviziyası yaradıldı. 1919-cu ilin sonunda milli ordunun tərkibində 2 piyada diviziyası, bir süvari diviziyası var idi. Birinci piyada diviziyasına birinci Cavanşir, ikinci Zaqatala və üçüncü Gəncə alayları daxil idi. İkinci piyada diviziyasına dördüncü Quba, beşinci Bakı və altıncı Göyçay alayları daxil idi. Şirvan alayı bazasında üçüncü piyada diviziyasının yaradılmasına başlandı. Birinci Tatar, ikinci Qarabağ və üçüncü Şəki atlı alayları bazasında süvari diviziyası yaradıldı. 1918-ci ilin iyul ayının 6-da Azərbaycan Demokratik Respublikası hökumətinin pullu hərbi mükəlləfiyyət haqqında sərəncamına müvafiq olaraq sıravilərə 50 rubl, yefreytorlara 60 rubl, kiçik unter zabitlərə 70 rubl, unter zabitlərə 90 rubl,*

*feldfebellərə 120 rubl məvacib müəyyən edildi. 1918-ci ilin iyul ayının 11-də milli orduya çağırış haqqında əmr verildi və 1894-1899-cu illərdə anadan olmuş 24-29 yaşlı kişilər səfərbər edildi. Maliyyə çətinliklərinə baxmayaraq milli zabitlər hazırlamaq məqsədi ilə Gəncədə hərbi məktəb yaradıldı. Görülən tədbirlər nəticəsində az vaxt ərzində 40 minə yaxın əsgəri olan milli ordu yaradıcılığına başlandı. O vaxt orduda 24 min süngü, 6 min piyada, süvari, topçu və sairə qoşun növlərindən ibarət olan və ən müasir silahla silahlanan canlı qüvvə, Xəzər dənizində kiçik bir donanma var idi. Orduda hərbi intizamı möhkəmləndirmək məqsədi ilə hərbi nazirliyin yanında divani hərbi, yəni hərbi məhkəmə fəaliyyət göstərirdi. Cənubda təhlükəsizliyi qorumaq üçün Lənkəranda ehtiyat batalyonu və «yardım alayı» milis alayı yaradıldı. ADR Parlamentini mühafizə etmək məqsədi ilə xüsusi bölmə, respublikanın ərazisində asayişi qorumaq üçün mobil dəstələr təsis edildi. Ordunun tərkibinə iki artilleriya briqadası, bir yüngül artilleriya diviziyası, üç zirehli qatar, beş aeroplan, bir neçə hidroaeroplan, altı ağır və zirehli avtomobil daxil idi."*

AXC Hökuməti 1919-1920-ci illərdə sərhədləri boyu fəal hərbi əməliyyatlar aparmırdı.Ermənilər isə bir an dayanmadan Zəngəzurda qətliamlara davam edirdi. Ermənilərə müqavimət göstərmək üçün canlı qüvvə, silah-sursat da düşməninkindən az deyildi.

Şərqdə ilk demokratik respublika qurucularının şərəfli ömür yoluna, tariximiz, xalqımız qarşısında əbədi yaşayacaq müqəddəs bir missiyanı yerinə yetirmələrini sevgi, hörmət duyğuları ilə vurğulamaqla yanaşı, bunu da deməliyik ki, 1919-cu ildə və 1920-ci ilin yanvar-may aylarında Zəngəzurun türk-müsəlman əhalisinə qarşı soyqırımın, erməni-daşnak quldur dəstələrinin törətdikləri vəhşiliklərin, genişmiqyaslı, çoxsaylı qətliamların, kütləvi deportasiyanın, ərazi itkilərinin qarşısının alınması üçün AXC Parlament və Hökuməti öz ixtiyarında olan hərbi potensialdan lazımınca istifadə etməmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, həmin dövrdə “böyük səhv”lərə yol verilmişdir.






**81. Zəngəzurun qərb hissəsi Azərbaycandan necə qoparıldı?**

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin guya kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölündü.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında «Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili» haqqında qərar qəbul edildi.

1921-ci ilin 3 iyununda RK[b]P MK Qafqaz Bürosu Stalinin iştirakı ilə iclas keçirib məxfi qrifli Zəngəzur məsələsini müzakirə etdi, Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərar çıxarıldı. Bu iclasda bir nəfər də olsa azərbaycanlı, müsəlman yox

idi. Əsas məqsəd də Azərbaycanla Osmanlını bir-birindən ayırmaq, Ermənistan ərazisini genişləndirmək idi. Zəngəzurun Azərbaycandan zorla qoparılaraq Ermənistan SSR-ə verilmiş hissəsində Qafan, Gorus, Sisian və Mehri rayonları yaradıldı. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı.

Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-in tərkibində qalmış, 3.637 kv.verstlik hissəsi - 4505 kvadrat kilometr ərazisi Ermənistana verilmişdi.

İ.Stalinin Bakıda AK (b)P MK və Bakı komitəsinin 1920-ci il 9 noyabr tarixli birgə plenumunda – RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı Soveti və s.-nin nümayəndələrinin iştirakı ilə birgə «Zəngəzur məsələsi»nin müzakirəsi zamanı söyləmişdi: *«əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa vermək olar».* Onun belə bir mövqeyini bir sıra digər mülahizələrlə yanaşı, həm də *«Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz»* kimi məkrli fikri ilə izah etmək mümkündür. Rusiya bolşevikləri Azərbaycan-Ermənistan münasibətlərində çox vaxt birmənalı şəkildə erməniləri dəstəkləyirdilər.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının 30 noyabr 1920-ci il tarixli birgə iclasının qəbul etdiyi «tarixi» qərarlara aydınlıq gətirmək məqsədilə orada iştirak edənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir. Q.Orconikidze, Sarkis-S.Ter-Danielyan, Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və b. Həmin iclasda 3-cü məsələ kimi «Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sosvet hakimiyyətinin elan olunması haqqında teleqramı» müzakirə edilmiş və qərar çıxarılmışdı. Həmin qərarın «v» bəndində yazılmışdı: *"Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir".* İcla-

sın və qərarın, demək olar ki, başlıca məqsədi onun mərkəzi bəndində («q») öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçir. Digər bəndlərdə isə yazılırdı: d) Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən, neft haqqında göstərilsin). «J» və «İ» bəndlərində isə N.Nərimanova bütün bunlar barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

**82. M.Ə.Rəsulzadə, Stalin və Orconikidzenin Zəngəzurun ermənilərə verilməsinə dair "Nərimanov bəyanatı"na münasibəti necə oldu?**

Azərbaycanın XI Qırmızı Ordu tərəfindən işğalının ertəsi günü-1920-ci il aprelin 29-da Ermənistan xarici işlər naziri Ohancanyan Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanova göndərdiyi teleqramda Azərbaycan qoşunlarının Zəngəzur və Qarabağın hüdudlarından geri çəkilməsini tələb edən nota göndərmişdi. Azərbaycan da öz tərəfindən Ermənistana bu məzmunda nota vermişdi. Ancaq sükan qırmızı bolşevik rusların əlində idi, əsas ssenarist, quruluşçu rejissor işğalçı ordunun komandirləri S.M.Kirov, Q.K.Orconikidze, M.K.Levandovski, A.İ.Mikoyan, V.Pankratov və b. idilər.

Zəngəzurun ermənilərə verilməsi, əslində isə «bağışlanması» istiqamətində daha bir addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən, təntənəli «tarixi» iclasında N.Nərimanov xüsusi bəyanatla çıxış etdi: *«Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın - kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və*

*müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanın bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanın qoşunları isə buradan çıxarılırlar; Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin - neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır....”*

Bakı Sovetinin həmin iclasının yekdilliklə qəbul olunan qətnaməsində «Nərimanovun Bəyanatı»nın tamamilə bəyənildiyi bildirilir və onun *«...Ermənistanla müsəlman dünyası arasındakı çoxəsrlik düşmənçilik və qanlı müharibələri birdəfəlik aradan qaldırmaqla Güney Qafqaz və bütün Şərq xalqlarının tarixində yeni səhifə açdığı qeyd edilirdi».*

İ.Stalin bu hadisəni belə «izah» etmişdi: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir».

S.Q.Orconikidze Bakı Sovetinin həmin iclasındakı çıxışında «əzabkeş erməni xalqının» Sovet hakimiyyətinin bayrağı altına gəlməsini alqışlayaraq bu bəyanatı «bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt» kimi qiymətləndirmişdi. Həmin çıxışında o, Azərbaycanın strateji bölgələrinin əhəmiyyətini azaldaraq demişdi: «Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir. Zəngəzur məhsulsuz dağlardır, taxılı yox, suyu yox, Naxçıvan bataqlıq və malyariyadan başqa bir şey deyildir, Qarabağda da heç nə yoxdur. Və budur yoldaş Nərimanov deyir: *«Onları özünüzə götürün. Bu məhsulsuz torpaqları Ermənistan üçün götürün». Sanki Sovet Azərbaycanı artıq yükdən xilas olur».*

Q.Orconikidze elə həmin gün PK(b)P MK Qafqaz Bürosunun üzvü-erməni kommunistlərinin liderlərindən biri olan Nazaretyana məlum Bəyanat barədə xəbər yetirdikdə o, «mətbuatda

«Bərəkallah, azərbaycanlılar!»- deyə car çəkməyə başlayacağıq - cavabını vermişdi.

S.Orconikidze 1920-ci il dekabrın 2-də Bakıda verdiyi məlumatda V.Leninə və İ.Stalinə *«Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir»* xəbərini çatdırmışdı.

10 iyun 1920-ci il tarixli RSFSR-lə Sovet Ermənistanı arasındakı hərbi-siyasi müqavilənin 3-cü maddəsində məxsusi yazılmışdı: «Rusiya hökuməti İrəvan quberniyasının, Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır».




Məhəmməd Əmin Rəsulzadə Azərbaycan torpaqlarının ermənilərə verilməsinin, «bağışlanmasının» gələcəkdəki acı nəticələrini görərək yazırdı: *«Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin səxavət-kar ağzı ilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını təntənəli bir sürətdə Ermənistana hədiyyə etdi».*

**83. Erməni tarixçiləri nələri düz yazıblar?**

Erməni tarixçisi B.İşxanyan yazır ki, ermənilərin əsl vətəni – "Böyük Ermənistan” elə "Kiçik Asiya”dır”. Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların nəsli – yerli əhalidir, o biri hissəsi isə Türkiyə və İraqdan olan qaçqınlardır, onlar üçün Azərbaycan torpağı təqib və zülmlərdən sığınacaq yeri olmuşdur. Z. Balayan etiraf edir ki, Yerevanın əhalisi başqa yerlərdən gəlmələrdir. Əslində həqiqi Yerevanlı yoxdur. Akademik

A.İ.İonisian yazır ki, Yerevan şəhərinin əhalisinin yalnız dörddə biri ermənilər idi, azərbaycanlılar burada mütləq üstünlük təşkil edirdi. Z.Korkodyan 1932-ci ilə nəşr etdiyi "Sovet Ermənistanının əhalisi 1831-1931″ adlı kitabında statistik göstəricilərə istinadla yazırdı ki,1883-cü ildə İrəvan şəhərinin 18766 nəfər əhalisinin 15992 nəfəri, 1866-cı ildə isə 85,2 faizi Azərbaycanlı olmuşdur. Z.Balayan "Ocaq" adlı kitabında vurğulayır ki, 1828-ci ildə məşhur "Türkmənçay" müqaviləsi olmasaydı, Qriboyedov və Abovyan olmasaydı, rus əsgərləri olmasaydı, bu gün müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni ocaqları olmayacaqdı. Təkcə son onillikdə (60-70-ci illərdə) buraya iki yüz mindən çox erməni köçmüşdür. Bu fikirləri digər erməni alimləri Parsamyan, Poqosyan və Arutyunyan da təsdiq edirlər. Onlar qeyd edirlər ki, İran və Türkiyədən ermənilərin Şimali Azərbaycana köçürülməsinədək İrəvan şəhərində ermənilər cüzi azlıq təşkil edirdilər. Məhz köçürülmə siyasətindən sonra burada artıq 1850-ci ildə ermənilər ümumi əhalinin 8 faizini, 1879-cu ildə 9 faizini, 1897-ci ildə 10 faizini təşkil edirdilər. Erməni alimi Parsamyan yazırdı ki, Rusiyaya birləşənə qədər indiki Ermənistanın 169 155 nəfər əhalisinin 33,8 faizi erməni, 49,7 faizi isə müsəlman (azərbaycanlı) idi.



Memorial "Maraga - 150" mounted in 1978 on the occasion of 150 anniversary of arrival of Armenians from Persian region Maraga to Karabakh. In 1988 as the Armenians in Nagorny Karabakh began "realisation of right of the nation for self-determination" inscription on the memorial "Maraga - 150" immediately disappeared

Dağlıq Qarabağ erməniləri 1978-ci ildə köçürülmələrinin 150 illiyini qeyd etmiş, bu münasibətlə Ağdərə rayonunda Marağaşen - Leninavan kəndində xüsusi abidə qoymuşdular.




Lenin, Stalin, Malenkov, Xruşşov ve Brejnev zamanında da vəzifə başında qalan "odda yanmaz, suda batmaz" Anastas Mikoyan 1920-də Qarabağ və Zəngəzur bolşeviklerin əlinə keçəndən sonra Mikoyan Rusiya XİN başçısı Çiçerinə bu məktubu göndərmişdi: *"Ermənilər Azərbaycanla gerçək savaş içindədirlər. Sovet Azərbaycanının tərkibində olan, amma mübahisəli ərazi sayılan Zəngəzur və Qarabağa gəlincə, qəti olaraq bildiririk ki, bu ərazilərin müddətli olaraq və bundan sonra da Azərbaycanın sərhədləri içində yer alması lazımdır."* Mikoyanın ermənilərin Türkiyəyə qarşı ərazi iddialarını lağa qoymuş, bunu "daşnak provakasiyası" adlandırmış, 300-500 min arası erməninin daşnakların günahı ucbatından öldüyünü demişdir. http://www.moderator.az/news/264733.html

Tanınmış erməni tarixçisi T.Haçikoğluyan Sovet Ermənistanının Qızıl Ordu tərəfindən tutulmasının 10-cu ildönümü münasibətli ilə nəşr etdirdiyi kitabçasında ermənilərin Azərbaycanda törətdikləri vəhşilikləri belə təsvir edirdi: *«Şərəfsiz daşnak «cümhuriyyəti»nin qısa dövründə Azərbaycan, Gürcüstan və Türkiyə ilə aparılan döyüşlərdə daşnakların qanlı əlləri ilə minlərlə türkü məhv etdikləri, kəndlərini yandırıb külə çevirdikləri Zəngəzur, Şərur, Dərələyəz, Meğri, Ağbaba, Zəngibasar, Böyük Vedidəki türk kəndlərində yaşanan vəhşiliklər, qətliamlar, soyğunçuluqlar hələ də yaddaşlardan silinməyib....Əsgərlərdə*

*(erməni silahlı daşnakları-H.N) yaltaqlıq, keyfiyyətsizlik, çalıb-çapmaq, başqasının hesabına yaşama, günahsız və çarəsiz insanları öldürmə psixologiyası kök atmışdı».* Erməni vəhşiliyini erməni şahidlər özləri də yazır, etiraf edir, bu qətliamlardan dəhşətə gəlirdilər.

### 84. Erməni həmkarının tələbi ilə N.Nərimanov Zəngəzurun bütün rəhbərlərini necə dəyişdi?



İrəvandan Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərindən N.Nərimanovun adına gələn 28 mart 1921-ci il tarixli, 477 №-li həmin məxfi məktubda yazılmışdı:

*“Ermənistan KP MK-nin sədri sizdən xahiş edir ki, təcili olaraq Zəngəzur mahalının Azərbaycan hissəsinin Qubadlı qəzasından aşağıdakı əksinqilabçılar təcili olaraq geri çağırılsın:*

*1) Xudabaxış bəy Sultanov (İnqilab komitəsinin sədri), 2) Aslan bəy Sultanov (qəza milis idarəsinin rəisi), 3) Behbud bəy Sultanov (istintaq komissiyasının üzvü), 4) İsrafil bəy Sultanov (baş milis işçisi, yəni qəza milis idarəsinin cinayət axtarış şöbəsinin rəisi), 5) İsfəndiyar bəy Hocaxanski (qəza milis idarəsinin sahə müvəkkilləri şöbəsinin rəisi).*

*Zəngəzurun bütün məsul şəxslərinin və şəxsən mənim xahişimə əsasən yenidən İnqilab Komitəsinin aşağıdakı tərkibdə təşkil olunmasını təklif edirik:*

*İnqilab Komitəsinin sədri Nəzər Heydərov, onun yoldaşları Oruc Babayev, katib Canbin Möminov, milis rəisi Əli Şərifov. Onlar Xalq Daxili İşlər Komissarlığının mandatları ilə təmin edilsin və yoldaş Baqramova verilsin ki, adları çəkilən yoldaşlara təqdim etsin.*

*Əsli ilə düzdür. MK Dəftərxana müdiri A. Karinçova".*

Bu məktub-tələb dərhal eynilə icra olunması üçün N.Nərimanovun dərkənarı ilə Xalq Daxili İşlər Komissarı Həmid Sultanova tapşırıldı və yerinə yetirildi, yuxarı Zəngəzurun ermənilərə verilməsi üçün maneə aradan qalxdı, yaşıl işıq yandırıldı.

**85. Ermənilər sovetləşmədən sonra da Azərbaycan torpaqlarını necə qoparırdı?**

1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonradan digər ərazilərin də ələ keçirilməsinə, genişlənməyə başladı: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405.000 desyatin (4414,5 $km^2$), Qazax qəzasından 535096 desyatin (5832,82 $km^2$), Naxçıvan MSSR-dən 657 $km^2$, Zəngəzurun Mehri rayonundan Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 7 may tarixli qərarı ilə Mehri kəndlərinin Ermənistana verilməsi rəsmən təsdiqlənmişdi. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 $km^2$-ə çatdırıldı. 1923-cü ilin iyununda Şuşa, Cəbrayıl, Qubadlının 169 kəndi, sonralar daha 31 kəndi DQMV-ə verildi, bu kəndlərin əksəriyyətində ermənilər yaşamırdılar. Əhalisnin 90 faizi azərbaycanlılardan ibarət olan Göyçə mahalı Ermənistana verildi.

Az.K(b)MK-nın 25 dekabr 1924-cü il tarixli iclasında Azərbaycanın Qubadlı və Ermənistanın Zəngəzur qəzası arasında

sərhəd mübahisəsinə baxılır və...ermənilərin 13 kənd üzrə tələbi qəbul olunur. Moskvanın təzyiqi, məkrli planları, sırf xristian təəssübkeşliyi, ermənipərəstliyi, imperiya maraqları və “sapı özümüzdən olan baltaların” şərəfsiz xəyanətləri nəticəsində ermənilər dəfələrlə Azərbaycandan torpaq qoparmışdılar; Şuşa qəzası torpaq şöbəsinin müdiri Roqozinin 26 iyul 1923-cü il tarixli məruzəsində göstərilirdi ki, Zəngəzur və Şuşa qəzalarının tərəkəmələri arasında sərhəd mübahisəsinin həlli zamanı silahlı toqquşma baş verməsin deyə, 20 yaylaq ermənilərə verilmişdir.

1928-ci ildə Gədəbəyin ən səfalı kəndlərindən - Başkənddən 4400 hektar, 1968-ci il Şınıx zonasında yerləşən Tağlar, Qaravəllilərdən bundan da çox torpağı alıb Ermənistana verdilər.

XX əsrin 90-cı llərində hadisələr yenidən başlayana kimi Başkənddə 10 mindən çox erməni yaşayırdı. Bu kəndi kənardan gələn ermənilər alınmaz qalaya çevirmişdilər. Kəndin ətrafında səngərlər qazılmış, istehkamlar qurulmuşdu.

7 may 1969-cu ildə rəsmi Bakının qərarı ilə Laçının nadir guşələri-Qaragöl və ətraf yaylaqlarının 250 hektar sahəsi ermənilərə növbəti bəxşiş olmuşdu. Ermənilər 20-ci illərə aid xəritələri Bakı, Tiflis və Moskvadakı arxivlərdən oğurlayıb, yerinə düzəltdikləri saxta tarixlə yeni sənədlər tərtib etmişdilər. Faciəyə baxaq; bu sənədlərə qol çəkənlər Azərbaycandan MİK-in o vaxtki işlər müdiri Qadaqçayan, Moskva və İrəvan tərəfdən isə Qriqoryan, İsaxanyan, Qalustyan, Çerekeşvili, Metreveli, Akopcan, Karkaşadze, Matekeviç, Kotyuk, Tatulov və Komarovski olmuşlar. Azərbaycan rəhbərləri bu ümummilli xəyanətdən dövləti cinayətdən guya ki xəbəsizlərmiş kimi adlarını bu imza siyahısına saldırmayıblar, qərar isə ən yüksək səviyyələrdə razılaşdırılmışdı. 1980-ci illərdə Laçın və Qubadlının yenidən ən səfalı guşələri yenə qoparılmışdı. Bunlara müqavimət göstərənləri isə müxtəlif adlarla həbsxanaya atırdılar. Moskvanın təzyiqi qarşısında müti icraçılara çevrilən, bununla da vəzifədə qalma sürəclərini bir az da uzadan, vəzifə kreslosunu vətənə, xalqa yox, Moskva, Yerevan, Tbilisidən gəlmə tapşırıqların

itaətkar xidmətçilərinə çevirən respublika rəhbərləri hər torpaq bağışlama prosesində xalqı ayağa qaldırmaq əvəzinə, xalqın qəzəbini, mübarizə ruhunu hər cür inzibati yollarla söndürməyə, gizləməyə çalışırdı.

Bakı Sovetində Məşədi Əzizbəyovdan başqa 26-ların hamısı erməni, gürcü, rus idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində Slavyan-Rus İttifaqı fraksiyasında 7, Milli azlıqlar fraksiyasında 7, Erməni fraksiyasında 5, Daşnaksütyun fraksiyasında 7 nəfər təmsil olunurdu. Və bunlar Bakı, Quba, Şamaxı, Zəngəzur, Qarabağ, Lənkəran, Qaraməryəm...də ermənilərin törətdikləri qırğınlardan, Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsindən, Cümhuriyyət qoşunlarının sayının 40 min nəfərdən artıq olmasından sonrakı dövrə aiddir.

1920-ci ildən-1933-cü ilə kimi Azərbaycana rəhbərlik edənlərin 7-si erməni, gürcü, rus olub və onların birbaşa göstərişi ilə xalqımıza qarşı mənəvi, fiziki terror aparılıb, sağalmaz yaralar vurulub. Repressiya illərində Azərbaycan rayonlarının 55-nin milis rəisi erməni idi və onlar daşnak siyasətinə açıq-gizli davam edirdi. 1990-cı illərin qəzetlərində Azərbaycan hakmimiyyətinin bütün strukturlarında mühüm postlarda oturan ermənilərin siyahısı verilirdi. Multikulturalizm, tolerantlıq siyasətinin Azərbaycan xalqına, dövlətinə təsirinin nəticələri obyektiv öyrənilməlidir.

1992-93-cü illərdə tarixi Dağlıq Qarabağ və Zəngəzurun bütünlüklə, ətraf rayonlarla birlikdə işğal edilərək ermənilərə verilməsi planları tamamlanmış oldu.






**86. Aslan bəy Sultanov hansı xidmətinə görə “Qızıl ulduz” almışdı?**

Cənubi Qafqazda sovet hakimiyyətinin ən gec bərqərar olduğu ərazi Zəngəzur olmuşdur. Bunun səbəbi isə Zəngəzurun yarıdan çoxunun - Gorus, Qafan, Sisian, Mehri bölgələrinin ABŞ, Böyük Britaniya, Fransanın silahlandırdığı erməni daşnak hərbi hissələrinin girovluğunda qalması ilə bağlı idi. Bu dövlətlər Qafqazın yenidən Rusiya tərkibinə keçməsi ilə heç cür barışmaq istəmirdi.

18 sentyabr 1920-ci il tarixində Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin və Təşkilat Komitəsinin birgə iclasında çıxarılan qərarda qeyd edilir ki, Sultan bəy və bandası ləğv olunmalıdır. Zəngəzurda daşnak hökumətini ləğv edərək sovetləşməni başa çatdırmaq üçün XI Qızıl Ordunun 28-ci diviziyası general Semyonovun komandirliyi ilə bölgəyə göndərilsin. Semyonov qəzada böyük nüfuz sahibi olan, yerli şəraitə yaxşı bələd olan, Qori seminariyasında oxuyarkən rus dilində mükəmməl danışıb yazmağı bilən Zəngəzur qəza milis idarəsinin rəisi Aslan bəy Sultanovun qüvvələri ilə birləşməyin labüd olduğunu öyrənmişdi.Aslan bəyin milis və partizan dəstələri

diviziya ilə qaniçən Njdenin hərbi qüvvələrini darmadağın edir. Güclü hücumla Nijde dəstələrinə sarsıdıcı zərbə vurulur və o, bir neçə əsgəri ilə qaçıb Araz çayından İrana keçir. Zəngəzurun erməni daşnak zülmündən qurtulmsı ilə nəticələn daha bir həlledici döyüş 1920-ci il mayın 25-də Qarabağdan Njdeyə köməyə gələn general Dro ordusuna qarşı aparılır. Daşnakların silahlı hücumlarına son verilir. Bu döyüşlərin əsas qəhrəmanları olan Aslan bəy Sultanov, XI Qızıl Ordunun 28-ci diviziyasının komandanı general Semyonov və onun alay komandiri polkovnik Çelov "Qızıl medal"la təltif olunurlar. Semyonovun təqdimatı və zəmanəti ilə Aslan bəy Sultanova Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun əmri, imzası ilə "Qarabağın və Zəngəzurun Fövqəladə Komissarı" mandatı verilmişdir. Az sonra 1921-ci il aprelin 7-də Zəngəzur erməni və müsəlmanlarının birgə qurultayında Ş.Mahmudbəyov Zəngəzur üzrə fövqəladə komissarı təyin olunmuşdur.




Aslan bəyin nəticəsi Faiq Abdullayevin 2012-ci ildə nəşr edilmiş "Zəngəzur aslanı-Aslan bəy Sultanov" kitabında bu igid insanın ömür yolu sənədlərlə qələmə alınıb.

## 87. Alovlu bolşevik Çingiz İldırım qanlı repressiyalardan niyə qurtula bilmədi?



AXC hökumətinin devrilməsində xüsusi rolu olmuş Hərbi Dəniz İşləri üzrə Komissar Çingiz İldırımın S.Orconikidze, S.M.Kirovla mehriban münasibətləri belə onu xilas edə bilməmişdi. Zəngəzur bölgəsindən çıxmış ən yüksək rütbəli şəxs, Zəngəzurun həm müsavatçılarının, həm də bolşeviklərinin özlərinə lider saydığı, erməni daşnaklarına qarşı da sərt mövqedə dayanmış Çingiz İldırım Peterburq Politexnik İnstitutunu bitirib məşhur Ayvaz zavodunda yüksək səviyyəli mühəndis-metallurq olmuşdu. 1918-ci ildə "Qızıl Şimal" və "Hürriyyət" qəzetlərini də nəşr etdirmişdir. Azərbaycan SSR-in Hərbi Dəniz İşləri üzrə Komissarı, Xalq Poçt və Teleqraf Komissarı, Xalq Yollar Komissarı, Respublika Xalq Komissarları Sovetinin və MİK-in ərzaq vergisi üzrə fövqəladə müvəkkili işləmişdir, azərbaycanlılar arasında ilk dəfə "Qırmizi Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur. Azərbaycan milli ordusunun XI Qızıl Orduya tabe etdirilməsinə qarşı çıxdığına görə bolşevik hakimiyyətində etibarsız hesab edilərək (Əliheydər Qarayev bu qərara gözüyumulu razılıq verdiyinə görə Ç.İldırımın yerinə Azərbaycan ordu və donanmasına rəhbər təyin edilmişdi) əslində Maqnitaqorska sürgün edilmiş, burada Metallurgiya Kombinatı tikintisinin özülünü qoymuş, yüksək savadına, təşkilatçılıq, nüfuz qazanmaq qabiliyyətinə görə uzun müddət kombinatın rəisi olmuş, Maksim Qorkinin məşhur oçerkinin baş qəhrəmanı olmuşdur (Çingiz İldırım ildırımdı, ildırımdı, ildırım...).

1936-cı ildə bu işlərinə görə ona "Lenin" ordeni verilmişdi. Bir neçə il sonra haqqında ölüm hökmü çıxarılmış və güllələnmişdir. Heç şübhə yox ki, onun güllələnməsi NKVD sisteminə doluşmuş

daşnakların əməli idi. Ermənilər Çingiz İldırımın daşnaklarla barışmaz mücadiləsini, əmisioğlu Xosrov bəy Sultanovu Bayıl türməsindən qaçırdıb İrana, oradan Türkiyəyə keçirməsini, qardaşı Şamil bəyin və digər Sultanovların Zəngəzurda ermənilərə qan uddurmasını unutmamışdılar.

**88. Osmanlı əsgərləri Qubadlıda hansı silinməz izlər qoydu?**

Azərbaycan türklərinin Osmanlı dövlətindən istədiyi kömək yetişir. Osmanlı dövlətinin hərbi naziri Ənvər paşa qardaşı Nuru paşa komandanlığında göndərdiyi hərbçilər 1918-ci ilin yazında Araz çayından keçib Gəncəyə doğru irəlililəyir. Dəstədən atlı bir qrup Zəngəzurun Aran bölgəsinə - Zəngilan və Qubadlıya çatır. Qubadlının Dondarlı və Dəmirçilər kəndinin yaxınlığındakı Dağbaşı düzündə çadırlar qurulur. Yerli əhali bu xilaskarları hədsiz sevinclə qarşılayır. Türk zabit və əsgərləri Zəngəzurun aşağı hissəsində ermənilərə qarşı silahlı müqavimətin, yerli özünümüdafiə dəstələrinin təşkilində, silah-sursatdan istifadə qaydalarının mənimsənilməsində mühüm işlər görürlər. Qafana bağlı Zeyvə erməni kəndinin mərkəzində türk topundan atılan mərminin binada açdığı deşik qalırdı. Hər il 24 aprel geydirmə “genosid günü” ermənilər burda toplaşıb türkləri lənətləyirdilər. Hətta, Osmanlı əsgərləri Azərbaycandan çıxdıqdan sonra da, Kazım Qarabəkir Paşanın qətiyyəti, türkçü düşüncəsi, bu ellərə sevgisi sayəsində 400 əsgər və 30 zabit Zəngəzur və Naxçıvan ərazisində saxlanmışdı. Onların bir çoxu bu bölgələrdə daimi qalmış, ailə qurub övlad sahibi olmuş, bir çoxu repressiya dövründə qətlə yetirilib həbs və sürgün edilmişdilər.

Türk əsgərləri Ənvər paşanın təlimatı üzrə qalmışdılar, əmri belə idi: *“Azərbaycan və Şimali Qafqazdakı əsgərlərimizi çəkmiş kimi bir görüntü yaratmaq məcburiyyətindəyik. Bu halda, Azərbaycan və Şimali Qafqaz Respublikalarının öz əsgəri qüvvələrinə güvənməsi lazım gələcəkdir. Bu səbəbdən, Qafqazda*

*qalacaq qüvvələrin Azərbaycan və Şimali Qafqaz qüvvələri olması üçün indidən bu qüvvələri əsas tutaraq, bunların silahlandırılması və yenidən təşkil olunaraq qüvvətlənməsi vacibdir. Ermənilərlə qovğa etməyərək, onlarla yaxşı davranaraq sülh müzakirəsində onlarla birlikdə olmaq üçün çalışmaq lazımdır. Orada qalacaq zabitlərlə digərləri, Azərbaycan vətəndaşı olaraq qalsın və hökumət geri çəkilmə əmri versə belə, onların orada qalması üçün tərtibat hazırlansın. Azərbaycana rus silah və cəbbəxanası olmaqla çoxlu silah və sairə göndərilsin".*

Qubadlı rayonunun Dəmirçilər, Çərəli, Xələc, Əyin, Saldaş, Xanlıq, Qubadlı, Qayalı, Dondarlı, Çaytumas, Məmər, Mahruzlu,




Eyvazlı, Məlikəhmədli, Xocahan, Əliquluuşağı və digər kəndlərində şəhid olmuş, yaralanmış, ailə qurub yaşayıb övlad sahibi olmuş, bu torpaqda əbədiyyətə qovuşmuş 40-dək türk əsgər və zabiti haqqında məlumatlar vardır. Araşdırmaçı Çingiz Salmanovun "Anadoluda doğuldular, Qubadlıda əbədiyyətə qovuşdular" kitabında bu barədə geniş faktoloji materiallar vardır.

**89. *"Arxadaş: Başın taclı, altın taxtlı dəxi olsa, millətin və vətənin olmadan bədbəxtsən!"* Məzardaşına bu sözlər həkk edilən Qazi kimdir?**

Firudin bəy Daryalı 1900-cü ildə Laçın rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Əsl adı Fərman olsa da, mühacirət dönəmində sovet təhlükəsizlik orqanlarının təqibindən qorunmaq üçün digər mühacirlərin bir çoxu kimi ad və soyadını dəyişmək məcburiyyətində qalmışdır. Ad olaraq əmisi oğlu Firudinin, soyad olaraq isə kəndlərində olan "Daryal" adlı ərazinin adını götürmüşdür. Hələ kiçik yaşlarında öz cəsarəti və iradəsi ilə ad çıxaran Firudin bəy yüksək atıcılıq qabiliyyətinə malik olmuşdur. 20 yaşında zabit olmuşdur. Kazanda hərbi məktəbdə oxumuşdur.



Azərbaycan Ordusunun zabiti olmuş, Qarabağ uğrunda göstərdiyi igidliyə görə orden və medallarla təltif olunmuşdur.

Azərbaycan Cümhuriyyəti ordusunun süvari alayında xidmət etmiş, alayın tərkibində 23 sentyabr 1918-ci ildə başlayan Qarabağ hərəkatına qatılaraq, Şuşanın erməni daşnaklarından azad edilməsi əməliyyatlarında iştirak etmişdir. Yanvar ayının 15-də Qarabağın general qubernatoru vəzifəsinə təyin olunan Xosrov bəy Sultanov Firudin bəyin igidliyinə bələd olduğu üçün onu özünə köməkçi götürmüşdür. Cümhuriyyət ordusunun gənc zabiti Firudin bəy Daryal xalq qəhrəmanı Sultan bəy Sultanovun başçılıq eydiyi yerli özünümüdafiyə dəstələri ilə birgə indiki Laçın rayonunu Tat dərəsi adlı ərazisində erməni generalı Andranik Ozanyanın ordusunun məhv edilməsi əməliyyatında iştirak edərək böyük qəhrəmanlıqlar göstərmişdir.

Ermənilər 1920-ci ilin martın 21-dən 22-nə keçən gecə Xankəndində yerləşən Cavanşir piyada alayının kazarmalarına qəfləti basqın edib, daha sonra Əsgəran yolunu bağlayırlar. 22 mart tarixindən etibarən Xosrov bəy Sultanov və Həbib bəy Səlimovun başçılığıyla erməni generalı Dronun (Drastamat Kananyan) qoşunlarına qarşı Əsgəran bölgəsində şiddətli döyüşlər baş verir. 2 aprel 1920-ci ildə Dronun qoşunları məhv edilir. Firudin bəy həmin döyüşlərdə də igidliklə vuruşur. Qırmızı ordunun gəlişindən dərhal sonra Xosrov bəy həbs edilir. Firidun Azərbaycan Cümhuriyyəti ordusunun süvari alayına qoşulur. 24 may 1920-ci ildə başlayan Gəncə üsyanında iştirak edir. Cümhuriyyətin 2-ci ildönümünə təsadüf edən və minlərlə insanın həlak olmasıyla nəticələnən üsyan 31 may 1920-ci ildə Qırmızı Ordu tərəfindən qəddarlıqla yatırılır. Gəncə üsyanından sonra 5 iyun 1920-ci ildə Nuru Paşanın komandanlığı ilə Qarabağda bolşeviklərə qarşı ikinci bir üsyan dalğası başlayır. Firudin bəy

Gəncə üsyanından sağ qurtulan silahdaşlarıyla bu üsyana qatılır. Qarabağ üsyanı da böyük amansızlıq ilə yatırılandan sonra, Firudin bəy Azərbaycan Cümhuriyyəti ordusunun süvari və piyada alaylarının sağ qalan əsgərləriylə birgə, polkovnik Nuh bəy Sofiyevin və polkovnik Səməd bəy Rəfibəylinin (Sayqın) rəhbərliyiylə Araz çayını keçib İran ərazisinə daxil olurlar. İran hökumətinin silahları təhvil vermək tələbini yerinə yetirmədikləri üçün hücuma məruz qalırlar. Araz çayı boyunca Türkiyəyə doğru hərəkət edirlər. Firudin bəy Daryal 56 nəfəri zabit olan 1200 nəfərlik Azərbaycan birliyinin tərkibində Türkiyənin istiqlal savaşına qoşulur. 15-ci süvari alayda bölük komandiri vəzifəsini icra etmiş, 1920-ci ilin payızından başlayaraq, 1921-ci ilin əvvəllərinə qədər şərqi Anadolunun ermənilərdən təmizlənməsiylə sona çatan şərq hərəkatına igidliklə vuruşmuşdur. Sarıqamışın, Kağızmanın, Qarsın, İğdırın, Gümrünün geri alınması əməliyyatlarında iştirak etmiş, bu döyüşlərdə yaralanaraq Qazi ünvanı almışdır. Sağaldıqdan sonra 26 avqust 1922- ci ildə başlayan və Türkiyənin qərb bölgəsinin yunanların işğalından azad edilməsi üçün başladılan "Böyük hücum" əməliyyatlarında iştirak etmiş, 9 sentyabr 1922-ci il tarixdə öz bölüyü ilə İzmirə girən ilk süvarilərdən olur. Savaşdan sonra, Mustafa Kamal Atatürk tərəfindən “İstiqlal” ordeniylə təltif olunmaqla bərabər həm də İstanbul şəhərində Ali hərbi təhsil almışdır. Azərbaycan Cümhuriyyəti ordusunda birgə xidmət etdikləri bir neçə zabitlə orduda qalaraq hərbi xidmətlərini davam etdirmişlər. Azərbaycanın müstəqillik qazanmasından 2-il öncə, 1989-cu ildə 88 yaşında vəfat edir. Cənazəsi xüsusi hərbi mərasimlə, böyük hörmət və ehtiramla Qaraca Əhməd məzarlığında dəfn edilir. Vəfat etməzdən öncə baş daşına İstiqlal savaşı qazisi, süvari albay olmasını, 1901-ci ildə Şuşa şəhərinin 25 kilometrliyində yerləşən Təzəkənd kəndində anadan olduğunu və *“Arxadaş: Başın taclı, altın taxtlı dəxi olsa millətin və vətənin olmadan bədbəxtsən!”* sözlərinin yazılmasını vəsiyyət olaraq yazmışdır. https://az.wikipedia.org/wiki/Firudin_bəy_Daryalı

### 90. Zəngəzurlu Cümhuriyyət tələbələri kimlər idi?



Teyyub Qurban “100 Tələbə” kitabında (“Şur”-2018, səh 44, səh.231) Zəngəzurlu 3 nəfərin adın yazıb:

1.Sultanov Baxışəlibəy Rüstəmbəy oğlu

2.Şahsuvarov Mürsəl Ədilxan oğlu

3.Şahsuvarov Surxay Əzim oğlu

Hər üçü Almaniyaya göndərilmişlər.

Mürsəl bəy 1900-cü ilin iyun ayının 19-da Zəngəzur qəzasının Minkənd kəndində anadan olmuşdu. Gəncədə, sonra isə Tiflisdə təhsil almış, Münhen Universitetinin tibb fakültəsini uğurla bitirib Hamburq şəhərində ixtisasına görə işlə təmin edilmiş, bir neçə il Tropik Xəstəliklər Institutunda çalışmışdır. Gənc alim burada dissertasiya müdafiə edərək, tibb elmləri doktoru adını almışdır. Azərbaycanlı alim Hamburqda tanış olduğu alman qızı Marqarita xanımla ailə qurmuşdur. Otuzuncu illərdə ər-arvad Bakıya qayıtmışlar. Bakıda elmlər doktoru olan Cumhiriyyətin tələbəsinin və onun alman zövcəsinin Amerika Birləşmiş Ştatlarından gəlmiş qonağı da olarmış. Bu, Mürsəl doktorun baldızı oğlu ABŞ vətəndaşı Hüqo idi. 1937-ci ildə onu Sibirə, Maqadana on il müddətinə sürgün etdilər. İsrarlı təkidi ilə Marqarita bacısı oğlu ilə birlikdə Almaniyaya qayıtmışdı. Sürgündən qayıdan Cumhuriyyət tələbəsi, tibb

elmləri doktoru, professor Mürsəl Adilxan oğlu Şahsuvarov Bakıdakı Fuad Əfəndiyev adına 4 saylı Şəhər Klinik Xəstəxanasına işə qəbul edilmiş, 1991-ci il may ayının 6-da vəfat etmişdir.

Surxay Şahsuvarov (1900-1945) Frayberq Dağ Mədən Akademiyasını əla qiymətlərlə bitirib bir müddət Almaniyada çalışıb, 1925-ci ildə vətənə dönüb, "Azərneft"in Bibiheybət Qazma kontorunda mühəndis işləyib, texnikumda, Azərbaycan Sənaye Institutunda dərs deyib, dekan, dosent olub, pedaqoji fəaliyyəti elmi işlə əlaqələndirən geoloq "Xəzər dənizinin müxtəlif dövrlərdə su balansı" mövzusunda dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, geologiya-minerologiya elmləri namizədi adını alıb, Xəzər dənizinin səviyyəsinin artması problemi ilə məşğul olan ilk alim olub. Doktorluq dissertasiyasını müdafiə etməyə hazırlaşarkən millət xainləri bu dəyərli geoloq alimi "Almaniyanın mənafeyinə casusluq fəaliyyətinə görə" qondarma ittihamla həbsə alıb, 42 yaşında Şimali Qazaxıstanda və Şimali Uralda məşəqqətli sürgün həyatı yaşayıb, vərəm xəstəliyinə tutulub. Doğulub, boya-başa çatdığı Laçın rayonunun səfalı Mirkəndinin saf və təmiz dağ havası da ona şəfa gətirmədi. Məşhur geoloq və pedaqoqu Bakıdakı Neftçilər Xəstəxanasında müalicəyə başladılar. Fəqət, iş-işdən keçmişdi. Əqidə sahibi və nəcib insan 1945-ci ilin noyabr ayının 3-də dünyasını dəyişdi. O da əksər Cümhuriyyət tələbələrinin acı taleyini yaşamışdır. http://axc.preslib.az/az/page/62uWwbkSnP

**91. Zəngəzurlu Cümhuriyyət naziri Nurməmməd Şahsuvarov haqqında nə bilirik?**



Nurməmməd bəy Adilxan bəy oğlu Şahsuvarov (d. 1883, Laçın - ö. 11 avqust, 1958, Bakı) — AXC-nin, Dağlılar Respublikasının maarif naziri, Azərbaycanın istiqlal hərəkatı və Azərbaycan Xalq Cumhuriyyəti dövlət xadimlərindən biri, maarifçi olub.

Zəngəzur qəzasının Minkənd (Şahsuvarlı) kəndində anadan olmuşdur. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirmiş (1903), bir müddət Gəncədə rus dili müəlimi işləmşdir. Sonralar Tiflis Aleksandr Müəllimlər İnstitutunu (1915), ekstern yolu ilə Kiyev Universitetinin hüquq fakültəsini (1915) bitirmişdi. N.Şahsuvarov Rusiya Fevral İnqilabı dövründə siyasi hadisələrdə yaxından iştirak etmiş, 1918-ci ilin yayında Şimali Qafqaz xalqlarının azadlıq hərəkatının nəticəsində yaradılmış Dağlılar Respublikasının xalq maarif naziri təyin olunmuşdu. 1919-cu ilin iyununda Bakıya gələn N.Şahsuvarov Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin birinci hökumətində (Cumhuriyyətin dördüncü nazirlər kabineti) maarif nazirinin müavini vəzifəsində işləmiş, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılması, təhsil və mədəniyyət sahəsində bir sıra mütərəqqi tədbirlərin həyata keçirilməsində, Bakı Dövlət Universitetinin təşkiində yaxından iştirak etmişdir. "İttihad" Partiyasının üzvü idi. Şahsuvarov 1920-ci il martın 5-də Nəsib bəy Yusifbəylinin ikinci hökumətində (Cumhuriyyətin beşinci nazirlər kabineti) maarif və dini etqad naziri təyin olunmuşdu. Aprel işğalından (1920) sonra N.Şahsuvarov Azərbaycan SSR xalq maarif komissarının müavini olmuş, Bakıda orta və ali təhsil ocaqlarında dərs demişdi.

1940-cı ildə saxta ittihamlarla həbs edilərək, Krasnodar diyarına sürgün edilmişdi. 1943-cü ildə sürgündən qayıdaraq, Azərbaycan Tibb İnstitutunda rus dili kafedrasının müdiri işləmişdir. Feona Kuzminşina ilə ailə qurmuşdu. Cahangir bəy adlı oğlu vardı. Aktyor Rauf Şahsuvarovun babasıdır. 11 avqust 1958-ci ildə Bakıda vəfat edib.

**92. Daşnak və bolşeviklər Zəngəzurda yerli əhaliyə qarşı fiziki, mənəvi terroru necə aparırdı?**

Bolşevik-daşnak birliyinin məkrli planları ilə 1921-ci ilin iyununda Zəngəzur Ermənistanın 9-cu qəzası kimi ilk dəfə inzibati bölgüyə daxil edildi. Bundan əvvəl Azərbaycan İnqilab Komitəsinin 19 may 1921-ci il tarixli dekreti ilə başlanan əhali siyahıyaalınmasında artıq Zəngəzur qəzasının adı yox idi.

Ermənistan hökuməti azərbaycanlı qaçqınların Zəngəzura qayıdışına hər cür manelər göstərirdi. Çünki onların evləri, kəndləri çoxdan tutulmuşdu.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən 1921-ci ilin yanvarında Bakıdan Zəngəzura göndərilmiş, əsas məqsədi bölgənin tamamilə Ermənistana birləşdirilməsinin məqsəduyğunluğunu yerli əhaliyə izah etmək olan, yalnız ermənilərdən ibarət komissiya-“məxfi işçilər”: Arsen Karuns, Qriqoriy Qilabyanı, Arşak Balayan, Baxşı Aruşanov, Qukas Yuzbaşyev göndərdikləri məruzədə Qəza İnqilab Komitəsinin sədri Xudabaxış bəy Sultanovun, qəza milis idarəsinin rəisi Aslan bəy Sultanovun onların fəaliyyətinə imkan vermədikləri, həbs etdikləri, öldürmək istədikləri, Sultanovların daşnaklarla əlaqələri, ingilislərin tərəfində, rusların əleyhinə olduqları və s. barədə məruzə tərtib edib göndərmiş, Aslan bəy Sultanov haqqında isə “sərrast atıcı, erməni xalqının düşməni” epitetlərini yazmağı da unutmamışdılar.

Zəngəzur qəzası yerli kommunist partiyasının məsul katibi olan Nəzər Heydərovun mərkəzə ünvanladığı 28 aprel 1921-ci il tarixli

məktubu da eynilə həmin ruhda yazılmışdır*:“...qəza hakimiyyətinin başında kommunist partiyasının üzvü olmayan Sultanovlar dayanırsa, o zaman qəza hakimiyyətinin idarə olunmasında başıpozuqluq və hərc-mərclik yaranır, kommunistləri isə tezliklə ölüm gözləyir. Mərkəzdən təcili kömək gəlməzsə qəzada sovet hökumətinin sonu olacaq!”.*

Zəngəzurun Xanlıq kəndində (Qubadlı) qərar tutmuş qəza inqilab şurasını ləğv edən Xanlıq üsyanının qəddarlıqla yatırılmasından sonra da bolşeviklərə qarşı mübarizə səngimək bilmirdi. Qafanın Kurud kəndində Şahverdi qardaşlarının, Zəngilanda Bəhmən bəyin, Sisiyanın Şəki kəndində Qaçaq Qardaşxanın, Qubadlıda Alyanlı Qaçaq Tavat, Xallavalı Lətif, Xələcli Kərimin başçılıq etdikləri silahlı dəstələrin məhv edilməsi üçün Bakının kommunist rəhbərliyi tərəfindən Ermənistan hökumətindən hərbi kömək istənməsi tariximizin qara səhifələrindən biridir. Onların tamam “zərərsizləşdirilməsi” işi Zəngəzur Qəza İcraiyyə Komitəsinin sədri Harutyunyan, təhlükəsizlik idarəsinin rəisi Arşakuni və polis rəisi Sailyana tapşırılmışdı. Çünki yerli hökumətin nümayəndələrində, əhalidə Zəngəzurun yarıdan çoxunu ermənilərə pay verən şura hökumətinə, yerli, mərkəzi kommunistlərə qarşı artıq heç bir inam yox idi, qaçaqlara da mümkün olan hər cür yardımı göstərirdilər. Azərbaycanın faktiki olaraq, erməni-rus bolşeviklərinin idarə etdiyi kommunist rəhbərliyinin xüsusilə “Əliyanlı banditləri”ni məhv etmək üçün çağırdığı ermənilərdən əlavə İranla sərhəddi qoruyan rus, NKVD qrupunun da çoxu erməni idi. 200 nəfərlik qaçaq dəstəsini danışıqlarla aldadaraq üzə çıxarıb, sonra da hamısını qıran, Başarat, Hat, Deşdəhat, Armudluq və digər kəndlərdə 15-16 yaşdan yuxarı oğlanları da ana-bacılarının gözü qarşısında güllələyən bolşeviklərin vəhşiliyi Andranik, Dro, Njde, Hamazaspın daşnak dəstələrinin vəhşiliyindən fərqlənmirdi. Nifrətin, kinin dərəcəsi idi ki, bu kəndlərin ayağı yer tutan, salamat qalanlarını da hökumət zorla Bərdəyə köçürdü. İndi



Bərdənin Əlyanlı kəndini 20-ci illərdə o kəndlərdən sürgün edilənlər salıblar.

Bu dəfə müsəlman türk-azərbaycanlılara qarşı terror dövlət, hökumət səviyyəsində aparılırdı. Həm də cismən məhv etməklə yox, terror həm də xalqın mədəniyyətinə, mənəviyyatına qarşı da aparılırdı; Sisian rayonunun Urud kəndində ziyalı müəllim Mirzə Hüseynin zəngin kitabxanası yandırılıb məhv edilib külünü də Bazarçaya axıtdılar, kəndin oxuyub yazmaq bilən, evində ərəbcə kitab tapılan sakini Cəbrayıl Gəncəliyevi, Şəki kəndinin sakini, Kazan Universitetinin məzunu Həşim Hacıyevi zəhərləyib öldürdülər, Qafanın Kurud kəndindən Molla Əbdülsalamı sürgün elədilər, təkcə bir danosla qəzanın 30-dan çox hörmətli, ağsaqqal seyid, mömun insanını tutub gedər-gəlməz sürgünə göndərdilər.

Bənzərsiz olay yaşanmışdı. 1941-45-ci il müharibəsinə Zəngəzurun Sisian, Qafan, Gorus bölgələrindən gənc qız-gəlinləri də səfərbər edib zor gücünə Qafan dəmiryol stansiyasından vaqonlara doldurub Bakıya göndərmişdilər. Vağzalda ömrü boyu kənddən qırağa çıxmamış qız-gəlinlərin vay-şivəni, ah-naləsi M.C.Bağırova çatır, vəziyyəti öyrənir, vağzala gəlib onların qarşısında çıxış edir:-hələ sizin azərbaycanlı ərləriniz, qardaşlarınız tamam ölməyiblər ki, siz cəbhəyə gedəsiniz, iki saat sonra sizi gətirən qatar geri qayıdacaq, getmək istəyən getsin, Bakıda qalıb oxumaq, işləmək istəyənlər isə qala bilər.

**93. 1948-53-cü il deportasiyasında Zəngəzurlular hara köçürüldü?**

1945-ci il aprelin 19-da Eçmiəzdin katalikosu Gevorq Çörəkçiyanın Stalinlə görüşü yeni erməni məkrli planlarının işə salınmasına rəvac verdi. Az sonra martın 19-da SSRİ Hökuməti Türkiyə ilə 1925-ci ildə imzaladığı dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada ləğv etdi, ardınca Qars, Ərdahan, Trabzona qarşı ərazi iddiası irəli sürdü, bu yerlərə erməni və gürcülərin köçürüləcəyi bildirildi. Bu artıq NATO üzvü Türkiyəyə savaş elanı demək idi, yalnız Türkiyə rəhbərliyinin ayıqlığı, ABŞ və Qərbin dəstəyi Anadolunu yenidən qan çanağına çevirməkdən qurtardı.

1945-ci il noyabrın 21-də Ermənistan hökumətinin vəsadəti nəzərə alınmaqla azərbaycanlıların Ermənistana köçürülməsi, xaricdəki ermənilərin də Ermənistana köçürülməsi barədə SSRİ hökumətinin qərarı qəbul edildi. Qərarın icrası ilə bağlı xeyli yeni qərarlar da verildi.

Bu qərarlara qarşı Zəngəzurda güclü müqavimət oldu, yalnız Gorus rayonunun
5 kəndindən- Şurnuxu, Ağbulaq, Qurdqalaq, Şahverdilər, Şamsız kəndlərindən cəmi 131 ailə - 712 nəfər Mingəçevir şəhərinə bitişik Hürüuşağı kəndinə köçürüldülər, orda məskunlaşdılar. Bir-birindən ayrı düşən qohum-əqrəbalar 1993-cü ilə qədər Mingəçevirlə Zəngəzurun arasında qalmışdılar.





## 94. Zəngəzurun tam işğalına nə zaman başlandı?

M.Qorbaçovun, xaricdəki diasporunun şirnikləndirdiyi ermənilərin «Qarabağ» hərəkatı qədim türk yurdunda qurulmuş Ermənistan SSR-də yaşayan azərbaycanlıların öldürülməsi və kütləvi deportasiyası, talan, qarət edilməsi ilə müşayiət olundu.

1988-ci il noyabrın 24-də Zəngəzurun Qubadlı bölgəsinin Eyvazlı kəndinin erməni silahlı qüvvələri tərəfindən talan, qarət edilib tamam yandırılıb xarabalığa çevrilməsi ilə başlamışdı. Ermənistan SSR-dən ilk qaçqın dalğası 1987-ci il fevral ayının sonu - martın əvvəllərindən başlayaraq Zəngəzurun Sisian, Qafan, Gorus, Mehri rayonlarının azərbaycanlılar yaşayan 50 kəndindən, eləcə də ermənilərlə birlikdə yaşadıqları 15 kənddən bütün azərbaycanlı əhalisi vəhşi amansızlıqla, ev-eşiklərini, mal-qaralarını, əmlaklarını buraxarq öz doğma yurdlarından məcburən deportasiya edildilər. 1991-ci ilin avqustunda Mehri rayonunun Nüvədi kəndinin əhalisi qovuldu.

1918-1920-ci illərdə qərbi Zəngəzurun Azərbaycan qoparılıb Ermənistana birləşdirilməsinə gətirib çıxaran faciəli proseslər: hərbi, siyasi, idari, mənəvi-psixoloji və s. şərtlər, amillər çox az fərqlə 1992-1993-cü illərdə yenicə müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasında təkrar olundu. Zəngəzurun tək bir

ermənininin də yaşamadığı Laçın, Qubadlı, Zəngilan rayonları Dağlıq Qarabağ və ətraf rayonlarla birlikdə Azərbaycandan qoparıldı. Rusiya Federasiyası ordusunun fəal hərbi dəstəyi, birbaşa iştirakı ilə, ABŞ, Fransa, Böyük Britaniya və digər aparıcı dövlətlərin siyasi yardımı ilə Ermənistan silahlı qüvvələrinin 1993-cü il oktyabrın 29-da Zəngilan rayonunu işğal etməsi ilə tarixi Zəngəzur torpaqlarının azərbaycanlı əhalidən təmizlənməsi və Ermənistan Respublikasının nəzarətinə keçməsi prosesi tamamlanmış oldu. Qarabağ məsələsinin çözümünü də, yəni Ermənistana verilməsini də Rusiya, ABŞ, Fransa üçlüyü- ATƏT-in Minsk qrupu öz üzərinə götürüb və dincliklə icra edir.

Tarixi Zəngəzurun Azərbaycanda qalan hissəsi; Laçın rayonunun sahəsi 1835 kv.km, əhalisi 77600, 264 şəhid verib, Qubadlının sahəsi 802 kv.km, əhalisi 40200, şəhidlərinin sayı 238 nəfər, Zəngilanın sahəsi 707 kv.km, əhalisi 42000, şəhidlərinin sayı 135-dir.






**95. Müstəqil Azərbaycanın ilk Müdafiə naziri general-leytenant Valeh Bərşadlıya vəzifəsini icra etməyə niyə imkan verilmədi?**



Taleyin acı qismətidi ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hərbi naziri Xosrov bəy Sultanov da, müstəqil Azərbaycan Respublikasının ilk Müdafiə naziri Valeh Bərşadlı da hər ikisi Zəngəzurludur. İkisinin də vəzifədəki taleyi, istefa səbəbi eyni oldu; vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinə imkan verilmədi, Azərbaycanda erməni məsələsinin birdəfəlik həllinə daha yuxarı dairələrdə maneələr yaradıldı. İkinci Qarabağ savaşı da 24 noyabr 1988-ci ildə Valeh Bərşadlının doğulduğu Eyvazlının tamamən qarət, talan edilib yandırılması ilə başlamışdı.

V.Bərşadlı 6 iyul 1927-ci ildə Qubadlı rayonunun Eyvazlı kəndində dünyaya gəlib, 15 may 1999-cu ildə vəfat edib. Məzarı Fəxri xiyabandadır.

Eyvazlı daşnak yuvası Gorus şəhərinə bitişik idi, Andranik Ozanyan 10 minlik silahlı nizami silahlı qüvvələri 1918-ci ildə bu kəndi məhv etmişdi, Bərşadlının mənsub olduğu nəslin, doğma və əzizlərinin əksər hissəsi 1905-20-ci il erməni qırğınlarında amansızlıqla qətlə yetirilmişdi, atası Stalin repressiyasının həbsxanasından keçmişdi, ata-anasız günlər keçirmiş, həmyaşıdlarının həyətdə və məktəbdə “xalq düşməni” oğlu olduğu üçün ondan uzaq durmalarının mənəvi əzablarını yaşamışdı, yalnız xeyirxah insanların bu zəkalı uşağa qayğısı sayəsində sağ qalmışdı. Kimsəsiz uşaq məcburiyyət qarşısında qalaraq yaşını artırdığını da etiraf edib 14 yaşında könüllü hərbi xidmətə getmişdi. 18 yaşında ilk hərbi təhsilni əvvəl Bakı Zenit Artileriyası Məktəbi və Qırmızı bayraqlı Kiyev Özüyeriyən Artilleriyası Məktəbində alıb ardınca SSRİ-nin ən nüfuzlu iki

hərbi akademiyasını, həmçinin, SSRİ Silahlı Qüvvələri Baş Qərargahının Akademiyası tarixində ilk azərbaycanlı olaraq bitirib 43 il SSRİ Silahlı Qüvvələrində xidmət etmişdi. General Bərşadlı alay, diviziya komandiri və 70-ci illərdə Almaniyada yerləşən 100 min nəfərlik şəxsi heyəti olan Ordu komandanının 1-ci müavini vəzifələrində çalışıb. 50 yaşında sovet ordusunda general-leytenant rütbəsi almış ilk azərbaycanlıdır. Çiyinlərində 25 il general paqonu gəzdirən komandan Rusiya Müdafiə Nazirliyində ona təklif edilən çox böyük postlardan imtina edərək Azərbaycandan gələn dəvəti tərəddüd etmədən, bütün mövcud çətinlikləri göz qabağına alaraq qəbul etmişdi.

Prezident Ayaz Mütəllibov 1991-ci il oktyabrın ilk günlərində keçmiş sovet ordusunda xidmət etmiş generalları bir araya gətirib onlarla məsləhətləşməyi tapşırır. Bu toplantıda generallar kimi nazir görmək istədiklərini də müəyyənləşdirməli idilər. Onların fikri, rəyi, qərarı yekdil və birmənalı olur, hamısı tərəddüdsüz yalnız bir nəfərin adını çəkir: Valeh Bərşadlı! Moskvanın diqtəsi ilə düşünüb hərəkət edən bir xeyli deputat və səlahiyyətli dövlət məmurunun açıq və gizli formada əleyhinə çıxmasına baxmayaraq, Ali Sovet "Müstəqil Müdafiə Qüvvələri" – Silahlı Qüvvələrin yaradılması barədə qərar qəbul etmiş, Prezident A.Mütəllimov "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaradılması haqqında Sərəncam vermişdi: *"Valeh Əyyub oğlu Bərşadlı yoldaşı Azərbaycan Respublikasının müdafiə naziri təyin etmək məqsədəuyğun sayılsın.Bu fərman Azərbaycan Respublikası Ali Sovetinin müzakirəsinə verilsin. Bakı şəhəri, 5 sentyabr 1991-ci il. № 334"*

Oktyabrın 9-da Ali Sovetin Silahlı Qüvvələrin yaradılması haqqında qərarı qəbul edilən saatda müdafiə naziri V.Bərşadlı birinci briqadanın yaradılması barədə əmrə imza atdı. Komplektləşmədən, gərgin məşqlərdən sonra birinci tabor 1991-ci il dekabrın 8-də Şəhidlər Xiyabanında Hərbi Andı qəbul edib dekabrın 12-də bütün cəbhə boyu Daxili İşlər və Milli




Təhlükəsizlik Nazirliyinin qüvvələri ilə birlikdə uğurlu döyüş əməliyyatları aparılırdı. “Əfqan”ların böyük əksəriyyətinin cəlb edilməsi də çox mühüm faktor idi.

Valeh Bərşadlı 5 sentyabr - 11 dekabr 1991-ci ilədək cəmi 95 gün müdafiə naziri işlədi. Onun haqqında analitiklərin ən çox işlətdiyi bu sözdür:- Valeh Bərşadlı Azərbaycan Milli Ordusunu sağlam təməl üzərində yaratmağa başlamışdı.Valeh Bərşadlını işləməyə niyə qoymadılar? Çünki O Azərbaycan torpaqlarının işğal planlarının həyata keçirilməsi və silahlı qüvvələrin çirkin siyasi oyunlara cəlb edilməsi qarşısında ən böyük maneə idi.

Valeh Bərşadlı ermənilər və onların havadarlarının bu müharibəni “Dağlıq Qarabağ xalqının azadlıq mübarizəsi” kimi qələmə vermək planlarının arxasında hansı məkrli məqsədlərin dayandığını əksər siyasilərdən fərqli olaraq düzgün anlayır, nəticələrini də aydın görürdü. Bu planın məqsədi, əsas ana xətti o idi ki, düşmən içəridən təmizlənməli, tərksilah olunmalı, silahlı qüvvələrimiz Qarabağdan separatçıları tam təmizləməli idi! Valeh Bərşadlının nazir olduğu günlərdə şəxsən hazırladığı

“Azərbaycanın Ümumi Müdafiə Planı” kağız üzərində qaldı. (Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun Azərbaycan Milli Şurasına göndərdiyi “Qarabağda ingilis siyasəti

ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər" raportu ilə müqayisə et, yəni "ingilis"i "rus"la dəyiş). Eks Baş nazir Pənah Hüseyn 10 il sonrakı müsahibəsində söyləmişdi: *"General Bərşadlı Müdafiə Planını hazırladığı vaxt biz hamımız yalnız hücum barədə düşünürdük".* Planı Prezident Əbülfəz Elçibəyə də təqdim edilir. Prezident, Ali Baş Komandan Elçibəy Planı bəyənir, təsdiq edir və dərhal icra olunması üçün göstəriş verir və deyir: *"Cənab general, mən özüm də bu gündən sizin əsgərinizəm"*-demişdi. Ancaq Planın təsdiq olunmasından bir həftə keçmir ki, Təhlükəsizlik Şurasının iclasında özünün iştirakı olmadan, türkiyəli müşavirlərin də israrına baxmayaraq, Valeh Bərşadlı vəzifədən azad edilir. 100 minlik ordunun Komandanı olmuş general-leytenant Valeh Bərşadlı Cəmşid Naxçıvanski adına hərbi liseyə rəis təyin edilir.

Bundan sonra "Azərbaycanın Ümumi Müdafiə Planı" yaddan çıxır. Plan bir də 1993-cü ilin aprelində, Kəlbəcərin işğalından sonra Prezidentin yadına düşür. Və bəlli olur ki, general Valeh Bərşadlının hazırladığı Plan kağız üzərində icrasız qalıb. General Valeh Bərşadlının sonralar bir müsahibəsində həmin plan haqqında dedikləri: *"Həmin dövrdə Azərbaycanda, Ermənistanda və maraqlı dövlətlərdə gedən proseslərin təhlili göstərirdi ki, qələbə asan olmayacaq. Amma əlimizdə olanları qoruyub saxlamaq imkanımız var idi. Təəssüf ki, bu imkandan istifadə etməyə bizə imkan vermədilər".*

Valeh Bərşadlının bunlarla paralel ikinci planı "Partizan Müharibəsi" adlanırdı.

Müharibə hələ bitməyib, işğal altında qalmış torpaqlarının "lazım gəlsə" hərbi yolla azad ediləcəyini bəyan edən dövlət üçün böyük hərbi strateq general Valeh Bərşadlının hardasa Müdafiə Nazirliyinin seyflərində saxlanan hər iki Planı yenə də aktuallığını saxlamaqdadır.

Artıq bir neçə epizodik testdən sonra nazir postunda bu dəfə 1990-cı il Yanvar hadisələri ilə əlaqədar SSRİ DTK tərəfindən həbs olunaraq Moskvaya, məşhur "Lefortovo" həbsxanasına

aparılıb 8 ay saxladıqdan sonra lazımi səviyyədə təlimatlandırılaraq buraxılmış mülki vətəndaş Rəhim Qazıyev idi. Xalq Cəbhəsi hakimiyyəti tüpürdüyünü yalayaraq, biabırçı məğlubiyyətlərin siyahısını uzatmamaq üçün general-leytenant Valeh Bərşadlını yalvar-yapışla bu dəfə sıravi Rəhim Qazıyevə müavin-Qərargah rəisi gətirdilər. Qərargah rəisi işlədiyi qısa zamanda özünün şəxsən işləyib hazırladığı, Müdafiə Nazirliyini zəbt etmiş Moskvanın agentura şəbəkəsindən gizli saxlamağı bacardığı və birbaşa Səngərdən rəhbərlik etdiyi əməliyyatlarla 2 rayon mərkəzini və 78 erməni kəndini rus-erməni silahlılarından və mülki erməni əhalidən təmizlədi. Ermənilər məhz həmin günlərdə Bakıya israrla yalvarış dolu müraciətlər göndərərək respublika rəhbərliyindən Azərbaycandan onlara Rusiyaya köçmək üçün yol açılmasını, maşınlar verilməsini xahiş edirdi, qoşunlarımız əhalisi tərk edilən Xankəndinin 300 metrliyində idi. Gəncə və Kürə qədər əraziləri tutmağı qarşısına məqsəd qoyan rus və erməni hərbi-siyasi rəhbərləri şokda idi.

Moskva və Bakıda hakimiyyətə gəlmək üçün marığa yatıb uyğun zamanın gəlişini gözləyənlər qüvvələr Qarabağ savaşındakı uğurların həm də onların planlarını puça çıxaracağını görüb əlaltılarına, öz agentura şəbəkəsinə Valeh Bərşadlıdan təcili yaxa qurtarma komandası vermişdi. Valeh Bərşadlı evindən, nazirlikdən hər girib çıxanda "istefa" bağırtıları ilə qarşılanıb yola salınırdı, yandaş media haqqında nələr yazmırdı! Ömrü uzunu xarici ölkələrdə yaşayıb çalışmış, xaraktercə ciddi intizama, dönməz iradəyə, qətiyyətə, mərdanə şəxsiyyəti qıran, sındıran hər gün evinin, iş yerinin qabağında aramsız mitinqlər keçirib vay-şivən salan öyrədilmiş, qarşılarına qoyulmuş məqsədə çatanadək, həyasızlığın bütün əndazələrini nümayiş etdirmək üçün hər cür təminat almış muzdlu, sifarişli gədə-güdələrin murdar həyasızılığı oldu. Əxlaqlı, mədəni insan belə yerdə sınır, qırılır, Valeh Bərşadlı da eləydi. Generalın özündən yuxarıdakılara *"bu küçüklərinizi küçələrdən yığışdırın!" tələbinə də belə cavab almışdı:–demokratiyadır da, nə deyə bilərik, çıxın özünüz*

*cavabların verin...müharibə gedən bir ölkənin başbilənlərinin düşüncəsi bu idi. Goranboy və Ağdərə əməliyyatlarını bitirib son məqsədə doğru həlledici addım atmağa hazırlaşan Valeh Bərşadlı belə bir zamanda istefa verməyə məcbur edilir.*

V.Bərşadlının Azərbaycan dilində yaxşı danışa bilmədiyini başına qaxanc edən siyasətçi şairlər cavabı da yaddaşlarda qalıb: *"Şeir və poema yazmaqla torpaqlar azad olunmur."*

Erməni bizdən fərqli olaraq başına gələndən dərs alır, ağıl işlədir, strateji planlar hazırlayıb bütün qüvvələrini-hərbi, siyasi, mülki, informasiya, psixoloji, iqtisadi gücünü birləşdirib onun gerçəkləşməsinə yönəldir: 1918-20-ci illərdəkindən fərqli olaraq 1992-ci ildə 2-ci Qarabağ müharibəsində ermənilər bu dəfə Ermənistandan yox, Azərbaycanın ortasından Qarabağın içindən hücum edib Şuşa, Laçını alıb Qarabağla Ermənistanı birləşdirdilər, koridor açdılar! Həm də dünyaya bu işğal və təcavüzün "Dağlıq Qarabağ xalqının" milli azadlıq, müstəqillik uğrunda mücadiləsi olduğunu göstərmək üçün!

V.Bərşadlı bunları siyasi hakimiyyətə anlada bilmədi, nə yuxarılara sərf edirdi, nə hakimiyyətə gəlmək istəyənlərə.

Qədrini bilmədiyimiz, gərəyincə dəyərləndirmədiyimiz təkcə vətən torpaqlarımız olmayıb, həm də generallar Valeh Bərşadlı, Məhəmməd Əsədov kimi şəxsiyyətlər olub. Bədəlin də necə lazımdı, artıqlaması ilə ödəyirik.

Mənbə:http://zengezur.com/index.php/mqallr/105-muestqil-azrbaycann-ilk-muedafi-naziri-general-leytenant-valeh-bradl



## 96. Şəhid general Məhəmməd Əsədov haqqında nə bilirik?

Zəngəzur mahalının bir parçası olan Zəngilan rayonu haqqında ümummilli lider Heydər Əliyev demişdir: *"...Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir".*

Zəngilan torpağının Azərbaycan xalqına bəxş etdiyi ən layiqli, dəyərli övladlarından biri general Məhəmməd Əsədovdur.

Məhəmməd Nəbi oğlu Əsədov 1941-ci il dekabr ayının 5-də Zəngilan rayonunun Baharlı kəndində anadan olub. Onun doğulub boya-başa çatdığı Baharlı kəndi dünyada ikinci, Avropada birinci çinar meşələrinin boy verdiyi Bəsitçayın Araza qovuşduğu yerdə yerləşir. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin "Maliyyə və kredit" fakültəsini bitirib, DTK-nın Mərkəzi Ali Məktəbini bitirib, bir müddət Sumqayıtda, DTK-da işləyib, Jdanov (indiki Beyləqan), Ağdaş, Quba rayonlarında partiya komitəsinin birinci katibi vəzifəsində çalışır. Azərbaycan KP MK-da "İnzibati orqanlar" şöbəsinin müdiri vəzifəsinə təyin olunur. Uzun illər səmərəli fəaliyyətinə, DQMV ilə bağlı verdiyi təkliflərinə və təhlükəsizlik orqanlarında çalışdığını nəzərə alıb, 1990-cı ilin may ayında Məhəmməd Əsədov Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilir. Bu təyinat, o dövr üçün, vaxtında və yerində verilən təyinat idi. Nazir təyinatının ilk günlərindən Çaykənd, Qarabulaq, Todan, Erkəc, Mənəşid və digər kəndlərin quldurlardan təmizlənməsi əməliyyatlarında şəxsən iştirak edir, sərhəd rayonlarında əsgərlərlə çiyin-çiyinə, Vətəni, torpağı qoruyurdu. M.Əsədov həyəcan təbili çalır, təcili tədbirlərin

görülməsi üçün Moskvaya – SSRİ Daxili İşlər Nazirliyinə müraciət ünvanlayır, asayişi qorumaq üçün silah-sursat tələb edirdi. Tez bir zamanda xüsusi təyinatlı milis dəstəsini (OMON) yaradır. Xocalı aeroportunda ermənilərin gediş- gəlişinə nəzarəti gücləndirmək üçün DİN-in qüvvələrini səfərbər edir. DİN Respublikanın çıxış yollarını ciddi nəzarətdə saxlayırdı. Ona general-mayor rütbəsi verilir.

Barannikovu çıxarıb yerinə təyin etdiyi daxili qoşunların komandanı general Ramiz Məmmədovun xatirələrindən: *"Məhəmməd Əsədovun adından belə erməni separatçıları qorxurdular. Ratsiya vasitəsi ilə danışıqlar zamanı onun gizli kodu "Çornıy polkovnik" idi."*

Polkovnik Rövşən Cavadovun komandanlığı altında OMON yaradılması, aparılan bir sıra uğurlu əməliyyatlar əhalidə tezliklə münaqişəyə son qoyulacağına inam, ermənilərdə vahimə yaratmışdı. OMON ermənilər üçün qorxunc kabusa çevrilmişdi.

Tez-tez cəbhə bölgələrində olan M.Əsədov torpaqların, mülki əhalinin müdafiəsinin gücləndirilməsi üçün təxirəsalınmaz, təcili tədbirlərin görülməsi barədə 27.08.1991-ci il tarixli №2/149 saylı altı vərəqdən ibarət məktubla Baş nazirə və Prezidentə kəskin müraciətlər edir, ciddi təxirəsalınmaz təkliflərini bildirirdi. Respublikamızın ərazi bütövlüyü artıq təhlükədə idi. Əsl hərbçi, general Valeh Bərşadlı müdafiə naziri təyin edilsə də, yuxarıdan milli ordu quruculuğuna ciddi maneçiliklər yaradılırdı. M.Əsədovun da ermənilərə qarşı barışmaz, kəskin münasibəti, qətiyyətli mövqeyi, siyasi iradəsi respublikaya rəhbərlik edən şəxsləri qane etmirdi. Ona görə də erməni mövqelərini Xankəndi yaxınlığına qədər azad edib bütün cəbhə boyu hücum əməliyyatlarının gedişində, özü ön cəbhədə olarkən 1991-ci ilin 13 noyabrında M.Əsədovun nazir vəzifəsindən çıxarılıb Dövlət müşaviri təyin olunması haqqında sərəncam verilir.

Daxili İşlər Nazirliyi sistemində çalışmış veteranlar arasında rəy sorğusu keçirilmişdi; qəlib getmiş nazirlərin ən yaxşısı kim olub sualına böyük əksəriyyət Məhəmməd Əsədov və Arif




Heydərov cavabı vermişdi. Hər ikisinin taleyi faciəli olmuşdu və bunların heç biri təsadüfi deyildi..

SOCAR-ın məsul işçisi Ələkbər Abbasov xatirələrində deyir: *"1988-ci ildə Mərkəzi Komitədə Məhəmməd Əsədov mənim iştirakımla birinci katib Kamran Bağırova erməni separatizminin cinayətləri, məqsədləri barədə məruzə etdi. Kamran Bağırov bir az səbir etməyi məsləhət gördü. Məhəmməd Əsədov dedi: "Əşşi, nə səbir? İcazə verin inzibati orqanlara göstəriş verək, hamısı məlumdur, qandallayıb, gətirsinlər Bakıya. Sonra gec olacaq...Rəhbərlikdə ikili siyasət aparanları Məhəmməd Əsədov açıq şəkildə tənqid edir və onlara qarşı mübarizə aparırdı".*

Valeh Bərşadlının ardınca Məhəmməd Əsədovun Qarabağın, Azərbaycanın ərazi bütövlüyünün qorunmasına birbaşa cavabdeh vəzifədən azad olunması artıq respublika rəhbərliyinin Moskva və İrəvan qarşısında göstərdiyi itaətkarlığın göstəricisi idi.

1991-ci il noyabrın 19-da Ağdama uçan Məhəmməd Əsədov orada Dövlət katibi Tofiq İsmayılovun təşəbbüsü ilə keçirilən müşavirədə Rusiyanın, Qazaxıstanın Dağlıq Qarabağ problemi ilə məşğul olan yüksək çinli rəsmi nümayəndələri də iştirak edirdilər.

Hər üç dövlətin nümayəndələri, əvvəldən nəzərdə tutulduğu kimi, ikinci Mİ-8 N72 müşayiətçi olunmadan, yəni təhlükəsizliyi təmin edilmədən 1991-ci il noyabrın 20-də saat 13.48-də birincinin yerinə havaya qalxır. Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndidən

erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da, Yerevan radiosu saat 16:15-də, Tehran radiosu saat 16:40-da, Moskva radiosu saat 17:00-da yaydıqdan sonra rəsmi Bakının səriştəsiz rəhbərləri yalanlar uydurmaqla həqiqəti gizlətməyə çalışır, sülhməramlı nümayəndə heyətinin Qarakənd səmasında “olmayan dağa” çırpıldığı xəbərini xalqa sırımaq istəmişdi.

Bu hadisə Moskvanın barmağı ilə erməni terrorçularının Azərbaycanda törətdiyi ən dəhşətli, ən qanlı cinayətlərindən biri oldu, Qarabağ və ətraf rayonların müqavimətsiz itirilməsini tezləşdirdi, Bakının milli düşüncəli, qeyrətli, ağılla düşünən başlarını məhv etdi. Moskva respublika rəhbərliyini daha asan idarə etməyə başladı. Bundan əvvəl erməni quldurları general Məhəmməd Əsədovu Haaqa Məhkəməsinə vermişdilər, onun başına külli miqdarda pul qoymuşdular, 20 noyabr 1991-ci ildə bu qanlı cinayətdə onların ən çox sevindiyi Məhəmməd Əsədovun fiziki məhvi idi.

Məhəmməd Əsədov müstəqil Azərbaycanın ilk generalı, ordusu olmayan dövləti milis dəstələri ilə, xalqının köməkliyi ilə müdafiə edən unudulmaz şəxsiyyətdir.

20 noyabr 1991-ci ildə törədilmiş Qarakənd faciəsi 20 yanvar 1990-cı il faciəsinin davamı idi, xalqımıza qarşı Moskva-İrəvan cinayətlərinin tərkib hissəsi, Qarabağ və ətraf rayonların itirilməsini tezləşdirən əsas amillərdən biri idi.




**97. Milli Qəhrəman Əliyar Əliyevin komandirliyi ilə yerli əhalinin döyüşləri haqqında nələri bilməliyik?**

Tarix təkrar oldu; Azərbaycan Xalq Cümhuriyyəti parlamenti, hökuməti, ardınca da Azərbaycanın kommunist-bolşevik hakimiyyəti, 70 il sonra da müstəqil Azərbaycan Respublikası ölkəmizə qarşı planlı rus-erməni təcavüzü qarşısında hazırlıqsız, aciz durumda qaldı.

Zəngəzurun qapısı, Ermənistan və DQMV ilə 130 km sərhəddi olan Qubadlıda idman müəllimi Əliyar Əliyevin rəhbərlik etdiyi özünümüdafə alayı 1988-ci ildən başlayaraq ərazinin müdafiəsinə rəhbərlik etmiş, düşmənə sarsıdıcı zərbələr vurulmuşdu. Xocalı soyqırımından bir neçə gün sonra yuxarıların əmri olmadan daşnak yuvasına çevrilmiş Gorusun altını üstünə çevirmiş, Moskva və İrəvan KİV-ləri bu hücum zamanı 336 nəfərin öldürüldüyünü yazmışdı. Bununla bağlı Ermənistanda üç gün matəm elan edilmişdi, İrəvanda keçirilən mitinqlərdə Əliyar Əliyevə və onun 3 döyüşçüsünə ölüm hökmü çıxarılmışdı. 1992-ci ilin aprel ayının 16-da “Qara bəbir” ləqəbli Suriya ermənisi Karlenin başçılığı ilə xaricdə xüsusi hazırlıq keçmiş 50 nəfərlik diversiya qrupu Lalazar körpüsünü partladıb Qubadlının sərhəd kəndlərinin rayon mərkəzi ilə əlaqəsini kəsmək, strateji yüksəklikləri ələ keçirmək üçün hücuma keçmişdi. Kəşfiyyat məlumatları nəticəsində bundan xəbər tutan və onların yolunu gözləyən Əliyar Əliyevin döyüşçüləri və rayon milis şöbəsinin əməkdaşları onları mühasirəyə alaraq dəstəbaşıları da daxil, 11 düşmən əsgərini məhv etmiş, həmin meyitləri azərbaycanlı əsirlərə dəyişmişdilər. 1992-ci ilin iyun ayının 24-də Qubadlı rayon mərkəzinə ölüm gətirən 3 hərbi vertolyotunu vurub yerə salan da Əliyar Əliyevin döyüşçüləri olmuşdu. 1992-ci ilin avqust



ayında həyata keçirilən "Şurnuxu" əməliyyatında ermənilər 80-dən çox canlı qüvvə və bir neçə texnika itirdi, qənimətlər əldə edildi. 20 rus və erməni silahlısını canlı olaraq ələ keçirildi. İşğalın son günlərinədək 1993-cü ilin 31 avqustunadək Qafan-Gorus yolunu nəzarətdə saxlamağı da bacarmışdı. 1992-ci il sentyabrın son günlərindən başlayan əməliyyatda işğal altındakı Laçının 14 kəndi 3 gün ərzində ermənilərdən azad edildi. Laçının 2 km-ə qədər irəliləyən döyüşçülərin Laçın koridorunu bağlanmasına az qalmış Əliyar xainliklə qətlə yetirildi. Bu və digər faktların hamısı eynilə Azərbaycan Prezidenti Heydər Əliyevin 1996-ci il sentyabrın 7-də Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının işğalının 3-cü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyət nümayəndələri ilə görüşündə səslənib, rəsmi qəzetlərdə dərc olunub.

1993-cü il avqustun son günləri Bakıdan verilmiş əmr üzrə bölgəni qoruyan bütün hərbi hissələr canlı qüvvəsi, silah sursatı ilə birlikdə Ermənistan və işğal altında qalan Laçın, Cəbrayıl, DQMV ilə 130 km sərhəddi olan Qubadlı ərazisindən çıxarılmış, mülki əhali hər tərəfdən hücum edən erməni silahlı dəstələri ilə təkbətək, üzbəüz qalmışdı. Bunun nəticəsi idi ki, təkcə işğalın son iki günündə, yəni 30-31 avqustda qətlə yetrilmiş mülki şəxslərin sayı 183 nəfər, işğal zamanı güllə yarası və ya digər səbəbdən əlil olanların sayı 238 nəfər, işğal zamanı aldığı zərbədən sonralar vəfat etmiş şəxslərin sayı 9 nəfər, ermənilər tərəfindən girov götürülmüş və işgəncələrə məruz qalmış şəxslərin sayı 49 nəfər, rayondan məcburi köşkün düşmüş əhalinin sayı 29997 nəfər olmuşdu (http://www.qubadli-ih.gov.az/page/42.html.) Bəllidir ki, 802 min kv.km ərazisi olan rayon, şəhər, kənd, qəsəbə uğrunda savaşda ilk növbədə və ən çox döyüşçü, əsgər savaşıb həlak olmalıydı. Milli Ordu, Daxili İşlər Nazirliyinin şəxsi heyətinin

cəmi 5 nəfər şəhidi, 3-4 də yaralısı olmuşdu. Bunlar da ərazini döyüşsüz tərk etmək haqqında verilmiş əmrə tabe olmayıb doğma yurdunu, el-obasını, darda qalmış ailələrini, həmvətənlərini labüd ölümün murdar əllərindən xilas etmək üçün fərari ordudan yayınanlar idi. Halbuki, təkcə Ağdamın Güllücə kəndi istiqamətində 1994-cü il aprelin 16-da erməni hücumunun qarşısını alarkən - olduqca naşı, nadan əməliyyatda bir gündə 30 Qubadlılı əsgər Şəhid olmuşdu. 1988-ci ildən 1993-cü il avqustun 29-a qədər 54 nəfər (onların 12-i milis işçisi) Şəhid olmuşdu.

Təəssüf ki, Azərbaycan xalqı, dövləti 1941-45-ci il müharibəsində göstərdiyi vətən, torpaq uğrunda savaş ruhunu Qarabağ müharibəsində göstərə bilmədi. Müqayisə edək: Böyük Vətən müharibəsində respublikanın ən kiçik rayonlarından biri olan Qubadlıdan döyüşən orduya 3500 nəfər çağırılmışdı, onlardan 2000 nəfəri cəbhədə həlak olmuşdu. Qarabağ savaşında əhalisinin say nisbətinə görə respublikada ən çox şəhid verən rayon da Qubadlı olub: 238 nəfər. (http://www.qubadli-ih.gov.az/page/11.html.) 24 evli Saray kəndimizdən cəbhəyə gedən 24 nəfərin yarısı, 3-ü də mənim əmim olmaqla, 12 nəfər həlak olmuşdu. 1988-1993-cü ildə torpaq uğrunda gedən döyüşlərdə 35 evli kəndimizdən tək bir nəfər 1988-1993-cü ildə torpaq uğrunda gedən döyüşlərdə 35 evli kəndimizdən tək bir nəfər, qan qohumum və şagirdim Şirinov Məğrur İsgəndər oğlu Şəhid oldu. Məkanları behişt olsun!





Zəngəzurun sərhəd qapısı Qubadlının işğal mənzərəsini Qubadlı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə yazılıb nəşr edilmiş Tariyel Cahangirin "Vətən oğul istəyəndə" kitabından ("Günəş" nəşriyyatı-1998, 342 səh) rayonun Dondarlı kəndində doğulmuş Şəhid Nadir Ərşad oğlu Bədəlova həsr edilmiş "Doğma yurdu tərk etmədi" başlıqlı yazıdan sitatla canlandıraq: *"Xəyanət öz işini görürdü. 1993-cü il avqustun 30-da xüsusi göstəriş əsasında silahlı qüvvələr Qubadlıdan çıxarıldı. Qoşunlar rayonu tərk edəndən sonra əhali doğma ocaqdan ayrılmağa məcbur oldu. Nadir və onun bir qrup döyüşçü dostu-7 topçu və 1 sürücü Yazı düzündə özlərinə mövqe seçərək son nəfəslərinə qədər doğma torpaqları tərk etməyəcəklərinə and içdilər. Heç bir müqavimətə rast gəlməyən düşmən avqustun 31-də genişmiqyaslı hücuma keçdi. Rayonun bir hissəsi-Həkəri çayının hər iki sahilindəki kəndlər güclü top və raket atəşlərinə tutulur, yaşayış məntəqələri od içində yanır, heç bir köməyi olmayan günahsız dinc əhali qırılır, itkin və girov düşür, sağ qalanlar çay aşağı qaçırdılar. Günortadan xeyli keçmiş Nadirgilin mövqeyinə doğru 22 müasir rus tankı (komputerlə idarə olunan) irəliləyirdi...Nadirin əmri ilə düşmən tanklarına sərrast atəşlər açdılar. Erməni tanklarının bir neçəsi sıradan çıxdı. Onlarla düşmən əsgəri məhv edildi. Bir neçə saat davam edən qeyri-bərabər döyüşdə taqım komandiri qəhrəmancasına həlak oldu..." (*səh.79-83).

Eyni oxşar ssenari Kəlbəcər, Şuşa, Laçın, Xocalı, Füzuli, Ağdam, Cəbrayıl, Zəngilanda təkrar olunmuşdu. Bu bölgələrin düşmən əlinə keçməsində yerli əhalini günahkar, suçlu saymaq nadanlıqdır və cinayət, xəyanətin-acı həqiqətlərin üstünü uğursuz ört-basdır etmək cəhdidir.

## Qubadlının yazıçı, şair yetirmələri: sələflər, xələflər



Süleyman Rəhimov, Əli Vəliyev, Qasım Qasımzadə, Cəlal Bərgüşad, Əli İldırımoğlu, Ramiz Rövşən, Eldar Baxış, Famil Süleymanov, Şamo Arif, Xasay Cahangirov, Rafiq Yusifoğlu, Əliağa Cəfərov, Mahirə Abdulla, Dostəli Abdullayev, Əli-Ağa Aslan, Rəşid Bərgüşadlı, Namiq Məna, İlhamə Nasir, Qaratel Azəri, Mürvət Qədimoğlu, Elbrus Qayalı, Ədalət Nicat

AYB Qubadlı Regional Bölmə www.qrb.az

**98. 2016-cı il aprel döyüşlərinin iki qəhrəmanı: general-mayor Mais Bərxudarov və Milli Qəhrəman Şükür Həmidov haqqında nə bilirik?**






Mais Şükür oğlu Bərxudarov 20 aprel 1976-cı ildə Qubadlı rayonunun Dəmirçilər kəndində doğulub, adını 2016-cı ilin aprelin 1-5-i dördgünlük müharibə tarixinə əbədi yazdırıb, general-mayor rütbəsi alıb. Bundan əvvəl isə Azərbaycan Bayrağı ordeninə, "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edilib. Orta məktəbdə oxuyandan Azərbaycanın Milli Qəhrəmanı, idman məşqçisi Əliyar Əliyevin siniflərində sərbəst güləşlə məşğul olub. Zabit, hərbçi olmaq arzusu onu Cəmşid Naxçıvanski

adına hərbi liseyə gətiri. Əliyar Əliyevin ardınca Liseyin rəisi olmuş general-leytenant Valeh Bərşadlının Maisin hərbçi kimi yetişməsinə birbaşa təsiri olub. 1993-cü ildə Mais Bərxudarov bir qrup kursantla könüllü ön cəbhəyə döyüşə getmək qərarı verəndə Bərşadlı onları yanına çağırır və bildirir ki, bunu etmək olmaz, sizin öhdənizə gələcəkdə daha məsul vəzifə düşəcək, o günə hazırlaşmaq, özünüzü professional hərbçi komandir kimi hazırlamaq lazımdır. General onları təhsillərini davam etdirməyin zəruriliyinə inandıra bilir. Prezident Heydər Əliyev düşmən arxasında hərbi tapşırığı uğurla yerinə yetirdiyinə görə 1998-ci ildə baş leytenant Mais Bərxudarovu "Azərbaycan Bayrağı" ordeni ilə təltif dir, bu ordeni ona şəxsən təqdim edir. 2012-ci ildə polkovnik M.Bərxudarov "Vətən uğrunda" medalı ilə təltif olunur.

Azərbaycan və erməni xalqı 2016-cı ilin aprelin ilk günlərində korpus komandiri polkovnik Mais Bərxudarovu tanıdı; xalq sevgi, məhəbbət, qürur hissi ilə, düşmən isə kin, nifrət, qəzəb, qorxu, vahimə ilə. Komandir çoxdan gözlədiyi bu döyüşün, hücumun önündə idi, yalnız cəsur, vətənsevər, qorxubilməz komandirlər əsgərini savaşa apara, zəfərə yetirə bilər. Mais bunu bacarmışdı.

Qarabağ müharibəsinin ilk döyüş generalı Mais Bərxudarovun adı xalqımızın yaddaşına əbədi yazıldı. Komandirdən sitat: *"Lələtəpə yüksəkliyi qısa müddətdə düşməndən azad olunub. Döyüş təqribən 40 dəqiqə davam etdi və ermənilərin mövqelərini tam ələ keçirdik. Düşmən bir atəş də aça bilmədi, çünki səngərdə olanların hamısını məhv etmişdik. Onların artilleriya silahlarını tam sıradan çıxartmışdıq, düşmən bizə güllə ata bilmirdi. Düşmən elə bir hazırlıqlı ordu ilə rastlaşdı ki, qaçmaqdan başqa əlacı qalmadı. Azərbaycan ordusunun kəşfiyyatçıları, döyüş qrupları Lələ təpə yüksəkliyini işğaldan azad edəndən sonra düşmən qaçmağa başladı. Düşmənin bir neçə hərbi qulluqçusu, hətta zabitləri bizə yalvarırdılar ki, onları öldürməyək. Erməni zabitləri deyirdilər ki, bizi öldürməyin, təslim oluruq və geri çəkilirik".* Mais haqqında yaxınlarına bəlli olan bəzi həqiqətlər də




bundan sonra bəlli oldu: Prezident Heydər Əliyev onun Qubadlıdan məcburi köçkün olduğunu, ailəsinin baba-nənələri ilə birlikdə dar, çətin mənzil şəraitində yaşadığını öyrənib ona 3 otaqlı mənzil də bağışlamışdı. Gənc zabit Prezidentə təşəkkürünü bildirərək deyir: *"Cənab prezident, cənab Ali Baş Komandan! Sizin bizə verdiyiniz istənilən ad, titul və hədiyyələr müqəddəsdir, şərəflidir. Lakin icazə versəydiniz, mənə bağışladığınız o evi tabeçiliyimdə olan və döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş hərbi qulluqçumuzun ailəsinə bağışlayasız. Mənim ailəm bir təhər evsiz yaşayar. Amma onların evləri yoxdur..."*

Aprel döyüşlərində göstərdiyi şücaətə görə Milli Qəhrəman adı alan polkovnik-leytenant Şükür Həmidov Qubadlı rayonunun Başarat kəndində doğulub, Alyanlı adlanan bu bölgənin igidləri XX əsrin əvvəllərində ermənilərə qan udduran qaçaq, qocaqların vətəni olub. Ş. Həmidov Cəmşid Naxçıvanski adına hərbi litseyi, Həzi Aslanov adına Hərbi Məktəbi bitirib. Aprel döyüşləri haqqında müsahibəsində deyib: *"Əks hücum edərək onların bölmələrini ön xəttimizdən qovduq və Lələtəpə yüksəkliyindən Yaşıl təpə deyilən dağa qədər düşməni mövqelərdən çıxardaraq əlverişli hədlər üzrə mövqelərimizi möhkəmləndirdik. Güclü*

*ordumuzun, peşəkar komandirlərimizin başçılığı altında üçrəngli bayrağımızı Şuşa qalasında, Xocalıda, Qubadlıda və digər işğal olunmuş bölgələrimizdə dalğalandıracayıq. O yerləri yenidən xalqımızı qaytaracayıq".* Onun komandiri olduğu tankçılar məharət, peşəkarlıqla hücuma keçən 9 düşmən tankının 7-ni, 15 texnikasını məhv etmişdi. Düşmən bu komandirin və döyüşçülərinin şücaəti qarşısında əllərində olan silah-sursatı açıb səngərləri boşaldıb qaçmağa məcbur olmuşdular.

Lələtəpə döyüşü erməni mifinin puçluğunu,Ordu və əsgərimizin gücünün göstəricisi, əyani təsdiqi oldu. 4 günlük bu müharibə Azərbaycan üçün dərs oldu; yağı tapdağında qalan torpaqlar yalnız savaşla alına bilər, alınmalıdır, ikinci yol yoxdur, Azərbaycan gecikmədən bu yolu tutmalıdır, çünki ötən hər il o torpaqları bizdən daha da uzaqlaşdırır. Əsgər döyüşə hazırdır, döyüş əmrini, qərarı siyasilər verməlidir.

**99. Son iki əsrdə Zəngəzur mahalının və digər torpaqlarımızın işğalını şərtləndirən amilləri necə ümumiləşdirmək olar?**

1. Çar Rusiyası və bolşevik Rusiyasının, sovet-kommunist rejiminin Pyotr vəsiyyətləri ilə başlanan Qafqazda imperiya maraqlarını reallaşdırmaq, daimi qoruyub saxlamaq, İran və Türkiyənin yolunu bağlamaq, gələcəkdə Şərqə doğru irəliləmək üçün xristian erməni dövlətinin qurulması siyasəti;
2. Birinci Dünya müharibəsində qalib gələn böyük dövlətlərin (ABŞ, Böyük Britaniya, Fransa, İtaliya və d.) XX əsrin əvvəllərində Anadoluda ermənilərə vəd etdikləri müstəqil dövlət yaratmaq planlarının Atatürk komandanlığında Qurtuluş hərəkatının zəfərləri nəticəsində puça çıxması və Osmanlı dövlətinin düşdüyü ağır durum üzündən bu planın Azərbaycanın tarixi ərazilərinə köçürülməsi.
3. 1915-ci ildə xəyanətkar ermənilərin Osmanlı hüdudlarından kənara köçürülməsi nəticəsində silahlandırılmış, azğınlaşmış

qisasçı, nizami qoşun hissəsinin Naxçıvan, Qərbi Azərbaycan, Zəngəzur ərazisində törətdiyi qanlı qırğınlar, deportasiya, işğal siyasətini reallaşdırması.

4. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin, ardınca Azərbaycanın kommunist-bolşevik rəhbərlərinin-Azərbaycan SSR-in, sonra da müstəqil Azərbaycan Respublikasının ölkənin ərazisinin və əhalisinin müdafiəsi üçün lazımi qətiyyət, milli iradə göstərməməsi, torpaqların müdafiəsinin silahsız, qeyri-mütəşəkkil yerli əhalinin ümidlərinə buraxılması.

5. Azərbaycanda milli burjuaziyanın, mülkədarların, dini rəhbərlərin, ziyalı təbəqəsinin-düşünər qisminin onilliklər boyu xalqın mübarizə ruhunun güclənməsi, silahlanması, təşkilatlanması yolunda fəaliyyətsizliyi, erməni planlarına qarşı hərəkətsizliyi, pərakəndəliyi, milli birliyə nail olunmaması.

6. Müsəlman-türk əhalisinin maariflənmə səviyyəsinin aşağı olması, unutqanlığı, sadəlövhlüyü, başına gələn, gətirilən faciələrdən lazımi nəticə çıxarmaması və digər.

**100. Qərbi Azərbaycan, Zəngəzur və Qarabağ torpaqlarının işğalının nəticələri rəqəmlərdə necə əks olunub?**

1988-ci ildə Ermənistanın 22 rayonunda, 6 şəhərində, 264 kəndində 250 min azərbaycanlı yaşamışdır. Azərbaycanlı əhalinin yaşadığı ərazi 7,5 min kvadrat km idi, yəni DQMV ərazisindən 3 min kv.km çox idi.

Azərbaycan torpaqlarının 20 faizi: Dağlıq Qarabağ, ona bitişik 7 rayon-Ağdam (ərazisinin 62,8 faizi işğal altındadır),Füzuli (ərazisinin 79,3 faizi işğal altındadır),Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan və Ermənistanla həmsərhəd bir sıra yaşayış məntəqələri - Naxçıvan Muxtar Respublikasının 1 (Kərki), Tərtər rayonunun 13 (Çardaxlı, Umudlu, Ortakənd, Talış, Həsənqaya, Şıxarx, Çanyataq, Çaylı, Ağdərə, Kiçikqarabəy, Qızıloba, Ağabəyyalı, Uluqarabəy), Qazax rayonunun 7 (Yuxarı Əskipara, Aşağıəskipara, Baqanis Ayrum, Xeyrimli, Barxudarlı, Soflu,




Qızılhacılı) kəndi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 600 yer adı erməniləşdirilib. 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuş, 4000 nəfərdən çoxu itkin düşmüşdür. İndi Ermənistan dünyada ən böyük insan orqanı ixracatçısıdır. Qarabağ müharibəsində itkin düşmüş Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyatda olan azərbaycanlıların sayı 3875 nəfərdir.

Xalqımızın, dövlətimizin ən böyük faciəsi itirilmiş torpaqlarımızdır, ən ağır dərdi yurd yerlərindən, ata-baba evlərindən didərgin düşmüş, o yerlərə qayıtmaq həsrəti ilə yaşayan, dünyadan nakam köçən, gözləri geridə qalan insanların əzablarıdır, mənəvi sarsıntılarıdır, Azərbaycan adına, imicinə vurulan əbədi tarixi ləkə, sağalmaz yaradır.

**Hacı Nərimanoğlunun "Zəngəzur: 100 sual, 100 cavab" elmi-populyar ktabı haqqında elmi redaktorun**

**Rəyi**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1997-ci il yanvarın 31-də AMEA-nın aparıcı alimləri və institut rəhbərləri ilə keçirdiyi görüşdə milli tarix elmi qarşısında Azərbaycan xalqının tarixinin yenidən obyektiv, vicdanlı yazılması vəzifəsini qoydu. Məsələnin bu müstəvidə qoyulmasının əsas səbəbi son iki əsrlik Azərbaycan tarixinin məqsədyönlü saxtalaşdırmalara məruz qalması idi. Bu, xüsusilə Azərbaycanın müvəqqəti itirilmiş torpaqlarının tədqiqi, tarixi həqiqətlərin üzə çıxarılması ilə bağlıdır.

Azərbaycan Prezidenti İlham Əliyev tariximizin tədqiqi ilə bağlı məsələlərdən danışarkən Zəngəzur problemini xüsusi vurğulamış, dövlətimizin bu bölgənin Azərbaycana məxsus olmasını sübut edən kitabların yazılmasını, gələcək nəsillərə çatdırılmasını tövsiyə etmişdir: *"İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır....Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün yol açmalıyıq."*

Hacı Nərimanoğlunun "Zəngəzur: 100 sual, 100 cavab" kitabı bu baxımdan aktualdır, dövlətimizin rəhbərinin bu çağırışına real cavabdır.

Kitabdakı sual-cavablarda Zəngəzur bölgəsinin ən qədim dövrlərdən günümüzədək olan tarixi, bir sıra böyük dövlətlərin fəal hərbi-siyasi dəstəyi ilə erməni silahlı qüvvələri tərəfindən soyqırımı, deportasiya, etnik təmizlənmə və işğala məruz qalması elmi-tarixi mənbələrə istinadla, sadə, aydın dildə əks olunub.

Kitabdakı zəngin faktoloji materiallar bir daha sübut edir ki, Zəngəzur həmişə Azərbaycanın dövlətçilik tarixinin tərkibində olmuş əzəli Vətən torpaqlarımızın ayrılmaz parçasıdır. Bu Azərbaycan torpağı erməni işğalına qədər həmişə öz türkçülüyünü qoruyub saxlamış, Azərbaycan elminin, mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

Azərbaycan Universitetinin Elmi Şurasının qərarı və QHT Şurasının maliyyə dəstəyi ilə Zəngəzur Cəmiyyətləri Birliyinin layihəsi əsasında nəşr edilən bu kitab Azərbaycanın müvəqqəti itirilmiş Zəngəzur bölgəsi tarixi həqiqətlərinin tədqiqi, təbliği, tanıtımı yolunda mühüm addımdır, geniş oxucu auditoriyasının rahatlıqla, sadə, lakonik üslubda informasiya alması, maariflənməsi üçün dəyərli mənbədir, gənclərimizin milli ruhunun, vətənpərvərlik duyğularının yüksəlməsinə sanballı töhfədir.

Qabil Əliyev
Azərbaycan Universitetinin İctimai elmlər kafedrasının
müdiri, tarix üzrə elmləri doktoru, professor



**Zəngəzur Cəmiyyətləri İctimai Birliyinin ilk sədri Kamran Əsəd oğlu Hüseynov**

15 dekabr 1913-cü ildə Zəngəzur qəzasının Çərəli kəndində anadan olmuşdur. 1934-cü ildən Bakı neft sənayesində müxtəlif vəzifələrdə çalışmış, ali təhsil alıb Ali Partiya Məktəbini bitirmişdir. Sumqayıt Rayon Partiya Komitəsinin sənaye və kadr işləri üzrə katibi, Binəqədi Rayon Partiya Komitəsinin birinci katibi, Mingəçevir tikintisinin partiya-siyasi rəhbəri olmuş, Neftçala Rayon Partiya Komitəsinin birinci katibi, Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır. 1958-1961-ci illərdə respublika Həmkarlar İttifaqları Şurasının sədri, 1961-1968-ci illərdə Moskva şəhərində Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının katibi işləmişdir. Respublikamızın bir sıra şəhər və rayonlarının, onlarla sənaye-tikinti obyektinin qurulmasında mühüm xidmətləri olmuşdur. Müxtəlif dillərdə çap olunmuş 16 kitabın, «Bir ömrün salnaməsi» avtobioqrafik əsərinin müəllifi, tarix elmləri doktorudur. Azərbaycan Respublikası Ali Sovetinin, eləcə də RSFSR Ali Sovetinin deputatı olmuşdur. 1968-1980-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 1980-1993-cü illərdə respublika Ticarət və Sənaye Palatasının sədri, müşaviri idi. Azərbaycanın ictimai-siyasi həyatında uzun illər səmərəli fəaliyyətinə görə «Şöhrət» ordeni ilə təltif edilmiş, fərdi təqaüdçüsü idi. Nüfuzlu dövlət, ictimai xadim 2006-cı il aprelin 20-də ömrünün 93-cü ilində vəfat etmişdir. Zəngəzur Cəmiyyətləri Birliyinin sədri olarkən, erməni işğalı nəticəsində doğma yurdlarını tərk etmiş qaçqın, məcburi köçkünlərin sosial vəziyyətinə yardım üçün xeyli iş görmüşdü.



**Zəngəzur Cəmiyyətləri İctimai Birliyinin ikinci sədri Tofiq Şəfaət oğlu Mehdiyev** 14 sentyabr 1946-cı ildə Zəngilan rayonunun Pircivan qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur. Bakı Kənd Təsərrüfatı Texnikumunu, Politexnik İnstitutunu bitirib, Bakı zavodlarında, Elmi Tədqiqat Energetika İnstitutunda, Kənd Təsərrüfatı Nazirliyində, Ümumittifaq Elmi Tədqiqat İnstitutunda, Kənd Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində işləyib. 1982-1987-ci illərdə Azərbaycan KP MK-nin kənd təsərrüfatı şöbəsində təlimatçı, MK katibinin köməkçisi, şöbə müdirinin müavini, 1987-1991-ci illərdə Azərbaycan KP Zəngilan Rayon Komitəsinin birinci katibi, Rayon Sovetinin sədri, 1991-1992-ci illərdə "Azərittifaq"ın sədri vəzifələrində çalışıb. MK-nın üzvü, XI, XII çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib. Deputatlığı dövründə bilavasitə T.Mehdiyevin təklifi, tələbi ilə keçmiş Kirovabad, Qutqaşen, Vartaşen şəhərlərinin adlarının dəyişdirilərək Gəncə, Qəbələ, Oğuz olmaları barədə qərar qəbul edilib. Haqsız olaraq Ermənistana verilmiş Zəngəzur mahalının bir parçası Mehri rayonunun Nüvədi, Aldərə və digər yaşayış məntəqələrinin Azərbaycanın Zəngilan rayonunun tabeliyinə qaytarılması barədə Ali Sovetdə məsələ qaldırıb, xüsusi dövlət komissiyasının yaradılmasına nail olub və 5 il həmin bölgələrdə Azərbaycanın idarəçiliyi təmin edilib. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına imza atan, müstəqil Azərbaycanın Dövlət atributlarının-Bayraq, Himn, Gerbinin qəbul olunmasına səs verən deputatlardan biri olub. Azərbaycanın Türkiyədə ilk ticarət nümayəndəliyini təsis edilib fəaliyyətə başlamasını, birgə istehsal müəssisələrinin açılmasını təmin edib. Zəngəzur Cəmiyyətləri İctimai Birliyinin təsisçilərindən biri, sədrin birinci müavini, 2001-2010-cu illərdə Sədri olub, qaçqınların sosial problemlərinin həlli üçün böyük əmək sərf edib. 2010-cu ildə ərizəsi ilə Sədrlikdən könüllü istefa verdikdən indiyədək Cəmiyyətin Ağsaqqallar Şurasının sədridir. Ailəlidir, iki övladı, dörd nəvəsi vardır.

**Azərbaycanın ilk QHT-lərindən biri
Zəngəzur Cəmiyyətləri İctimai Birliyidir**

Tarixi Zəngəzur mahalının xeyli sayda ictimai təşkilatının ümumi birliyi kimi, bölgə ziyalılarının ümumi fikri ilə Azərbaycan Dövlət Universitetinin böyük zalında keçirilən təsis konfransında yaradılıb və 1992-ci il mayın 5-də Ədliyyə Nazirliyində Dövlət qeydiyyatına alınıb (№ 176). Sisian, Gorus, Qafan, Meğri, Laçın, Zəngilan,



Qubadlı özəkləri və Türkiyədə nümayəndəliyi vardır. Birliyin www.zengezur.com saytı 2013-cü ilin iyun ayından fəaliyyətdədir və Azərbaycan Mətbuat Şurasının üzvüdür.
2010-cu ildən Birliyin sədri
15 elmi-publisist kitabın müəllifi

**Hacı Nəriman oğlu Abdulladır.**

Birlik 2010-2019-cu illərdə Azərbaycanın 16 rayonunda, Türkiyə və Çexiyada 9 layihə həyata keçirib, 7 kitab, 3 albom-disk buraxdırıb, konfranslar, təqdimatlar, müsabiqələr təşkil edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən layihələrin icrasına görə dəfələrlə "Əla bal toplayan təşkilatlar" siyahısına düşüb, Şuranın və digər qurumların Fəxri fərmanlarına layiq görülüb.



# Bizim nəşrlər



# Vətən, Torpaq, Şəhid ünvanlı tədbirlərimizdən fotolar:



















*“Zəngəzur Cəmiyyətləri” İctimai Birliyi*

*Ünvan: Bakı şəh.Nizami ray.Ə.Kürçaylı küç.,20/6*

*Tel: +994 50 339 10 31*

*E-mail: haci_narimanoglu@mail.ru*

*“QHT Nəşriyyatı” MMC*

*Ünvan: Bakı şəh., Bakıxanov qəs.,Telman küç.,6*

*Tel: +994 12 429 87 85*

*E-mail: qhtnesriyyati@gmail.com*